Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

# İŞGƏNCƏLƏR ƏLEYHİNƏ MİLLİ PREVENTİV MEXANİZMİN FƏALİYYƏTİNƏ DAİR

# H E S A B A T

**(2017)**

Bakı – 2018

Hesabatda BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkilin 2017-ci ildə həyata keçirdiyi fəaliyyət, başçəkmələr, qaldırılan təklif və tövsiyələr təqdim olunur.

BMT-nin İşgəncələrin Qarşısının Alınması üzrə Komitəsi (CAT), İşgəncələrin Qarşısının Alınması üzrə Alt Komitəsi (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin(CPT), habeləBMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə ölkəyə verilmiş təklif və tövsiyələri də Müvəkkilin Milli Preventiv Mexanizm qismində fəaliyyətində və bu hesabatda nəzərə alınmışdır

Başçəkmələrin, keçirilmiş görüş və tədbirlərin nəticəsi olaraq təhlillər əsasında hazırlanmış məlumatlar, statistik göstəricilər, habelə "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu hesabata daxil edilmişdir.

**İSBN:978-9952-51-4773**

# MÜNDƏRİCAT

**Ön Söz**..........................................................................................4
Mətndə istifadə olunmuş anlayışlar və ixtisarlar..........................................5

**BÖLMƏ 1. FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZM MANDATI**......................................7
*1.1. Fakültativ Protokolun tələbləri*..............................................................7
*1.2. Milli qanunvericilik*...........................................................................8
*1.3. Milli Preventiv Mexanizmin fəaliyyət istiqamətləri*...............................10

**Bölmə 2. MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR**..............................................................12
*2.1. Preventiv başçəkmələrin təşkili*.........................................................12
*2.1.1. Plan üzrə başçəkmələr*....................................................................12
*2.1.2. Plandankənar başçəkmələr*...............................................................13
*2.2. Başçəkmələrin həyata keçirilməsi*.........................................................13
*2.2.1.Daxili İşlər Nazirliyinin müəssisələri*..................................................16
*2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri*.................22
*2.2.3 Dövlət Təhlükəsizliyi Xidmətinin müəssisələri*.................................41
*2.2.4. Dövlət Miqrasiya Xidmətin müəssisələri*..........................................42
*2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri*......................................................43
*2.2.6. Təhsil Nazirliyinin müəssisələri*........................................................49
*2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri*..........55
*2.2.8. Yerli icra hakimiyyəti orqanlarının müəssisələri*..............................58

**BÖLMƏ 3. HÜQUQİ TƏHLİL**..................................................................63

**BÖLMƏ 4. HÜQUQİ MAARİFLƏNDİRMƏ**..........................................74

**BÖLMƏ 5. İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ**..........................................................79

**BÖLMƏ 6. TƏKLİF VƏ TÖVSİYƏLƏR**..............................................87

ƏLAVƏ 1...................................................................................................94

ƏLAVƏ 2...................................................................................................97

# ÖN SÖZ

İnsan hüquqlarının müdafiəsi, təbliği və təmini sahəsində həyata keçirdiyimiz fəaliyyətin tərkib hissəsi olaraq, müvafiq dövlət qurumları, vətəndaş cəmiyyəti institutları, kütləvi-informasiya vasitələri, beynəlxalq təşkilatlar, xarici ölkələrin Milli İnsan Hüquqları Təsisatları, yerli və beynəxalq ekspertlərlə olan əlaqələrimiz Müvəkkilin Milli Preventiv Mexanizm qismində də fəaliyyətinin inkişafına, hüquq pozuntularının qarşısının alınmasına, uğurlu və konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasına, faydalı müzakirələr, treninqlər və təcrübə mübadilələrinin təşkilinə imkan vermişdir.

Qeyd edim ki, Azərbaycan Respublikası 2 dekabr 2008-ci ildə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunu ratifikasiya etmiş, ölkə Prezidentinin 13 yanvar 2009-cu il tarixli, 112 saylı Sərəncamı əsasında isə Protokolda nəzərdə tutulmuş Milli Preventiv Mexanizmin funksiyalarını həyata keçirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

MPM qismində işgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə fəaliyyətimiz çərçivəsində istər praktik yanaşma, istərsədə qanunvericiliyə təklif və tövsiyələrin verilməsi, habelə təşkilati baxımdan mövcud fəaliyyətin təkmilləşdirilməsi məqsədilə təşəbbüs və töhfələrimizi əsirgəmirik.

Nəticə olaraq isə, bu funksiyaların icrasından irəli gələn vəzifələrin yerinə yetirilməsi Müvəkkilin fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir.

Azərbaycan MPM-nin 2017-ci il üzrə fəaliyyətini əhatə etməklə, görülmüş işlər, preventiv başçəkmələr və onların nəticələri, verilmiş təklif və tövsiyələr və onların icrası vəziyyəti, eləcə də MPM-in həyata keçirdiyi hüquqi maarifləndirmə və digər fəaliyyət istiqamətlərinə dair tədbirlər bu hesabatda əks olunmuşdur.

Ümid edirəm ki, hesabatda qaldırdığımız məsələlələr,verdiyimiz təklif və tövsiyələr aidiyyəti qurumlar və şəxslər tərəfindən nəzərdən keçiriləcək, Fakültativ Protokolun tələblərinə uyğun şəkildə müvafiq istiqamətlər üzrə fəaliyyətin daha da təkmilləşdirilməsinə öz töhfəsini verəcəkdir.

Bu baxımdan MPM fəaliyyətinə dair hesabatla bağlı göndəriləcək təkliflərə görə əvvəlcədən təşəkkür edirik.

**prof. Elmira Süleymanova**
*Azərbaycan Respublikasının*
*İnsan Hüquqları üzrə Müvəkkili*
*(Ombudsman)*

## MƏTNDƏ İSTİFADƏ OLUNMUŞ ANLAYIŞLAR VƏ İXTİSARLAR

**Azadlıqdan məhrum etmə** – şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması

**Azadlıqdan məhrum edilmiş şəxs** – barəsində azadlıqdan məhrum etmə tətbiq edilmiş şəxs

**Azadlıqdan məhrum etmə yeri** – şəxsin öz iradəsi ilə tərk etmə hüququ olmadan saxlanıldığı və ya saxlanıla bildiyi istənilən yer

**Aparat** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatı

**ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı

**BMT** – Birləşmiş Millətlər Təşkilatı

**CÇM** – Cəzaçəkmə müəssisəsi

**CİM** – Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi

**DİQ** –Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları

**DİN** – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi

**DMX** – Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti

**DTX** – Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti

**ƏƏSMN** – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi

**ƏN** – Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi

**FP** – "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu

**HP** – Azərbaycan Respublikasının Hərbi Prokurorluğu

**İQK**– BMT-nin İşgəncələrin Qarşısının Alınması Komitəsi (CAT)

**İQA** – BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Altkomitəsi (SPT)

**İQAK** – Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsi (CPT)

**İHOSM** – İnzibati həbs olunanların saxlanılma məntəqəsi

**İİV** – İnsanın İmmunçatışmazlığı Virusu

**İşgəncə** – İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza

**İMM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin İxtisaslaşdırılmış müalicə müəssisəsi

**İT** – İstintaq təcridxanası

**KİV** – Kütləvi informasiya vasitələri

**Konstitusiya Qanunu** – “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu
**Konvensiya** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyası”
**QİÇS** – Qazanılmış İmmunçatışmazlığı Sindromu
**MM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Müalicə müəssisəsi
**MN** – Azərbaycan Respublikasının Müdafiə Nazirliyi
**MPQ** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatında İşgəncələrin qarşısının alınması üzrə Milli preventiv qrup
**MPM** – BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya”sının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizm
**MSY** – Müvəqqəti saxlama yeri
**MTCM** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin məntəqə tipli cəzaçəkmə müəssisəsi
**Müvəkkil** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)
**PB** –Polis bölməsi
**PX** – Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidməti
**RPİ** – Rayon polis idarəsi
**RPŞ** – Rayon polis şöbəsi
**SN** – Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi
**Şöbə** – Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının İşgəncələrin qarşısının alınması şöbəsi
**ŞPİ** – Şəhər polis idarəsi
**ŞPŞ** – Şəhər polis şöbəsi
**ŞRPŞ** – Şəhər rayon polis şöbəsi
**TN** – Azərbaycan Respublikasının Təhsil Nazirliyi
**TSEK** – Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Tibbi sosial ekspert komissiyası
**TSH** – Tibbi-sanitar hissə
**UNICEF** – BMT-nin Uşaq Fondu

## BÖLMƏ 1.

## FAKÜLTATİV PROTOKOLA ƏSASLANAN MİLLİ PREVENTİV MEXANİZMİN MANDATI

### 1.1. Fakültativ Protokolun tələbləri

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) 2017-ci ildə də BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə" Konvensiyasının Fakültativ Protokolunda nəzərdə tutulmuş milli preventiv mexanizmin (MPM) funksiyalarını yerinə yetirən təsisat qismində fəaliyyətini davam etdirmişdir.

Fakültativ Protokolun[1] (FP) əsas məqsədi işgəncələrin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələrin həyata keçirilməsi sisteminin yaradılmasından ibarətdir.[2] FP konstruktiv dialoqun vacibliyini vurğulayır və tənzimlənən münasibətlərə reaksiyaya əsaslanan münasibət deyil, preventiv – qarşısını alma münasibətinin göstərilməsini təsbit edir. FP-nin innovativliyi, həm də onun hər hansı yeni hüquq və ya standartı, yaxud pozulmuş hüquqların bərpasını deyil, mövcud standartın, yəni işgəncəyə məruz qalmamaq hüququnun pozulmasının qarşısının alınmasını əks etdirməsində təzahür edir.

İşgəncələrin qarşısının alınmasının ən əlverişli üsulu kimi, bütün azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və onların saxlanma şəraitinin monitorinqi məqsədi ilə müstəqil və müntəzəm başçəkmələr sisteminin yaradılması sözü gedən sənədin ehtiva etdiyi əsas ideyadır. FP-yə əsasən, preventiv mandata malik olan beynəlxalq və milli qurumlar yaradılır (buraya İQA və Milli Preventiv Mexanizmlər daxildir). Beynəlxalq səviyyədə yaradılmış İQA BMT-nin yeni nəsil saziş qurumudur.

FP-nin 17-ci maddəsinin tələblərinə görə hər bir iştirakçı dövlət tərəfindən protokolun qüvvəyə minməsindən və ya onun ratifikasiyasından, yaxud

---

[1] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolu BMT Baş Məclisinin 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş, 22 iyun 2006-cı il tarixdə, 20 dövlət tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir;

[2] FP-nin 4-cü maddəsinin 2-ci bəndinin tələblərinə görə, FP-nin məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət, yaxud özəl saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

ona qoşulmasından sonra bir ildən gec olmayaraq dəstəklənməli, təyin və ya təsis edilməli olan MPM azadlıqdan məhrumetmə yerlərində saxlanılan şəxslərlə rəftar və saxlanma şəraitinin milli səviyyədə müntəzəm monitorinqini aparan qurumdur. MPM-lərin mandatı ən azı aşağıdakıları əhatə edir:

- azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələlərə müntəzəm olaraq baxılması;
- BMT-nin müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədi ilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi və işgəncələrin qarşısının alınması;
- qüvvədə olan qanunvericilik aktlarına və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.[3]

Göstərilən mandatın uğurla həyata keçirilməsi üçün, MPM-lərin yaradılması zamanı onların funksional müstəqilliyinin, habelə işçi heyətinin müstəqilliyinin təmin olunması əsas şərtdir.[4]

FP həmçinin MPM-lərin aşağıdakı əsas hüquqlarını təsbit edir:

- azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onlarla rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında, həmçinin azadlıqdan məhrum etmə yerlərinin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək;
- bütün azadlıqdan məhrum etmə yerlərinə buraxılmaq;
- azadlıqdan məhrum edilmiş şəxslərlə və ya müvafiq məlumat verə biləcək istənilən şəxslə fərdi söhbətlər aparmaq;
- baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək;
- İQA ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək.[5]

## 1.2. Milli qanunvericilik

FP Azərbaycan Respublikası tərəfindən 15 sentyabr 2005-ci il tarixdə imzalanmış, 02 dekabr 2008-ci il tarixli qanunla ratifikasiya edilmişdir.[6]13 yanvar 2009-cu il tarixdə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

---

[3] FP, maddə 19;
[4] FP, maddə 18(1);
[5] FP, maddə 20;

ilə FP-də nəzərdə tutulmuş milli preventiv mexanizmin funksiyalarını yerinə yetirən təsisat qismində Müvəkkil müəyyən edilmişdir.[7]

Yeni və kifayət qədər məsuliyyətli vəzifələr fonunda fəaliyyətin daha səmərəli və keyfiyyətli təşkili zərurəti Müvəkkilin mandatının, eləcə də işçi heyətinin səlahiyyət dairəsinin genişləndirilməsini şərtləndirmişdir. Konstitusiya Qanununa edilən əlavə və dəyişikliklərlə Müvəkkilin səlahiyyət dairəsi, eləcə də müstəqilliyi FP-də MPM-lər üçün nəzərdə tutulmuş tələblərə cavab verən səviyyəyə çatdırılmış, həmçinin Müvəkkilin MPM qismində fəaliyyətinin həyata keçirilməsi məqsədi ilə Aparatda şəffaf prosedurlar əsasında Milli Preventiv Qrupun (MPQ-nin) yaradılması, onun üzvlərinə dair tələblər, habelə onların hüquqları və toxunulmazlığının təminatları kimi məsələlər təsbit edilmişdir.[8]

Bu baxımından FP-nin müddəaları milli qanunvericiliyə daxil edilmiş, "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa da dəyişiklik edilmişdir. Konstitusiya Qanununa əsasənmilli preventiv mexanizmin funksiyalarının həyata keçirilməsi zamanı Müvəkkil və MPQ üzvləri istənilən vaxt, maneəsiz və əvvəlcədən xəbərdarlıq etmədən polis bölmələrinə, müvəqqəti saxlama yerlərinə, istintaq təcridxanalarına, CÇM-lərə, qarnizon hauptvaxtlarına, psixiatriya müəssisələrinə və saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi digər yerlərə daxil olmaq; saxlanılan şəxslərlə, habelə müvafiq məlumatı verə biləcək istənilən şəxslə təkbətək və ya zəruri hesab etdiyi halda mütəxəssisin və ya tərcüməçinin iştirakı ilə görüşmək və söhbət etmək; saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, eləcə də həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan bütün sənədlərlə tanış olmaq və surətlərini almaq; akt tərtib etmək, həyata keçirdiyi tədbirlərin gedişini və nəticələrini protokollaşdırmaq hüququ vardır.[9] Müvəkkilin, səlahiyyətli dövlət orqanlarına müvafiq tövsiyələr vermək və həmin tövsiyələrə müəyyən edilmiş müddətdə cavablar almaq hüququ da norma olaraq adı çəkilən qanuna daxil edilmişdir.[10]

---

[6] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (02.12.2008, № 724-IIIQD);

[7] "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın Fakültativ Protokolunun icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13.01.2009, № 112);

[8] "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya Qanunu (24.06.2011, № 163-IVKQD).

[9] Konstitusiya Qanunu, maddə 12.2.1; 18-1.2.1;

[10] Konstitusiya Qanunu, maddə 12.2.1;

Ötən müddət ərzində Müvəkkilin MPM qismində fəaliyyətinin effektiv təşkili məqsədilə qanunvericilik aktları təkmilləşdirilmiş, Müvəkkilin və MPQ üzvlərinin yuxarıda göstərilən səlahiyyətləri barədə müddəalar müvafiq qaydada normativ hüquqi aktlarda təsbit edilmişdir.[11]

Ombudsmanın MPQ-nun tərkibi Konstitusiya Qanununun 18-1.1-ci maddəsinin tələbləri əsasında 3 il müddətinə ilk dəfə 26.12.2013-cü ildə, müddətin başa çatması ilə 26.12.2016-cı il tarixdə ikinci dəfə şəffaf prosedurlarəsasında formalaşdırılmışdır.

Müvəkkil fəaliyyət çərçivəsində MPM qismində funksiyalarının səmərəli həyata keçirilməsi məqsədilə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə İşçi Qrupunun Azərbaycan Respublikasının dövrü məruzələri üzrə verilmiş, habelə İQK (CAT), İQA (SPT) İQAK-ın(CPT)təklif və tövsiyələri də nəzərə alınmışdır.[12]

## 1.3. MPM-in fəaliyyət istiqamətləri

Azərbaycan MPM-nin fəaliyyəti aşağıdakı dörd əsas istiqamət üzrə həyata keçirilən tədbirlərdən ibarətdir:

- **Preventiv başçəkmələr** – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar, əvvəlcədən xəbərdarlıq edilmədən baş çəkilməsi;

---

[11] Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 324-IVQD); "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04.2012, № 325-IVQD); Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 saylı Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri nizamnaməsi"nin "Hauptvaxt haqqında" 4 saylı əlavəsində dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (20.04. 2012, № 326-IVQD); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 13 may tarixli 65 nömrəli qərarı ilə təsdiq edilmiş "Açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələri haqqında Nümunəvi Nizamnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (04.07.2012, № 148); Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının 2011-ci il 29 dekabr tarixli 7-N nömrəli Qərarı ilə təsdiq edilmiş "Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydaları"nda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Kollegiyasının Qərarı (13.07.2012, № 3-N); "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (22.05.2012, № 352-IVQ); "Polis orqanlarının müvəqqəti saxlama yerlərində saxlanılan şəxslərin mühafizəsi və müşayiəti qaydalarına dair Təlimat"ın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Kollegiyasının Qərarı (14.01.2013, № Q1-001-13);

[12] BMT-nin İnsan Hüquqları Şurası tərəfindən 5 July 2013-cü il tarixdə qəbul edilmiş Universal Dövri İcmal üzrə İşçi qrupun məruzəsi (bənd 103.31).

- **Hüquqi təhlil** – həyata keçirilən fəaliyyətin, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, həmçinin aidiyyəti üzrə daxil olmuş təklif və tövsiyələrin, mövcud, yaxud layihədə olan qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi və müvafiq təkliflərin hazırlanması;

- **Hüquqi maarifləndirmə** – işgəncələrin qarşısının alınması işinin təşviqi məqsədi ilə Aparatın əməkdaşları, MPQ üzvləri, saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərin işçiləri, eləcə də belə yerlərdə saxlanılan şəxslər, habelə aidiyyəti təhsil müəssisələri və akademiyaların tələbə-müdavimləri üçün hüquqi maarifləndirmə tədbirlərinin təşkil olunması, müvafiq əyani vəsaitlərin hazırlanıb paylanılması;

- **İctimaiyyətlə əlaqələr və beynəlxalq əməkdaşlıq** – yerli, regional və beynəlxalq təşkilatlarla, həmçinin xarici ölkə MPM-ləri ilə informasiya mübadiləsinin aparılmasının, həyata keçirilən tədbirlərdə qarşılıqlı iştirakın, həmçinin birgə tədbirlərin təşkilinin təmin olunması, habelə MPM-in fəaliyyətinin KİV-də işıqlandırılmasının təşkili.

Sadalanan istiqamətlər üzrə Müvəkkilin fəaliyyətinin nəticələri, təklif və tövsiyələri onun MPM fəaliyyətinə dair xüsusi hesabatlarında əks etdirilir. Ötən illərin hesabatları Azərbaycan və İngilis dillərində nəşr etdirilmişdir. İndiyədək hazırlanmış hesabatlarda qanunvericiliyin təkmilləşdirilməsi, eləcə də təşkilati problemlərin həllinə yönəlmiş 200-dən artıq təklif və tövsiyə öz əksini tapmışdır ki, onun da yarıdan çoxu praktik həllini tapmış və ya icraya yönəldilmişdir.

MPM qismində fəaliyyət işgəncə və pis rəftara şərait yaradan halları pisləməklə məhdudlaşmır, qarşısı alınan tədbirlərin gücləndirilməsi məqsədilə görülməli işlərlə bağlı müvafiq təsisatlara tövsiyələr verilir, dövlət qurumları, beynəlxalq təşkilatlar, vətəndaş cəmiyyəti institutları, qeyri-hökumət təşkilatlarını birləşdirən İctimai Komitə və digər təsisatlarla əməkdaşlıqda preventiv yanaşmalar inkişaf etdirilir və dəstəklənir.

Qeyd olunmalıdır ki, Azərbaycan MPM-nin fəaliyyəti Müvəkkilin şikayətlərə baxmaq mandatı ilə də əlaqələndirilmiş, daxil olmuş müraciətlərin araşdırılması zamanı toplanmış məlumatlar, o cümlədən şikayətlərin qurumlar və müəssisələr üzrə xüsusi çəkisi preventiv başçəkmələrin planlaşdırılması və həyata keçirilməsi zamanı istifadə olunur.

# BÖLMƏ 2.

# MPM-in FƏALİYYƏTİ VƏ PREVENTİV BAŞÇƏKMƏLƏR

## 2.1. Preventiv başçəkmələrin təşkili

Azərbaycan MPM-i də üzərinə düşən vəzifələrin yerinə yetirilməsi prosesində və prioritetlərini Fakültativ Protokolun müddəalarını nəzərə almaqla müəyyən edir.

Fakültativ Protokolun 20-ci maddəsinin "a" bəndinə əsasən, Milli Preventiv Mexanizmlərin öz mandatını yerinə yetirə bilməsi məqsədilə, iştirakçı dövlətlər Fakültativ Protokolun 4-cü maddəsinin tətbiqi üçün şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrin və orada saxlanılanların sayı, yerləşdiyi yer haqqında istənilən məlumatı təqdim etməyi öhdələrinə götürürlər.

Bu məlumatlar Müvəkkilin sorğusu əsasında müvafiq dövlət orqanlarından alınır və həmin sorğular üzrə daxil olmuş məlumatlar əsasında hazırlanmış illik plana uyğun olaraq başçəkmələr həyata keçirilir. Zərurət yarandıqda, ilin sonunda müvafiq orqanlarla dəqiqləşdirmələr aparılaraq növbəti il üçün məlumatlar yenilənir.

MPM fəaliyyəti çərçivəsində bütün preventiv başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilir. Bu başçəkmələriplan üzrəvə plandankənar başçəkmələr olmaqla iki qrupa bölmək olar.

### 2.1.1. Plan üzrə başçəkmələr

Plan üzrə başçəkmələr Müvəkkil tərəfindən təsdiq olunan illik plan əsasında həyata keçirilir. İllik planın layihəsi hər ilin sonunda növbəti il üçün MPQ üzvlərinin iştirakı ilə keçirilən iclasda müzakirə olunur, nəticələr protokollaşdırılır, qəbul edilmiş plan təsdiq olunmaq üçün Müvəkkilə təqdim edilir. Planın açıqlanmaması başçəkmələrin effektivliyi baxımından çox əhəmiyyətlidir. Bu səbəbdən onun konfidensiallığı MPQ-nin üzvləri tərəfindən təmin olunur.

Bu və ya digər müəssisənin plana hansı ardıcıllıqla daxil edilməsi, həmçinin müəssisəyə təkrar başçəkmələrin təyin edilməsi həmin müəssisənin rejiminin xüsusiyyəti, şərait və rəftarla əlaqədar ötən illərdə qeydə alınmış hallar, ərazi uyğunluğu, eləcə də Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin təhlili nəticəsində MPQ-yə verilmiş məlumatlar kimi amillər nəzərə alınmaqla aparılır.

Başçəkmənin həyata keçirilməsi üçün sərf olunan vaxt isə müəssisənin həcmindən, orada saxlanılan şəxslərin sayından, rejim və digər xüsusiyyətlərindən, eləcə də başçəkməyə cəlb olunmuş MPQ üzvlərinin sayından asılı olaraq dəyişir.

### 2.1.2. Plandankənar başçəkmələr

Plandankənar başçəkmələr əsas etibarilə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyətinin öyrənilməsi, MPM-ə bu və ya digər formada məlumat ötürmüş şəxslərə qarşı təqib hallarının baş verməsinin qarşısının alınması, o cümlədən saxlanılan şəxslərlə aparılan söhbət zamanı onların əvvəllər saxlanıldıqları müəssisə haqqında verdikləri məlumatların və Müvəkkilin ünvanına daxil olmuş şikayətlərin, qaynar xəttinə daxil olmuş müraciətlərin təhlili, MPQ-yə verilmiş məlumatların araşdırılması, kütləvi informasiya vasitələrində rast gəlinən və MPM-i maraqlandıran informasiyaların yerində yoxlanılması məqsədilə Müvəkkilin təşəbbüsü ilə həyata keçirilir.

## 2.2. Başçəkmələrin həyata keçirilməsi

Başçəkmələrin effektivliyinin təmin olunması üç əsas mərhələnin əhatə olunmasını tələb edir. Bunlar nəzərə alınaraq Azərbaycan MPM-i tərəfindən başçəkmələr aşağıdakı mərhələlər üzrə həyata keçirilir:

- başçəkməyə hazırlıq;
- başçəkmənin həyata keçirilməsi;
- başçəkmədən sonrakı tədbirlər.

Başçəkməyə hazırlıq adətən iki iş gününədək davam etməklə zəruri məlumatların toplanılması; başçəkmənin məqsədlərinin müəyyən edilməsi; başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsindən ibarət olur.

Hazırlıq zamanı, zəruri məlumatların toplanılması prosesində əvvəlki başçəkmələrdə əldə edilmiş və ya digər mənbələrdən alınmış məlumatlar, Müvəkkilin ünvanına daxil olmuş müraciətlər, KİV-lərdən alınmış məlumatlar, habelə başçəkmənin həyata keçiriləcəyi müəssisənin fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlar və beynəlxalq standartlar təhlil edilir.

Başçəkmənin məqsədləri saxlanılma şəraitinin və rəftarın ümumən qiymətləndirilməsindən; saxlanılma şəraiti və rəftarla bağlı konkret halların öyrənilməsindən (məsələn, intizam cəzalarının həyata keçirilməsi, tibbi xidmətin keyfiyyəti və s.); əvvəlki başçəkmələr zamanı aşkar olunmuş halların aradan qaldırılıb-qaldırılmamasının, habelə verilmiş təklif və tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından; xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirilməsindən və digər tədbirlərdən ibarət olmaqla müəyyən edilir.

Başçəkməni həyata keçirəcək qrupun təşkil edilməsi zamanı qrup üzvlərinin sayı, ixtisası, cinsi və s. amillər nəzərə alınmaqla başçəkmə qrupunun

tərkibi formalaşdırılır, başçəkmənin məqsədindən asılı olaraq başçəkmə və müsahibə suallarının siyahısı, məhkumlarla söhbətin protokollaşdırılması üçün blank formaları, sorğu anketləri və s. hazırlanır.

*Başçəkmənin həyata keçirilməsi* özündə bir neçə mərhələni ehtiva edir:

Əvvəlcə müəssisənin rəhbərliyi ilə ilkin söhbət aparılır, söhbət zamanı qrup üzvləri özlərini təqdim edir, başçəkmənin məqsədi barədə onu məlumatlandırırlar. Daha sonra müəssisə barədə ümumi məlumat alınır.

Müəssisənin rəhbərliyi ilə ilkin söhbətdən sonra müəssisənin binalarına baş çəkilir. Bu zaman müəssisədə saxlanılma şəraiti – müəssisənin binasının, kamera və ya otaqların vəziyyəti, ölçüsü, tutumu, faktiki yerləşmə, işıqlandırma, ventilyasiya, mebel təchizatı, şəxsi gigiyena və sanitariya şəraiti, qidalanma məsələləri qiymətləndirilir; tibbi xidmətlərin təmin olunması vəziyyəti, mövcud sənədləşmə və s. araşdırılır.

Daha sonra sənədlərə baxış keçirilir, saxlanılan şəxslərlə kollektiv və ya təkbətək, konfidensial şəkildə söhbət aparılır. Saxlanılan şəxslərlə kollektiv söhbətlərin aparılması əsas etibarilə başçəkmənin məqsədindən asılıdır. Vəziyyətdən asılı olaraq söhbətlərin hansı şəkildə aparılmasını MPQ üzvləri başçəkmə yerində müəyyən edə, yaxud ilkin razılaşmaya düzəliş edə bilər.

Müəssisə əməkdaşları ilə söhbət də başçəkmənin vacib məsələlərindəndir. MPQ üzvləri başçəkmə həyata keçirərkən saxlanılan şəxslərə görə cavabdehlik daşıyan müəssisə əməkdaşlarının rəftar baxımından yanaşmalarını qiymətləndirmək məqsədi ilə onlarla müsahibələr təşkil edirlər. Bəzi hallarda müəssisələrin personalı ilə söhbətlə yanaşı onlar üçün nəzərdə tutulmuş xüsusi sorğu anketlərindən də istifadə olunur.

Başçəkmənin sonunda müəssisə rəhbəri ilə yekun söhbət aparılaraq MPQ tərəfindən aşkar edilmiş hallarla bağlı məlumat verilir. Yerində aradan qaldırıla biləcək məsələlər onun diqqətinə çatdırılır və müvafiq tövsiyələr verilir. Eyni zamanda nəticələrlə bağlı müvafiq orqanın rəhbərliyinə müraciət ediləcəyi bildirilir.

Başçəkmədən sonrakı tədbirlər də fəaliyyətin səmərəliliyi baxımından olduqca əhəmiyyətlidir. Çünki MPM-in fəaliyyətinin məqsədi yalnız müvafiq yerlərə başçəkmədən ibarət deyil, müxtəlif müəssisələrdə saxlanılan şəxslərlə rəftarın və onların saxlanılma şəraitinin yaxşılaşdırılmasına istiqamətlənmiş prosesi təşkil etməkdir.

Məhz ona görə də başçəkmədən sonra onun nəticələrinə dair hesabat tərtib edilir, rəftar və şəraitin yaxşılaşdırılması üçün tövsiyələr hazırlanaraq müvafiq qurumlara göndərilir.

Adətən MPQ-nin zəruri hesab etdiyi hallarda başçəkmədən sonrakı yaxın dövr ərzində müəssisə ilə əlaqədar verilmiş tövsiyələrin icrası vəziyyətinin yerində yoxlanılması məqsədi ilə gün təyin edilərək təkrar başçəkmə həyata keçirilir.

2017-ci ildə MPQ üzvləri tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə plan üzrə 251, plandankənar isə 90 olmaqla, cəmi 341 başçəkmə həyata keçirilmişdir.

Müvafiq olaraq DİN-in müəssisələrində 149, ƏN-in müəssisələrində 81, DTX-nin müəssisələrində 6, DMX-nin müəssisələrində 4, SN-in müəssisələrində37, ƏƏSMN-in müəssisələrində 11, TN-nin müəssisələrində 30, Yerli icra hakimiyyəti orqanlarının müəssisələrində 23 başçəkmə keçirilmişdir.

Şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə sayca 2500-dən çox şəxslə, habelə bu müəssisələrdə çalışan 500-dən çox əməkdaşla fərdi, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

MPM fəaliyyəti çərçivəsində preventiv başçəkmələr – saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə mütəmadi olaraq, plan üzrə və ya plandankənar olmaqla və bütün hallarda əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmişdir.

Ötən illərdə olduğu kimi, cari il ərzində də aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması və saxlanılma şəraitinin təkmilləşdirilməsi üçün müəssisə rəhbərlərinə, habelə aidiyyəti nazirliklərə müvafiq təklif və tövsiyələr verilmiş, həmin orqanlar tərəfindən hər bir tövsiyə üzrə uyğun tədbirlər həyata keçirilərək görülmüş işlərin nəticələri barədə MPM-in funksiyalarını həyata keçirən Müvəkkilə məlumat verilmişdir.

Hər il planlı və plandankənar şəkildə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə həyata keçirilən başçəkmələr zamanı müraciət edən çoxsaylı şəxslə təklikdə və konfidensial görüşlər keçirilməklə yanaşı, onların müraciətləri qəbul edilmiş və yerində araşdırılmışdır.MPQ-yə çatdırılan müraciətlər nəzərə alınmaqla müvafiq tədbirlər görülmüş, hüquqi məsləhətlər verilmiş, icraata qəbul edilməsi təmin edilmişdir.

Başçəkmələrdə, habelə saxlanılan şəxslərdən, onların ailə üzvlərindən və vəkillərindən, hüquq müdafiəçilərindən aparata və Ombudsmanın qaynar xətt nömrəsinə, eyni zamanda qeyri-hökumət təşkilatlarından və Beynəlxalq Qızıl Xaç Komitəsindən Müvəkkilə ünvanlanmış müraciətlər üzrə aparılmış araşdırmalar da daxil olmaqla, çoxsaylı şəxslər qəbul olunmuşdur.

Bu sahədə olan müraciətlərlə bağlı müvafiq araşdırmalar aparılmış, zərurət yarandıqda isə yoxlanılması üçün Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə, Ədliyyə Nazirliyinə və digər əlaqədar dövlət qurumlarına müraciət edilmişdir. Araşdırmaların nəticəsi barədə müraciət edən şəxslər hər bir halda rəsmi qaydada, vaxtında, yazılı surətdə cavablandırılmışlar. Ombudsmanın "Qaynar xətt" nömrələrinin əks olunduğu müvafiq elanlar monitorinq edilmiş və olmayan yerlərdə asılması təmin edilmişdir.

### 2.2.1. Daxili İşlər Nazirliyinin müəssisələri

Məlum olduğu kimi, saxlanılmanın ilk saatlarında saxlanılan şəxslər daha məlumatsız vəziyyətdə olurlar və onların saxlanılmasına görə cavabdeh olan müvafiq orqan və səlahiyyətli şəxslərin öz səlahiyyətlərindən sui-istifadə etməsi ehtimalı və riski daha çox olur. Məhz buna görə də istər milli qanunvericiliyin tələbləri, istərsə də beynəlxalq təşkilatların mövqeyi bundan ibarətdir ki, saxlanılan şəxslərin üzərində polisin səlahiyyətləri müvafiq təminatlarla məhdudlaşdırılmalı, bu tip yerlərdə saxlanılan şəxslərin hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilməlidir.

Bu baxımdan 2017-ci ildə də Müvəkkil MPM qismində fəaliyyətində Daxili İşlər Nazirliyinin müəssisələrində saxlanılma şəraiti və rəftar məsələlərini diqqətdə saxlamış, Milli Preventiv Qrup (MPQ) tərəfindən müvəqqəti saxlanılma yerlərinə və polis bölmələrinə planlı və plandankənar olmaqla 149 başçəkmə həyata keçirilmişdir. Başçəkmələr zamanı 942 saxlanılan şəxslə fərdi söhbətlər aparılmışdır. Saxlanılan şəxslərin saxlanılma şəraiti, şərəf və ləyaqətinin müdafiəsi, işgəncə və pis rəftara məruz qalmamaq hüququnun təmin edilməsi, eləcə də müraciət etmək, hüquqi yardım almaq. tibbi xidmətə çıxış və digər hüquqlarının təmini vəziyyəti araşdırma predmeti olmuşdur.

Preventiv başçəkmələrin keçirilməsi və yekun olaraq verilmiş təklif və tövsiyələr milli qanunvericiliklə yanaşı, İQK (CAT), İQA (SPT), İQAK (CPT) hesabatlarına, beynəlxalq standartlara əsaslanmışdır.

Başçəkmələr zamanı 2017-ci ildə də Daxili İşlər Nazirliyinin müəssisələrində saxlanılma şəraitinin standartlara uyğunlaşdırılması istiqamətində tövsiyələrimiz də nəzərə alınmaqla işlərin aparıldığı müşahidə edilmişdir.

**Yasamal RPİ-nin MSY-nə, həmin RPİ-nin 27, 28 və 29-cu polis bölmələrinə** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmələr həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanılma şəraiti və rəftar məsələlərinin araşdırılması, qanunvericiliyə müvafiq şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması, o cümlədən sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış,bütün kameralara baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları və sovqat qəbulu ilə bağlı sənədləşmə yoxlanılmış, mövcud ehtiyaclar öyrənilmişdir.

MSY-də saxlanılan inzibati həbs olunmuş, habelə cinayət prosessual qanunvericiliyə uyğun olaraq tutulmuş və həbs edilmiş şəxslər MPQ üzvləri tərəfindən fərdi qaydada qəbul edilmiş, müraciətləri cavablandırılmış, onlara

hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir. Qeyd edilmiş şəxslər MSY əməkdaşlarının onlara rəftarından şikayət etməmişlər.

Başçəkmənin yekunu RPİ-nin rəhbərliyi ilə müzakirə olunmuş, MSY-nin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilmişdir.

Yasamal RPİ-nin 27, 28 və 29-cu polis bölmələrinə həyata keçirilmiş başçəkmələr zamanı məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbət aparılmışdır. Sənədləşmənin aparılması işində çatışmazlıqlar müəyyən edilmiş, onların aradan qaldırılması və təkmilləşdirilməsi ilə bağlı polis bölmələrinin rəhbərliyinə müvafiq tövsiyələr verilmişdir.

CPT-nin hesabat və məruzələrində qeyd olunduğu kimi, hər bir saxlanılan şəxsin qeydə alındığı, həbsdə saxlanılmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri (azadlıqdan məhrumetmənin vaxtı və bu tədbirin səbəbləri, hüquqlar barədə məlumatlandırılmanın vaxtı, xəsarətin, psixi çatışmazlığın və s. əlamətləri, yaxın qohumun, konsulluq nümayəndəsinin və ya vəkilin saxlanılan şəxslə təmasda olduğu və ya ona baş çəkdiyi vaxt, qidanın təklif olunduğu vaxt, dindirmənin vaxtı, başqa yerə köçürülmənin və ya azad edilmənin vaxtı) əks etdirən əhatəli vahid qeydiyyatn aparılması, polis tərəfindən həbsə alınmış şəxslər üçün əsas təminatların əlçatanlığının təmin edilməsi olduqca vacibdir.[13]

**Xəzər RPİ-nin MSY-nə** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir[14].

Başçəkmədə məqsəd MSY-də saxlanılan şəxslərin hüquqlarının təmin olunması, rəftar məsələlərinin araşdırılması, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən saxlanılan şəxslərlə görüşülmüş, onlarla fərdi qaydada söhbət aparılmışdır. Həmin şəxslərdən İ.M., R.Q. barələrində başlanmış cinayət işi üzrə istintaqın, saxlanılan Y.R. isə ilkin tutulma zamanı təzyiqlərə məruz qaldığını bildirərək müraciətlərinin obyektiv araşdırılmasında köməklik göstərilməsini xahiş etmişlər. Qəbul edilmiş müraciətlər araşdırılması məqsədilə Müvəkkil tərəfindən müvafiq qaydada istintaq orqanı qarşısında qaldırılmış, hər bir müraciət vaxtında cavablandırılmışdır.

Qəbul edilmiş şəxslər saxlandıqları Xəzər RPİ-nin MSY-nin əməkdaşlarının onlarla rəftarından şikayət etməmişlər. Onlara hüquqları və Ombudsmanın səlahiyyətləri izah olunmuş, hüquqi məsləhətlər verilmişdir.

---

[13] CPT, GR 2, paraqraf 40

[14] http://avtosfer.az/news/35209

Yekunda RPİ və MSY-nin rəhbərliyi ilə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən MSY-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələləri ilə bağlı müzakirələr aparılmış, müvafiq tövsiyələr verilmişdir.

**Suraxanı RPİ-nin MSY-nə və həmin RPİ-nin 31-ci PB-nə** əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilən başçəkmələr FP və Konstitusiya Qanununun tələbləri əsasında baş tutmuşdur.

Başçəkmə zamanı saxlanılma şəraiti ilə bağlı MSY-nin bütün kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları və digər hüquqların təminatı vəziyyəti, saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən sənədləşmə öyrənilmiş, habelə rəftar məsələləri araşdırılmış, bu məqsədlə müəssisə daxilində saxlanılan şəxslərin bir qrupu fərdi qaydada qəbul edilərək dinlənilmişlər.

Qəbul edilmiş şəxslər MSY əməkdaşlarının onlarla rəftarından narazılıq etməmiş, barələrində aparılan istintaqla bağlı hər birinə qaldırdıqları məsələlərə dair qanunvericiliyə uyğun şəkildə hüquqi məsləhətlər verilmiş, sənədləri araşdırılmış, onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri izah olunmuş, Ombudsmana ünvanlanmış ərizə və müraciətləri qəbul olunmuş, habelə bəzi müraciətlər yerində təmin edilmişdir.

Başçəkmənin yekunu Suraxanı RPİ rəhbərliyi ilə müzakirə olunmuş, MSY-nin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici xarakterli söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilmişdir.

**Suraxanı RPİ-nin 31-ci PB-nə** həyata keçirilən başçəkmə zamanı polis bölməsində saxlanılan şəxs olmamışdır. Başçəkmə zamanı əməkdaşların xidməti otaqlarına baxışlar keçirilmiş, bölmə rəhbərliyinə vətəndaşların bölməyə dəvət olunduği zaman, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı şəxslərin hüquqlarının effektiv təmin olunması və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

**Sumqayıt Şəhər Polis İdarəsinin MSY-nə** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.Başçəkmədə məqsəd saxlanılma şəraitinin və rəftarın araşdırılması, o cümlədən müvafiq sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən, habelə həmin şəxslərlə rəftara və onların saxlanma şəraitinə aid olan sənədlər araşdırılmış, MSY-in bütün kameralarına baxış keçirilmişdir.

Başçəkmə zamanı MPQ üzvləri tərəfindən saxlanılan şəxslərlə görüşülmüş, onlarla fərdi qaydada söhbətlər aparılmışdır.

Həmin şəxslərdən R.Ş. tutulan zaman Sumqayıt ŞPİ-nin əməkdaşları tərəfindən fiziki təzyiqlərə məruz qaldığını bildirmiş[15] və məsələnin obyektiv araşdırılmasında köməklik göstərilməsini xahiş etmişdir.[16]

İstanbul Protokolunda qeyd olunduğu kimi, pis rəftar halları ilə bağlı şübhələr varsa, müvafiq təhqiqat aparılmalı, obyektiv və qərəzsiz təhqiqatın aparılması üçün aidiyyatı üzrə orqan müəyyən edilməlidir.[17]Bu baxımdan R.Ş.-nın müraciəti obyektiv araşdırma aparılması və lazımi tədbirlərin görülməsi məqsədi ilə MPM qismində Müvəkkil tərəfindən Baş Prokuror qarşısında qaldırılmışdır.

Qəbul edilmiş digər şəxslər MSY-də saxlama şəraitindən, əməkdaşların onlarla rəftarından şikayət etməmişlər.

Yekunda MSY-nin rəhbərliyinə saxlanılma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.

**Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü və 4-cü PB-nə həyata keçirilən başçəkmələr** saxlanılan şəxslərinin hüquqlarının təmini məsələsinin araşdırılması məqsədini daşımışdır.

Sumqayıt Şəhər Polis İdarəsinin 3-cü PB-nə başçəkmə zamanı polis bölməsində saxlanılan şəxs olmamışdır. Başçəkmə zamanı xidməti otaqlara baxışlar keçirilmiş, bölmə rəhbərliyinə vətəndaşların bölməyə dəvət olunduğu zaman, habelə şübhəli şəxs qismində cəlbetmə zamanı şəxslərin hüquqlarının effektiv təmin olunması ilə bağlı tövsiyələr verilmişdir.

Sumqayıt Şəhər Polis İdarəsinin 4-cü PB-nəbaşçəkmə zamanı polis bölməsində saxlanılan A.İ. ilə görüş zamanı o, bölməyə yeni gətirildiyini, rəftar məsələləri ilə bağlı şikayətinin olmadığını bildirmişdir.

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində **Oğuz rayon RPŞ-nin MSY-nə** həyata keçirilən başçəkmə zamanı müvafiq sənədləşmə ilə yanaşı, saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmışdır.

Fərdi qaydada qəbul edilən şəxslər müəssisə əməkdaşlarının onlarla rəftarından narazılıq etməmişlər.

Oğuz RPŞ-nin MSY-nin müvafiq qeydiyyat kitablarına baxış keçirilərkən çatışmazlıqlar aşkarlanmış və sənədləşmədə olan nöqsanların aradan qaldırılması məqsədilə Ombudsmanın MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyi qarşısında qaldırılmış və təmini ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

CPT-nin azadlıqdan məhrumetmə yerlərinin monitorinqi ilə bağlı məruzələrində vurğuladığı kimi,qeydiyyatın aparılması öz-özlüyündə mühüm

---

[15] https://www.amerikaninsesi.org/a/3734824.html
[16] http://qaynarinfo.az/az/ombudsmanin-numayendesi-ve-vekil-hebsdeki-fealla-grusdu/
[17] İstambul Potokolu.3;84

təminatdır. Saxlanılan şəxslərlə rəftara və tətbiq edilən prosedurlara dair bütün mühüm məlumatlar orada yazılı şəkildə saxlanılmalıdır.[18]

**Yevlax RPŞ-nin MSY-nə başçəkmə zamanı** MSY-nin kameralarına, istintaq, görüş, tibb, ibadət otaqlarına, mətbəxə, sanitar qovşaqlara, gəzinti yerinə baxış keçirilmiş, istilik, ventilyasiya,su sisteminin yenidən qurulması müşahidə edilmişdir.

Başçəkmə zamanı MSY-də saxlanılan şəxslərlə konfidensial görüşən MPQ üzvləri onların saxlanılma şəraiti və polis əməkdaşlarının onlarla rəftarı ilə maraqlanmış, saxlanılan şəxslər MSY-də əməkdaşların onlarla rəftarından narazı olmadıqlarını bildrirmişlər.

Yevlax RPŞ MSY-nə keçirilən başçəkmə zamanı Tibb otağında yararlılıq müddəti başa çatmış dərman preparatlarının tibb dolabında saxlanılması müəyyən edilmiş və aradan qaldırılması təmin edilmişdir. Telefon danışıqlarının qeydiyyatı kitabının təmin edilməsi və sənədləşmə işinin təkmilləşdirilməsi Ombudsmanın MPQ üzvləri tərəfindən Yevlax RPŞ-nin və MSY-nin rəhbərliyi qarşısında qaldırılmış, müvafiq tövsiyələr verilmiş, o cümlədən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

**Lənkəran RPŞ-nin MSY-nə** keçirilmiş başçəkmə zamanı saxlanılan şəxslərlə görüş keçirilmiş, onların hüquq və vəzifələri izah olunmuş, qanunvericiliklə bağlı sualları cavablandırılmış, qeydiyyat kitablarına, saxlanılan şəxslərin şəxsi işlərinə,kameralara, şəxsi əşyaların saxlanılması üçün otağa, növbətçi otağına, görüş otağına, tibb işçisi otağına, mətbəx, ibadət və hamam otaqlarına baxış keçirilmişdir.

Sənədləşmədə çatışmazlıqlar və MSY əməkdaşlarının hüquqi məlumatsız olduqları müşahidə edilmiş və işinin təkmilləşdirilməsi Ombudsmanın MPQ üzvləri tərəfindən Lənkəran RPŞ-nin və MSY-nin rəhbərliyi qarşısında qaldırılmış, müvafiq tövsiyələr verilmiş, o cümlədən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işi aparılmışdır.

**Tovuz RPŞ-nin MSY-nə** keçirilmiş planlı başçəkməzamanı MPQ üzvləri tərəfindən MSY-nə ümumi baxış keçirilmiş, 1-i inzibati qaydada saxlanılan şəxslər üçün olmaqla 7 kameraya, istintaq otağına, saxlanılan şəxslərin şəxsi əşyalarının saxlanılması otağına, dərman preparatları ilə təchiz edilmiş tibb otağına, ibadət otağına, istintaq və görüş otağına, MSY-nin rəisinin otağına, mətbəx və gəzinti sahəsinə baxış keçirilmişdir. MSY-də isti və soyuq suyun gəlməsi, tibb otağının dərman preparatları ilə təchiz edilməsi müşahidə edilmişdir.

"Şəhər,rayon,xətt polis orqanlarına gətirilmiş şəxslərin qeydiyyat kitabına" baxış keçirilərkən polis şöbəsinə gətirilən və saxlanılan şəxslərin azad

---

[18]CPT, GR 2, paraqraf 40

edilmə tarixlərinin, habelə gətirilmə səbəbləri barədə qeydlərin olmaması müəyyən edilmişdir. Aşkar olunmuş nöqsanlar sənədləşdirilmiş və Tovuz RPŞ-nin rəhbərliyi qarşısında qaldırılmaqla müvafiq tədbirlərin görülməsi, habelə xidmət əməkdaşlarının hüquqi maarifləndirilməsi tövsiyə edilmişdir.

**Ağstafa RPŞ-nin MSY-nə** həyata keçirlən planlı başçəkmə çərçivəsində müvafiq sənədləşmə ilə yanaşı, saxlanılan şəxslərlə rəftar məsələləri araşdırılmışdır. MSY-nin kameralarına, gəzinti yerinə baxış keçirilmiş, qidalanma, tibbi yardımla bağlı sənədləşmə yoxlanılmışdır.

Başçəkmə zamanı MSY-nin binasının müasir standartlara uyğun yenidən qurulmasına, kameralarında şəraitin yaxşılaşdırılmasına ehtiyacın olduğu müəyyən edilmiş, saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmiş, qeyd olunan məsələlərin həlli üzrə müzakirələr aparılmışdır.

Başçəkmə çərçivəsində İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya və onun Fakültativ Protokolunun müddəaları əsasında polis şöbəsinin əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

**Qazax RPŞ-nin MSY-nə** həyata keçirilən başçəkmə zamanı,MSY-nin bütün kameralarına baxış keçirilmiş, saxlanılan şəxslər konfidensial qaydada qəbul edilmişlər.

Başçəkmə çərçivəsində saxlanılan şəxslərin saxlanılması əsasları və hüquqlarının təmini ilə bağlı müvafiq qeydiyyat jurnalları da yoxlanılmış, sənədləşmə işində nöqsanların mövcudluğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda mövcud çatışmazlıqların aradan qaldırılması, saxlanma şəraitinin təkmilləşdirilməsi və rəftar məsələlərinə dair MPQ üzvləri tərəfindən müəssisə rəisinə müvafiq tövsiyələr verilmişdir.

**Xaçmaz RPŞ-nin MSY-nə** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolun və Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd saxlanılan şəxslərlə rəftara və onların saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Milli Preventiv Mexanizm qismində fəaliyyətinin tərkib hissəsi kimi həyata keçirilən başçəkmə zamanı saxlanılan şəxslərin saxlanılmasının qanuniliyini təsdiq edən və onların saxlanma şəraitinə aid olan sənədlər, habelə rəftar məsələləri araşdırılmışdır. MSY-nin kameralarına baxış keçirilmiş, qidalanma, tibbi yardım, gəzinti, görüş, telefon danışıqları ilə bağlı sənədləşmə yoxlanılmışdır.

Xaçmaz RPŞ-nin MSY-nə keçirilən başçəkmə zamanı tibb otağında yararlılıq müddəti başa çatmış dərman preparatlarının saxlanılması müəyyən edilmiş və aradan qaldırılması təmin edilmişdir.

Göründüyü kimi, MSY və polis bölmələrində sənədləşmənin aparılması ilə bağlı təcrübədə çatışmazlıqlara rast gəlinir.CPT ümumi məruzələrində qeyd edir ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, saxlanmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli vahid qeydiyyat aparılsa, polis tərəfindən saxlanılmış şəxslər üçün əsas təminatlar gücləndirilmiş olar və polis əməkdaşlarının işi xeyli asanlaşar.[19]

Qeyd olunmalıdır ki, MSY-da saxlanılan şəxslərin sağlamlıq hüququ kontekstində onların ehtiyac yarandığı halda keyfiyyətli dərman vasitələri ilə təmin edilməsi də vacibdir. Belə ki, Azərbaycan Respublikasının milli qanunvericiliyi ilə yanaşı, Polis etikasına dair Avropa Məcəlləsi də saxlanılmış şəxslərin saxlanıldıqları müddətdə təhlükəsizliyi, sağlamlığı, gigiyenik şəraiti və münasib qidasının polis tərəfindən təmin edilməsi vəzifəsini müəyyən edir.[20]

2017-ci ildə Ombudsmanın 24 saat fəaliyyət göstərən İşgəncələrlə bağlı Qaynar Xəttinə polis orqanlarının fəaliyyəti ilə bağlı, hüquqi yardıma çıxış, kobud rəftar ehtimalı, əsassız saxlama üzrə müraciətlər də daxil olmuşdur.Ombudsmanın səlahiyyətləri çərçivəsində vətəndaşların hüquqlarının təmin edilməsi istiqamətində dərhal addımlar atmış və preventiv yanaşmalar əsasında müraciətlər Baş Prokurorluq, Daxili İşlər Nazirliyi qarşısında qaldırılmaqla təmin edilmişdir.

Həyata keçirilən fəaliyyət çərçivəsində qaldırılmış müraciətlərə dərhal reaksiya verilmiş, nəticə olaraq isə, Daxili işlər orqanlarının bir qrup əməkdaşı xidməti fəaliyyətlərində yol verdikləri nöqsanlara görə intizam məsuliyyətinə cəlb edilmişdir.

### 2.2.2. Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin müəssisələri

Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2017-ci ildə də Ədliyyə Nazirliyinin (ƏN) Penitensiar Xidmətinin müəssisələrində saxlanılan şəxslərin hüquqlarının təmin edilməsi istiqamətində preventiv başçəkmələr və tədbirlər həyata keçirilmişdir.

İl ərzində Penitensiar Xidmətin (PX)istintaq təcridxanaları və cəzaçəkmə müəssisələrinə planlı və plandankənar olmaqla 81 başçəkmə həyata keçirilmişdir. Bütün başçəkmələr əvvəlcədən xəbərdarlıq etmədən keçirililmiş və MPQ üzvlərinə lazımi şərait yaradılmışdır.

Başçəkmələr çərçivəsində 839 saxlanılan şəxslə fərdi söhbətlər aparılmış, onların saxlanma şəraiti, qanunvericilik və beynəlxalq aktlarda təsbit

---

[19]CPT, GR 2, paraqraf 40;

[20]Polis etikasına dair Avropa Məcəlləsi, (2001) 57-ci maddə.

edilmiş hüquqlarının təmini və müdafiəsi, işgəncə və pis rəftarın qarşısının alınması diqqət mərkəzində olmuşdur. Penitensiar Xidmətin müəssisələrində saxlanılan hüquqi yardım almaq, müraciət etmək, sosial təminat, sağlamlığın qorunması hüquqlarının təmini vəziyyəti də MPQ üzvlərinin fəaliyyətində xüsusi yer tutmuşdur.

FP-yə və Konstitusiya Qanununun uyğun olaraq Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində MPQ-nin üzvləri tərəfindən keçirilən preventiv başçəkmələrin nəticəsi olaraq verilmiş təklif və tövsiyələr milli qanunvericiliklə əlaqəli şəkildə, İQK (CAT), İQA (SPT) və İQAK-ın(CPT) hesabatlarına, Avropa Penitensiar Qaydaları, İstanbul Protokolu və digər beynəlxalq standartlara əsaslanmışdır.

MPQ-nin başçəkmələri zamanı kobud rəftar və zorakılığa məruz qalma ehtimalı üzrə daxil olmuş məlumatlar dərhal araşdırılmış, lazımi tədbirlərin görülməsi məqsədilə Müvəkkil tərəfindən Ədliyyə Nazirliyi və Baş Prokurorluq qarşısında məsələ qaldırılmışdır.

**Bakı İstintaq Təcridxanasına** Müvəkkil və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən 2017-ci ildə əvvəlcədən xəbərdarlıq etmədən planlı və plandankənar başçəkmələr həyata keçirilmişdir.[21] Başçəkmələr FP və Konstitusiya Qanunu əsasında təşkil olunmuşdur.

Başçəkmələrdə məqsəd saxlama şəraitinin və rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılması, müvafiq şəkildə sənədləşmənin aparılması olmuşdur.

MPM qismində Ombudsmanın özünün də iştirak etdiyi, habelə MPQ üzvləri tərəfindən keçirilmiş başçəkmələr zamanı Bakı İstintaq Təcridxanasında daxil olmuş müraciətlər, saxlanılma şəraiti və rəftar məsələləri araşdırılmış, həmin müəssisədə bir çox təqsirləndirilən şəxslər fərdi qəbul olunmuş, ərizə və müraciətlərinə baxılmış, o cümlədən KİV-lərdə adları çəkilən şəxslər, ilkin istintaq dövründə burada saxlanılan xarici ölkə vətəndaşları konfidensial qaydada dinlənilmiş,[22]hüquqlarının təmin olunması vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmış, bir sıra müraciətlər yerində təmin edilmişdir.[23]

Bununla yanaşı, konfidensial qaydada qəbul edilmiş bəzi şəxslər barələrində aparılan istintaqdan narazılıqlarını bildirmiş və müraciətlərdə yer alan məsələlər müvafiq qaydada Baş Prokurorluq qarşısında qaldırılmış və cavablandırılmışdır.

---

[21] https://azvision.az/news/126115/ombudsman-baki-istintaq-tecridxanasinda-olub.html
[22] http://www.ombudsman.gov.az/az/view/news/505/ombudsmanin-milli-preventiv-qrupu-terefinden-baki-istintaq-tecridxanasina-bashchekme-heyata-kechirilmishdir
[23]https://az.trend.az/azerbaijan/society/2796100.html

MPQ-nin hәkim üzvünün dә iştirak etdiyi başçәkmәlәr çәrçivәsindә havalandırma, qidalanma, su tәminatı, tibbi yardım, habelә әvvәlki başçәkmәlәr zamanı verilmiş tövsiyәlәrin icrası üzrә görülmüş işlәr dә yerindә araşdırılmışdır.

Başçәkmәlәr çәrçivәsindә Avropa Penitensiar Qaydalarına müvafiq şәkildә informasiya әldә etmәyin vә şikayәtlәr vermәyin qanun әsasında icazә verilәn üsulları vә onun öz hüquq vә vәzifәlәrini başa düşmәsi vә özünü müәssisәnin hәyatına uyğunlaşdırması üçün zәruri olan bu kimi bütün digәr mәsәlәlәrin vә hüquqlarının tәmini dә aparşdırma predmeti olmuşdur.

Tәqsirlәndirilәn şәxslәrin ailә üzvlәri vә barәlәrindә aparılan istintaq gedişindә hüquqlarının tәmsil edәn şәxslәr vә vәkillәri ilә görüşlәri, bu mәsәlәlәrlә bağlı müraciәtlәrinin tәmini vәziyyәti dә yerindә araşdırılan mәsәlәlәrdәn olmuşdur.

*Qeyd edilmәlidir ki, CPT tövsiyәlәri dә, bu qәbildәn olan müәssisәlәrdә saxlanılan şәxslәrin ailә üzvlәri, konsulluq nümayәndәlәri, vәkillә görüşmәk hüquqlarının tәmini mәsәlәlәrinә xüsusi әhәmiyyәt verir.*[24]

Başçәkmәlәrin yekununda saxlanılan şәxslәrin hüquqlarının effektiv tәmini vә müәyyәn edilmiş çatışmazlıqların aradan qaldırılması mәqsәdilә müәssisә rәhbәrliyi ilә müvafiq söhbәtlәr aparılmış vә tövsiyәlәr verilmişdir.

**2 saylı İstintaq Tәcridxanasında** planlı vә plandankәnar başçәkmәlәr hәyata keçirilmişdir.

Başçәkmәlәr zamanı Gәncә şәhәrindә yerlәşәn bu İstintaq Tәcridxanasının bütün obyektlәrinә, yataqxanalarına, mәtbәx, görüş vә gәzinti yerlәrinә vә cәrimә tәcridxanasına, tibbi-sanitar hissәsinә baxış keçirilmişdir.

Müәssisәdә sıxlıq müşahidә olunmuşdur. İstintaq Tәcridxanasının binası köhnә olduğundan burada aparılan cari tәmir işlәri dә sәmәrәli nәticә vermir. Bu baxımdan mәsәlә Ombudsman tәrәfindәn Әdliyyә Nazirliyi qarşısında qaldırılmış vә Gәncә şәhәrindә yeni penitensiar kompleksin inşasının davam etdirildiyi bildirilmişdir. Bu istiqamәtdә hәyata keçirlәn işlәrin sürәtlәndirilmәsinә ehtiyac vardır.

CPT dә öz tövsiyәlәrindә qeyd edir ki, kameralarda hәddәn artıq şәxsin saxlanılması problemi hәmin müәssisәnin daxilindәki bütün xidmәtlәrә vә fәaliyyәtә mәnfi tәsir göstәrir; müәssisәdә ümumi hәyat sәviyyәsi, ola bilsin ki, әhәmiyyәtli dәrәcәdә aşağı düşәr. Müәssisәdә vә ya onun bir hissәsindә hәddәn artıq mәhkumun olması insanın fiziki mövcudluğu baxımından qeyri-insani vә ya lәyaqәti alçaldan rәftara da yol aça bilәr[25].

---

[24]CPT,GR, paraqraf.36

[25]CPT,GR2, paraqraf 47

Həyata keçirilən planlı və plandankənar başçəkmələrin sonunda saxlanma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin milli və beynəlxalq normalara, o cümlədən istintaq təcridxanalarının Daxili İntizam Qaydalarına müvafiq şəkildə daha da təkmilləşdirilməsi və çatışmazlıqların aradan qaldırılması ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

**3 saylı İstintaq Təcridxanasına** həyata keçirilmiş başçəkmədə məqsəd saxlanılma şəraitinin və rəftarın, o cümlədən saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı saxlanılma şərati ilə bağlı qidalanma, ərzaq təminatı, tibbi yardım, gəzinti və digər hüquqların təminatı vəziyyəti, habelə rəftar məsələləri araşdırılmış, bu məqsədlə müəssisə daxilində bir çox saxlanılan şəxs fərdi qaydada qəbul edilmiş və dinlənilmişlər.

Qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının onlarla rəftarından narazılıq etməmiş, barələrində aparılan istintaqla bağlı hər birinə qaldırdıqları məsələlərə dair qanunvericiliyə uyğun şəkildə hüquqi məsləhətlər verilmiş, sənədləri araşdırılmış, onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri izah olunmuş, Ombudsmana ünvanlanmış ərizə və müraciətləri qəbul olunmuşdur.Qəbul olunmuş müraciətlər isə, Müvəkkil tərəfindən aidiyyəti üzrə Baş Prokuror və digər istintaq orqanları qarşısında qaldırılmış və əldə olunmuş cavab və nəticələrlə bağlı hər bir müraciət müəllifinə rəsmi cavablar verilmişdir.

Başçəkmə zamanı qanunvericiliyə uyğun olaraq saxlanılan şəxslərin hüquqlarının təmini vəziyyəti araşdırılmış, görüş, telefon danışığından istifadə hüququ, tibbi yardımla bağlı müraciətlər yerində təmin edilmişdir.[26].

Konfedensial qəbul zamanı hər bir şəxslə hüquqları izah olunmuş, Ombudsmanın səlahiyyətləri barədə məlumat verilmişdir.

Müvəkkilin Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində Penitensiar Xidmətin 3 saylı İstintaq Təcridxanasına keçirilmiş əvvəlki başçəkmələr zamanı sənədləşmə və saxlanılma şəraitinin təkmilləşdirilməsi məqsədilə verilmiş tövsiyələrin də icrası istiqamətdə müvafiq tədbirlərin görüldüyü müşahidə edilmişdir.

Bu müəssisənin də binası köhnə olduğundan saxlanılma şəraitində çətinliklər, eyni zamanda müəssisədə sıxlıq da müşahidə olunmuşdur.

Avropa Penitensiar Qaydaları da tələb edir ki, milli qanunvericilik penitensiar müəssisələrin dolması ilə əlaqədar minimal tələblərin təmini üçün mexanizmlər nəzərdə tutmalı, təcrübədə penitensiar müəssisələrdə yerləşdirmə zamanı sıxlıq hallarının qarşısı alınmalıdır[27].

---

[26] http://bastainfo.com/az/2017/03/11/ombudsmanin-%C9%99m%C9%99kdaslari-mehman-huseynovla-gorusdu/

**1 saylı Cəzaçəkmə Müəssisəsinə** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirilmişdir. Başçəkmədə məqsəd saxlanılma şəraitinin və rəftarın, saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi və Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin araşdırılması olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, yataqxanalara, mətbəxə, görüş və karantin yerlərinə, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə baxış keçirmiş, sənədləşmə, saxlanılma şəraiti və rəftar məsələləri araşdırılmış, bu məqsədlə bir çox məhkum olunmuş şəxs fərdi qəbul edilmiş, onlarla konfidensial söhbət aparılmışdır.

Söhbət zamanı saxlanılma şəraiti və müvafiq qərarlar barədə şikayətlər yerində araşdırılmış, barələrində çıxarılmış məhkəmə hökmündən narazılıqlarını bildirənlərə hüquqi məsləhət verilmiş, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

Başçəkmə zamanı, məhkum A.C. psixi xəstəlikdən əziyyət çəkdiyini, ona göstərilən tibbi yardımdan narazılığını bildirmişdir. A.C.-un müraciəti yerində araşdırılmış, sağlamlığı ilə bağlı qaldırdığı məsələlər tibbi-sanitar hissəsi tərəfindən təmin edilmiş və bu kimi müraciətlərin təmini məqsədilə preventiv tədbirlər görülmüşdür.

Psixi xəstəliyi olan məhkumlar üçün xüsusi tibb xidməti ilə bağlı beynəlxalq standartlar da tələb edir ki, "psixi xəstəlikdən və ya qüsurlardan əziyyət çəkən məhkumlar nəzarət altına alınmalı və həkimlərin rəhbərliyi ilə xüsusi müəssiələrdə müalicə olunmalıdırlar. Belə məhkumlar CÇM-də olduqları müddətdə xüsusi həkim nəzarəti altında olmalı, lazım gəldikdə xüsusi müəssisələrə köçürülməlidirlər"[28].

CPT tövsiyələrində çox vaxt belə bir fikir irəli sürülür ki, ruhi xəstəliyi olan məhkumlar etik baxımdan həbsxana sistemindən kənarda, dövlət səhiyyə xidmətinin cavabdehliyi altında olan tibb müəssiələrində yerləşdirilməlidirlər. Digər tərəfdən, iddia edilə bilər ki, penitensiar sistem daxilində psixiatriya xidmətlərinin təmin edilməsi tibbi xidmətin optimal təhlükəsizlik şəraitində həyata keçirilməsinə və həmin sistem daxilində tibbi və sosial xidmətlərin fəaliyyətlərinin intensivləşməsinə imkan verir[29].

Başçəkmənin yekununda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq

---

[27]Avropa Penitensiar Qaydaları, maddə 17-18;
[28]BMT-nin Məhkumlarla Rəftara dair Standart Minimum Qaydaları (Nelson Mandela Qaydaları),109;
[29]CPT,GR3,paraqraf 43.

şəkildə sənədləşmədə olan çatışmazlıqların aradan qaldırılması, saxlanılma şəraiti və rəftar məsələlərinə dair tövsiyələr verilmişdir.

**2 saylı cəzaçəkmə müəssisəsinə** Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokoluvə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmələrdə məqsəd müəssisədə saxlanılma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmələr çərçivəsində müəssisənin cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, görüş yerlərinə, yeməkxanaya, mətbəxə və digər obyektlərə baxışlar keçirilmiş, saxlanılma şəraiti, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə bir qrup məhkum, o cümlədən İlqar Məmmədov və Qiyas İbrahimov konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir.[30] Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Qəbul zamanı yalnız Q.İbrahimov müəssisəyə gətirildiyi zaman ona qarşı kobud rəftara yol verildiyini bildirmiş, müraciəti üzrə qaldırdığı məsələlər və onunla bağlı sənədləşmə yerində araşdırılmışdır[31]. Ombudsman Q.İbrahimovun şikayətlərinin araşdırılması üçün müvafiq olaraq Baş Prokurora müraciət etmiş və nəticəsi ilə bağlı onun hüquqlarını müdafiə edən vəkilə məlumat verilmişdir.[32]

Başçəkmə zamanı müəssisədə saxlanılma şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, o cümlədən yeni qısa və uzunmüddətli görüş yerlərinin, klubun, yardımçı yeməkxananın, telefon danışığı yerlərinin abadlaş-

[30] http://modern.az/az/news/138003#gsc.tab=0
[31] http://www.aznews.az/news/cemiyyet/146787.html
[32] https://www.amerikaninsesi.org/a/qiyas_ibrahimov_ombudsman/3967340.html

dırılması, ümumi yeməkxana və hamamda təmir-yenidənqurma işlərinin aparıldığı müşahidə edilmişdir.

Həyata keçirilən işlər çərçivəsində cərimə təcridxanasında saxlanılma şəraitinin təkmilləşdirilməsinə olan ehtiyacın, işıqlandırma, havalandırma, təbii işıqla bağlı çatışmazlıqların aradan qaldırılması MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə tövsiyə edilmişdir.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində Müvəkkil və onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin qadın məhkumlar üçün **4 saylı cəzaçəkmə müəssisəsinə (CÇM)** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd cəzaçəkmə müəssisəsində saxlanılma şəraitinin və rəftarın, müəssisədə saxlanılan şəxslərin Daxili intizam qaydalarına və beynəlxalq standartlara uyğun şəkildə hüquqlarının təmin olunması vəziyyətinin öyrənilməsi, müraciətlərinin yerində qəbulu və araşdırılması olmuşdur.

Rəftar məsələlərinin araşdırılması məqsədilə, həmin müəssisədə Ombudsman tərəfindən həmin müəssisədə çoxsaylı məhkum qadın fərdi qaydada dinlənilmiş, onların ərizə və müraciətlərinə baxılmış və bəziləri yerində təmin edilmişdir. Bunlarla yanaşı məhkumların müraciətlərində yer alan istintaq, ekstradisiya, cinayətlərin dekriminallaşdırılması və digər cinayət və mülki hüquq münasibətləri üzrə məsələlər qanunvericiliyə uyğun şəkildə cavablandırılmış, onlara hüquqları, əfvlə bağlı müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

Söhbət aparılan məhkum qadınlar müəssisədə onlarla rəftardan narazılıq etməmişlər.

Qadın məhkumlar üçün tibbi xidmət məsələsi də araşdırma predmeti olaraq Müvəkkilin diqqətində olmuşdur. CPT də bu məsələylə əlaqədar vurğulayır ki, azadlıqdan məhrum edilmiş qadınlar səhiyyə xidmətlərinin bərabərliyi prinsipinə əsasən,onların sağlamlığının mühafizəsi ilə məşğul olan xüsusi hazırlıqlı həkim və tibb işçiləri ilə təmin olunmalıdırlar.[33]

---

[33]CPT,GR10,paraqraf 32

Yekunda Müvəkkil məhkumların hüquqlarının effektiv təmini ilə bağlı müəssisə rəhbərliyi ilə müvafiq söhbətlər aparmış və öz tövsiyələrini vermişdir.

**6 saylı Cəzaçəkmə Müəssisəsinə** Fakültativ Protokolun və Konstitusiya Qanununun tələbləri əsasında əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir[34].

Başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin tibbi-sanitar hissəsinə, yataqxana korpuslarına, cərimə təcridxanasına, görüş yerlərinə, yeməkxanaya və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, sənədləşmə yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir. Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmə zamanı tibbi jurnalların, xəstəlik tarixlərinin vaxtında doldurulmaması, özünə xəsarət yetirənlərin sayının çoxalması, müvafiq qeydiyyat kitablarında aparılan qeydlərin natamamlığı müəyyən edilmiş, çatışmazlıqlar müəssisə qarşısında qaldırılmış və həlli üzrə müvafiq tövsiyələr verilmişdir.

Məhkumlarla söhbət zamanı onlardan bəziləri yeməyin keyfiyyətindən narazılıq etmiş, məsələ müəssisə rəhbərliyi və Ədliyyə Nazirliyi qarşısında qaldırılmışdır.

Avropa Penitensiar Qaydaları da müəyyən edir ki, məhkumlar onların yaşı, səhhəti, dini, mədəniyyəti və işin xarakteri nəzərə alınmaqla kompleks yeməklə təmin olunmalıdır. Yemək sanitar-gigiyenik tələblərə uyğun hazırlanmalı və verilməlidir.[35]

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qaydalara əsaslanan tövsiyələr verilmişdir.

**7 saylı Cəzaçəkmə Müəssisəsinə** keçirilmiş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin, xidmət əməkdaşlarının məhkumlarla rəftarı

---

[34] http://www.gununsesi.info/ombudsman-6-sayli-c%C9%99zac%C9%99km%C9%99-mu%C9%99ssis%C9%99sin%C9%99-baxis-kecirib/

[35] Avropa Penitensiar Qaydaları, maddə 22

məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Milli və beynəlxalq standartlar əsasında həyata keçirilən başçəkmə zamanı, saxlanma şəraitinin araşdırılması məqsədilə yataqxanalarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, yeməkxana, mətbəx və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə öyrənilmişdir.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə məhkumlar konfidensial qaydada dinlənilmiş,hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, müvafiq sənədləşmə yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir.

Qəbul edilmiş şəxslərin hər birinə qaldırdıqları məsələlərə dair hüquqi məsləhətlər verilmiş, sənədləri araşdırılmış, hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.[36]

**9 saylı Cəzaçəkmə Müəssisəsində** əvvəlcədən xəbərdarlıq etmədən, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında başçəkmə təşkil olunmuş, əsas məqsəd olaraq, müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, habelə Müvəkkilin ünvanına daxil olmuş müraciətlər araşdırılmış, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti yerində öyrənilmişdir.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin tibbi-sanitar hissəsinə, yataqxana korpuslarına, cərimə təcridxanasına, görüş yerlərinə, yeməkxanaya və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yemək-qida-

[36] http://azpolitika.info/?p=352418

lanma, sovqat, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində öyrənilmişdir.

Başçəkmə zamanı məhkumların müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir. Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.[37]

**12 saylı Cəzaçəkmə Müəssisəsinə** planlı və plandankənar olmaqla başçəkmələr həyata keçirilmişdir.

BMT-nin “İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmə çərçivəsində saxlanılma şəraitinin araşdırılması məqsədilə, yataqxanalara, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, yeməkxana, mətbəx və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı, telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə öyrənilmişdir.

Müraciətləri ilə əlaqədar MPQ üzvləri tərəfindən qəbul edilən həmin müəssisədə cəza çəkən məhkumlar daha çox barələrində çıxarılmış məhkəmə hökmlərindən narazılıq etmişlər.Onların hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmişdir.

[37]https://apa.az/xeber-az/hadise/ombudsmanin-emekdaslari-9-sayli-cezacekme-muessisesine-bascekme-keciribler-2162.html

Rəftar məsələlərinin araşdırılması ilə bağlı MPQ üzvləri tərəfindən həmin müəssisədə məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, sənədləşmə yerində öyrənilmişdir.

Yekunda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi ilə bağlı müvafiq tövsiyələr verilmişdir.[38]

**13 saylı Cəzaçəkmə Müəssisəinə** Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən başçəkmələr həyata keçirilmiş, saxlanma şəraiti və rəftar məsələləri, daxil olmuş müraciətlər araşdırılmış, eyni zamanda məhkumların hüquqlarının təmin olunması vəziyyəti yerində yoxlanılmışdır.[39]

Başçəkmə çərçivəsində müəssisənin müxtəlif hissələrinə-yataqxana korpusları, cərimə təcridxanası, tibbi-sanitar hissəsi, yeməkxana, ərzaq anbarına baxışlar keçirilmişdir.

MPQ üzvləri tərəfindən çoxsaylı məhkumlar, o cümlədən B.Məmmədov, İ.Rüstəmzadə, E.Qəhrəman qəbul edilərək dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir.

Başçəkmə çərçivəsində B.Məmmədovun cərimə təcridxanasına keçirilməsi, həmçinin məhkumlardan İ.Rüstəmzadə və E.Qəhrəmanın da həmin aclıq aksiyasına qoşulduqları barədə mətbuatda yayılmış məlumatlarla bağlı MPQ üzvləri tərəfindən yerində araşdırma aparılmışdır[40].

Bu məqsədlə müəssisə əməkdaşları, adları qeyd olunan məhkumlar, o cümlədən onların digər məhkum yoldaşları ilə söhbət aparılmış, bir sıra obyektlərə baxış keçirilmiş, lazımi sənədlər və qeydiyyat kitabları öyrənilmişdir. Məhkum B.Məmmədovla söhbət zamanı o, müəssisəyə gələrkən ona təqdim olunmuş yataq yerinin yelçəkən olduğunu, bunun səhhətinə pis təsir göstərdiyini, həmin yeri bir müddət əvvəl olduğu dəstədəki məhkumlardan birinin azadlığa çıxması səbəbindən öz yataq yerini boşalmış yerlə dəyişdirdiyini və son günlərə qədər həmin yerdə yatdığını, qeyd olunan yerə qarşı heç kəsin iddiası olmamasını bildirmiş, yer məsələnin həllini tapmadığını bildirmiş, müvafiq köməklik göstərilməsini xahiş etmişdir.

---

38.http://www.gununsesi.info/ombudsman-%C9%99m%C9%99kdaslari-12-sayli-c%C9%99zac%C9%99km%C9%99-mu%C9%99ssis%C9%99sind%C9%99-monitorinq-aparib/;

39 https://novator.az/2017/05/01/bayram-m%C9%99mm%C9%99dov-v%C9%99ziyy%C9%99tinin-agir-oldugunu-soyl%C9%99yib/;

40 http://vetenugrunda.az/azaerbaydzan/siyasaet/item/3368-bayram-maemmaedovun-sadzhlar-n-zh-rkh-b-kars-a-sal-blar;

Müraciət dərhal müəssisə və Penitensiar Xidmət qarşısında qaldırılmış və həll olunmuşdur.[41]

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və əməkdaşlarla milli və beynəlxalq qanunvericiliyə əsaslanan hüquqi maarifləndirici söhbətlər aparılmış, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

**14 saylı Cəzaçəkmə Müəssisəsinə** Müvəkkilin tapşırığı əsasında onun Milli Preventiv Qrupunun üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanma şəraitinin və rəftar məsələlərinin, habelə daxil olmuş müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olunması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin yataqxana korpuslarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, yeməkxana, ərzaq anbarına və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yeməkqidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

MPQ üzvləri tərəfindən həmin müəssisədə çoxsaylı məhkumlar, o cümlədən Mehman Hüseynov konfidensial qaydada qəbul edilərək dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmış, habelə bir sıra müraciətlər yerində təmin edilmişdir[42].

Qəbul zamanı müəssisə əməkdaşlarının məhkumlarla rəftarından şikayət alınmamış, onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Müəssisəyə keçirilən başçəkmə çərçivəsində burada cəza çəkən M. Hüseynov neçə illərdir şəxsiyyət vəsiqəsi ilə təmin olunmadığını bildirmiş,

[41] http://bastainfo.com/az/2017/10/20/milli-preventiv-qrup-bayram-m%C9%99mm%C9%99dov-ilkin-rust%C9%99mzad%C9%99-elgiz-q%C9%99hr%C9%99manli-il%C9%99-gorusub/.
[42] https://report.az/sosial-mudafie/ombudsman-aparatinin-numayendeleri-mehman-huseynova-bas-cekibler/

Ombudsmana ünvanlandığı müraciət DİN qarşısında qaldırılmaqla təmin edilmişdir.[43]

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixdə imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamın əhəmiyyəti vurğulanmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.

**15 saylı cəzaçəkmə müəssisəsinə** Ombudsmanın Milli Preventiv Qrupunun üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirmişdir.

Başçəkmə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu əsasında təşkil edilmiş, müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, daxil olmuş ərizə və müraciətlər, məhkumların hüquqlarının təmini, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti yerində araşdırılmışdır.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində müəssisənin yataqxana korpuslarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, görüş yerlərinə, yeməkxanaya, mətbəxə və digər obyektlərə baxışlar keçirilmiş, tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Müəssisədə həyata keçirilən işlər çərçivəsində saxlanma şəraitinin təkmilləşdirilməsinə olan ehtiyacın aradan qaldırılması məqsədilə MPQ üzvləri tərəfindən müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən həmin müəssisədə qəbul olunmuş məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, müəssisə əməkdaşlarının məhkumlarla rəftarı, müvafiq qərarlarla bağlı sənədləşmə araşdırılmış, saxlanma şəraiti və tibbi yardımla bağlı bir sıra müraciətlər yerində təmin edilmişdir.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsə-

[43] http://muxalifet.az/ombudsman-ramil-usubovu-mehman-huseynovu-sxsiyyt-vsiqsi-il-tmin-etmy-cagirir.html

lələrlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına uyğun şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.[44]

**17 saylı cəzaçəkmə müəssisəsinə** MPQ üzvləri tərəfindən əvvəlcədən xəbərdarlıq etmədən planlı başçəkmə həyata keçirmişdir. Başçəkmə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil edilmişdir.

Başçəkmə zamanı müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, daxil olmuş müraciətlər, məhkumların hüquqlarının təmini, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti yerində araşdırılmışdır.

MPQ üzvləri tərəfindən həmin müəssisədə qəbul olunmuş məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, müəssisə əməkdaşlarının məhkumlarla rəftarı, müvafiq qərarlarla bağlı sənədləşmə araşdırılmış, saxlanma şəraiti və tibbi yardımla bağlı bir sıra müraciətlər yerində təmin edilmişdir.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına uyğun şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin daha da təkmilləşdirilməsi, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir[45].

**Penitensiar Xidmətin Həbsxanasına** keçirilmiş başçəkmələr planlı və plandankənar olmaqla həyata keçirilmiş, saxlanılma şəraitinin və rəftarın, habelə müraciətlərin araşdırılması, məhkumların hüquqlarının təmin olun-

---

[44] http://www.ombudsman.gov.az/az/view/news/628/15-sayli-cezachekme-muessisesine-bashchekme-heyata-kechirilmishdir

[45] http://www.ombudsman.gov.az/az/view/news/761/ombudsmanin-milli-preventiv-qrupu-terefinden-17-sayli-cezachekme-muessisesine-bashchekme-heyata-kechirilmishdir;

ması, o cümlədən müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti öyrənilmişdir.

Başçəkmə çərçivəsində müəssisənin ömürlük azadlıqdan məhrumetmə cəza növündə, habelə məhkəmə qərarı əsasında cəzasının bir hissəsini həbsxana rejimində çəkən məhkumların saxlandığı rejim korpuslarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, görüş yerlərinə, yeməkxanasına və digər obyektlərə baxışlar keçirilmiş, saxlanılma şəraiti, habelə tibbi yardımın təşkili, qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmış,müəssisənin bəzi rejim korpuslarının kameralarında və cərimə təcridxanasında qidalanma və saxlanılma şəraitinin təkmilləşdirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.

Araşdırma zamanı müəssisədə müasir psixoloji və sosial xidmətlərin təşkilinə, yeni istehsalat sahələrinin yaradılmasına ehtiyac olduğu müəyyən edilmişdir. Bu isə müəyyən müddətə və ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb edilməklə islah olunmaları və qazancları əsasında öz şəxsi ehtiyaclarını təmini üçün əhəmiyyətlidir.

Tibbi-Sanitar Hissəyə başçəkmə zamanı dərman ehtiyatının azlığı, USM aparatının işləmədiyi müşahidə olunmuşdur. TSH-nin baş həkimi dərman preparatları ilə bağlı bir müddətdir müraciət etdiyini bildirmişdir. Tibb işçiləri tərəfindən müvafiq qeydlərin aparıldığı jurnallarda uyğunsuzluq, say azlığı da məlum olmuşdur. Nevropatoloq həkimin olmaması problemi də qaldırılan məsələlərdən olmuşdur.

Müalicə Müəssisəsinə göndərilmə ilə bağlı problemlərin də yaranması hallarının olduğu qeyd edilmişdir. Bununla bağlı CPT qeyd edir ki, "Həbsxanada olarkən məhkumlar saxlama rejimindən asılı olmayaraq istənilən vaxt həkimə müraciət etmək imkanına malik olmalıdırlar.Tibbi xidmət elə təşkil edilməlidir ki, həkimlə məsləhətləşmək, konfidensial qəbul barədə xahişlər lüzumsuz yubanmalar olmadan yerinə yetirilsin".[46]

Bir sıra şəxslər isə öz xahişləri ilə təkbətək qəbul edilmiş, onlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, görüş, telefon danışığı, tibbi yardımla bağlı müraciətləri araşdırılmış, bir sıra müraciətlər yerində təmin edilmişdir. Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmişdir.

Başçəkmə çərçivəsində müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına müvafiq şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin

---

[46]CPT,GR2,92(3).

daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir.[47]

Başçəkmənin nəticəsi və məhkumların müraciətlərinin təmin olunması ilə bağlı Ədliyyə Nazirliyinə müraciət olunmuşdur. Penitensiar Xidmətdə müəssisə rəislərinin iştirakı ilə keçirilmiş müşavirədə Ombudsmanın müraciəti ilə bağlı məsələlərə toxunulmuş, onların aradan qaldırılması və gələcəkdə təkrarlanmaması məqsədi ilə konkret tapşırıqlar verilmiş və verilmiş tövsiyələrin icrasının təmin edildiyi bildirilmişdir.

Plandankənar başçəkmədə məqsəd isə, Ombudsmanın ünvanına daxil olmuş müraciətlərin dərhal araşdırılması olmuşdur. Vəkil Y.İmanovun müraciəti ilə əlaqədar məhkum A.Hüseynov saxlanıldığı cərimə kamerasında MPQ üzvləri tərəfindən qəbul edilmiş müraciəti qəbul olunmuşdur. Başçəkmənin nəticəsi olaraq A.Hüseynovun və vəkilinin müraciətləri Ombudsman tərəfindən Baş Prokuror qarşısında qaldırılmış və müraciətlər cavablandırılmışdır.[48]

**Şəki Penitensiar Müəssisəsinə** planlı başçəkmələr həyata keçirilmişdir. Başçəkmələr BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında təşkil edilmiş, müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, daxil olmuş ərizə və müraciətlər, məhkumların hüquqlarının təmini, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti yerində araşdırılmışdır.

MPQ üzvləri tərəfindən həmin müəssisədə qəbul olunmuş məhkumlar konfidensial qaydada dinlənilmiş, hüquqlarının təmin olunma vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər, müəssisə əməkdaşlarının məhkumlarla rəftarı, müvafiq qərarlarla bağlı sənədləşmə araşdırılmış, saxlanma şəraiti və tibbi yardımla bağlı bir sıra müraciətlər yerində təmin edilmişdir.

Qəbul zamanı məhkumlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah edilmiş, hər birinə qaldırdıqları məsələlərlə bağlı hüquqi məsləhətlər verilmiş, hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və məsul əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə, o cümlədən CÇM-lərin Daxili intizam qaydalarına uyğun şəkildə saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləşmənin aparılması işinin

---

47.http://www.gununsesi.info/ombudsman-aparatinin-%C9%99m%C9%99kdaslari-h%C9%99bsxanada-olub/

48 http://azadpress.info/2017/09/18/ombudsman-aparati-abbas-huseynova-gor%C9%99-bas-prokrorluga-m%C9%99ktub-gond%C9%99rib/

daha da təkmilləşdirilməsi, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması ilə bağlı müvafiq tövsiyələr verilmişdir. Növbəti başçəkmələr zamanı isə, verilmiş tövsiyələrin icrası vəziyyəti yerində yoxlanılmışdır.

**Müalicə Müəssisəsinə** həyata keçirilmiş başçəkmə zamanı MPQ üzvləri tərəfindən müəssisədə BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında rəftar məsələləri və saxlanılma şəraiti araşdırılmış, bu məqsədlə təqsirləndirilən, o cümlədən məhkum olunmuş şəxslər konfidensial qaydada yerində dinlənilmiş, göstərilən tibbi xidmətin vəziyyəti, müraciətləri və qaldırdıqları məsələlər yerində araşdırılmışdır.

MPQ-nin həkim üzvünün də iştirak etdiyi başçəkmə çərçivəsində saxlanma şəraiti ilə bağlı müəssisənin yataqxana korpuslarına, cərimə təcridxanasına, tibbi-sanitar hissəsinə, yeməkxana, ərzaq anbarına və digər obyektlərə baxışlar keçirilmiş, habelə tibbi yardımın təşkili, yemək-qidalanma, içməli isti və soyuq su təminatı, sovqat, gəzinti, görüş və telefon danışıqları ilə bağlı mövcud vəziyyət və sənədləşmə araşdırılmışdır.

Qəbul edilmiş şəxslər Müalicə Müəssisəsinin əməkdaşlarının onlarla rəftarından şikayət etməmiş, əsas müraciətlər göstərilən tibbi yardımın keyfiyyətinin artırılması barədə olmuşdur. Müraciətlər Ədliyyə Nazirliyi qarşısında qaldırılmış, qurumun Tibb Baş İdarəsinə bununla bağlı tapşırıqlar verilmiş, preventiv tədbirlər görülmüş, müraciətlər təmin edilmişdir.

Qeyd olunmalıdır ki, məhkumlar üçün tibbi xidmətin əlçatanlığı geniş təminatlar sisteminə malikdir. CİM-in 10.2.5-ci maddəsinə görə, məhkumların ilk tibbi yardım daxil olmaqla, tibbi rəydən asılı olaraq ambulator və ya stasionar şəraitdə tibbi yardım almaq hüququ var.

Avropa Penitensiar Qaydalarının 3-cü hissəsi "Sağlamlığın qorunması və Tibbi xidmət" məsələlərini əhatə edir və penitensiar müəssisələrdə tibbi xidmətin təşkili, tibbi və sanitar işçi heyəti, həkimin vəzifələri, tibbi xidmət, psixi sağlamlıq kimi məsələlərin təmini zərurətini bəyan edir.

CPT qeyd edir ki, müəssisəyə gələn kimi məhkuma tibbi xidmətin mövcudluğu və fəaliyyəti barədə məlumat verən və əsas gigiyena tədbirlərini xatırladan broşur və ya bukletin verilməsi arzuediləndir.

Həyata keçirilmiş başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə saxlanma şəraitinin daha da təkmilləşdirilməsi və rəftar məsələləri ilə bağlı müzakirələr aparılmış, milli və beynəlxalq qanunvericiliyə əsaslanan müvafiq tövsiyələr verilmişdir.

**5 saylı Məntəqə Tipli Cəzaçəkmə Müəssisəsinə** həyata keçirilmiş başçəkmə zamanı MPQ üzvləri tərəfindən saxlanma şəraiti və rəftar məsələləri araşdırılmış, müəssisənin inzibati otaqlarına baxış keçirilmişdir.

Müəssisədə saxlanma şəraitinin yaxşılaşdırılmasına ehtiyac vardır. Belə ki, Cəzaçəkmə Müəssisələrinin Daxili İntizam Qaydalarının nəzərdə tutmasına baxmayaraq,bu müəssisədə ticarət köşkü, idman meydançası, camaşırxana, şəxsi əşyaların saxlanc otağı, telefon danışığı üçün kabinələr və tibb məntəqəsi yoxdur.

Məntəqə Tipli Cəzaçəkmə müəssisələrinin personalı tərkibinə tibb mütəxəssisinin, psixoloqun daxil edilməsi, yataqxanaların təmiri və yeni çarpayılarla təchiz edilməsi, məntəqə əməkdaşlarının MPM-in mandatı, saxlanılan şəxslərin insan hüquqları sahəsində mövcud olan beynəlxalq və ölkədaxili standartlar barədə məlumatlandırılmasına ehtiyac vardır.

Müəssisələr üzrə qeyd olunan məsələləri ümumiləşdirsək, 2017-ci ildə dəMüvəkkil və onun MPQ-nun Ədliyyə Nazirliyi və PX ilə əməkdaşlığı insan hüquqlarının effektiv təmini və təbliği, pozulmuş hüquqların bərpası, ekstradisiya və hüquqi islahatların həyata keçirilməsi istiqamətində fəaliyyətə və preventiv tədbirlərə mühüm töhfə vermişdir.

Müvəkkil və onun MPQ-nun üzvləri tərəfindən Penitensiar Xidmətin müəssisələrində həyata keçirilən başçəkmələr zamanı müəyyən edilmiş nöqsanlar, onların aradan qaldırılması və qarşısının alınması Ədliyyə Naziri və PX qarşısında qaldırılmaqla verilmiş tövsiyələrin icrasına nail olunmuşdur.

MPQ-nin başçəkmələri zamanı kobud rəftar və zorakılığa məruz qalma ehtimal olan və bununla bağlı daxil olmuş məlumatlar lazımi prevetniv tədbirlərin görülməsi məqsədilə Müvəkkil tərəfindən Ədliyyə Nazirliyi və Baş Prokurorluq qarşısında qaldırılmış və müraciətlər cavablandırılmışdır.

Saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə qaldırılmış tövsiyələr əsasında, 2, 6 və 9 saylı cəzaçəkmə müəssisələrinin cərimə təcridxanasında, yataqxanalarında təmir işləri aparılmış, dam örtüyünün yararsız vəziyyətdə olan hissələri yenilənmişdir.7 saylı Cəzaçəkmə müəssisəsində ərzaq köşkündə və məhkumların ərzaq anbarlarının genişləndirilməsi işləri başa çatdırılmış, yataqxanalarda sanitar qovşaqlar təmir olunmuş, telefon danışığı otaqları əlavə kabinələrlə təchiz olunmuşdur.

Müəssisədə normal isitmə sisteminin qurulması məqsədilə 2, 9, 17 saylı cəzaçəkmə müəssisələrinə, ixtisaslaşdırılmış müalicə müəssisəsinə və Həbsxanaya qaz kəmərinin çəkilişi başa çatdırılmış, müasir tipli istilik sistemi quraşdırılmış, 12 saylı Cəzaçəkmə Müəssisəsində qısamüddətli görüş otağında, yeməkxanada, cərimə təcridxanasında və yataqxanalarda təmir işləri aparılmış, dam örtüyünün sıradan çıxmış hissələri yenisi ilə əvəz edilmişdir. Məhkumlar üçün nəzərdə tutulmuş hamam əsaslı təmir olunmuş, su xətti yenilənmişdir.

2 saylı İstintaq Təcridxanasının rejim korpusları, müəssisənin təsərrüfat və məişət xidməti işlərinə cəlb olunmuş məhkumlar üçün yataqxana, mətbəxvə məişət təyinatlı digər obyektlərdə təmir işləri aparılmış, köhnə

təsərrüfat otaqları təmir olunaraq əşya anbarı və idman zalı kimi istifadəyə verilmişdir.

PX-in Həbsxanasının yaşayış korpuslarında, kitabxanada, cərimə təcridxanasında və görüş otaqlarında təmir işləri aparılmış, saxlanma şəraitinin yaxşılaşdırılması ilə bağlı MPM tövsiyələri icraya yönəldilmişdir.

Məhkumların və həbs edilmiş şəxslərin ərzaq və maddi-məişət təminatı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25.09.2001-ci il tarixli və 18.02.2013-cü il tarixli 22 nömrəli qərarlarının tələblərinə uyğunlaşdırılması, çörək bişirmə sexlərində yeni, müasir tipli sobaların quraşdırılması, düzgün texnologiyanın tətbiqi və keyfiyyətli məhsullardan istifadə nəticəsində məhkumlara verilən çörəyin keyfiyyətinin yaxşılaşdırıldığı bildirilmişdir. Bu baxımdan qida keyfiyyətinin yaxşılaşdırılması istiqamətində tövsiyələrin icrası başçəkmələr zamanı yerində yoxlanılır.

Penitensiar Xidmətin müəssisələrinə əvvəlcədən xəbərdarlıq edilmədən həyata keçirilmiş başçəkmələrin nəticələrində aşkar olunmuş bəzi hallarla bağlı Müvəkkil tərəfindən Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi qarşısında müəssisələr üzrə qaldırılmış məsələlər sırasında, sovqat qəbulu, telefon danışıqları, şikayət ərizələrinin göndərilməsi ilə bağlı çətinliklər, özünə xəsarət yetirmə hallarının qarşısının alınması üçün lazımi tədbirlərin görülməsinə və onlara nəzarətin gücləndirilməsinə ehtiyac olduğu, tibb işçiləri tərəfindən cərimə təcridxanasında məhkumların səhhətinə gündəlik nəzarətin, habelə sanitar-epidemioloji vəziyyətə nəzarətin formal xarakter daşıması, sənədləşmənin təkmilləşdirilməsi zərurəti və müvafiq jurnallarda aparılan qeydlərdə düzəlişlərin edilməsi, Müalicə Müəssisəsinə göndərilməyə maneələrin yaradılması, bəzi hallarda isə müayinə və müalicə müəssisələrində operativliyin olmaması, aclıq edən, cərimə təcridxanasına keçirilmiş, xüsusi vasitə tətbiq olunmuş məhkumlara münasibətdə uyğun yanaşmamaları, korrupsiya elementləri və digər neqativ hallarınqarşısının alınması məsələləriyer almışdır.

Tövsiyələrin icrası çərçivəsində verilmiş rəsmi cavablarda, korrupsiya və digər neqativ hallarla bağlı müraciətlərin hərtərəfli, dolğun araşdırıldığı və bu istiqamətdə prinsipial qərarın qəbul edildiyi bildirilir. İstintaq təcridxanalarında və digər penitensiar müəssisələrdə baş vermiş özünəxəsarət və intihar hallarının isə əsasən həbs edilmiş şəxslər barəsində aparılan ibtidai və məhkəmə istintaqının gedişindən narazı olmaları səbəbindən, bəzilərinin isə, ailədaxili problemlərlə, əsəb-sinir xəstəlikləri bağlı olduğu qeyd olunur.

Aparılmış profilaktik tədbirlər nəticəsində məhkum və həbs edilmiş şəxslər arasında özünə xəsarət yetirmə hallarının sayının isə, ötən ilin müvafiq dövrü ilə müqayisədə 19% azaldığı, cərimə təcridxanalarına tibb işçiləri tərəfindən hər gün baş çəkilmə ilə bağlı fəaliyyətə, müvafiq qeydiyyat və sənədləşmə işinə nəzarətin gücləndirildiyi, nöqsanın aradan

qaldırılması və qarşısının alınması ilə bağlı tədbirlərin görüldüyü qeyd olunur.

Müvəkkil tərəfindən qaldırılan məsələlərin müvafiq tabe qurumlar tərəfindən mütəmadi təhlil edildiyi, əməkdaşların təlimatlandırıldığı, beynəlxalq standartların, SPT və CPT-nin tövsiyələrinin nəzərdən keçirilməsi və təcrübədə tətbiq edilməsi istiqamətində tədbirlərin davam etdirildiyi Ədliyyə Nazirliyi tərəfindənverilmiş rəsmi cavablarda yer almışdır.

### 2.2.3. Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) müəssisəsi

DTX-nin Müvəqqəti saxlama yeri və istintaq təcridxanasına Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında 2017-ci ildə 6 başçəkmə həyata keçirilmişdir.

Əvvəlcədən xəbərdarlıq etmədən həyata keçirilmiş başçəkmələr zamanı, müəssisədə saxlanma şəraiti və rəftar məsələləri, daxil olmuş ərizə və müraciətlər, məhkumların hüquqlarının təmini, habelə müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyəti yerində araşdırılmışdır.[49]

Müəssisədə başçəkmələrin effektiv həyata keçirlməsi üçün müvafiq şərait yaradılmışdır.

Başçəkmələr zamanı saxlanma şəraiti, qidalanma, ərzaq təminatı araşdırılmış, bu məqsədlə həmin müəssisənin kameralarına, yeməkxanasına baxış keçirilmiş, habelə tibbi yardım, gəzinti, telefon danışığı, hüquqi yardım və digər hüquqlarının təminatı vəziyyəti araşdırılmışdır.

Konfidensial qaydada qəbul edilmiş şəxslər müəssisə əməkdaşlarının onlarla rəftarından və saxlama şəraitindən şikayət etməmişlər.

Fərdi qaydada qəbul zamanı saxlanılan şəxslərin barələrində aparılan istintaqla bağlı qaldırdıqları məsələlər üzrə bəzi müraciətlər yerində araşdırılmış, sənədləşmənin aparılması vəziyyəti öyrənilmiş, hər birinə hüquqi məsləhətlər verilmiş, onlara hüquqları, müvafiq qanunvericiliyin tələbləri, Ombudsmanın səlahiyyətləri izah olunmuşdur.[50]

Başçəkmələrin yekununda müəssisə rəhbərliyi ilə müəssisədə həyata keçirilən işlər üzrə müzakirələr aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə müvafiq tövsiyələr verilmişdir.

---

[49]https://sputnik.az/life/20170329/409567352/ombudsman-dtx-da-olub.html
[50] http://femida.az/az/news/66208

## 2.2.4 Dövlət Miqrasiya Xidmətinin müəssisələri

2017-ci ildə Dövlət Miqrasiya Xidmətinin müəssisələrinə 4 başçəkmə həyata keçirilmişdir.Əvvəlcədən xəbərdarlıq etmədən ***Bakı şəhər Qanunsuz Miqrantların Saxlanılması Mərkəzinə*** təşkil olunmuş başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraitinin və rəftarın, habelə daxil olmuş müraciətlərin araşdırılması, müvafiq şəkildə sənədləşmənin aparılması vəziyyətinin öyrənilməsi olmuşdur.

Başçəkmədə MPQ-nin həkim üzvü də iştirak etmiş, saxlanma şəraiti ilə bağlı mərkəzin yataqxana korpuslarına, yaşayış və tibb otaqlarına, müsahibə yerlərinə, yeməkxana, ərzaq anbarı və digər obyektlərə baxışlar keçirilmişdir.

Baxış zamanı mərkəzdə yalnız könüllü yerləşdirilmiş şəxslər olmuş, qanunvericiliyə uyğun şəkildə məcburi yerləşdirilmiş əcnəbi olmamışdır. Qəbul edilənlər rəftar məsələlərindən şikayət etməmiş, onların saxlandığı korpusda şəraitin normal olduğu, məcburi yerləşdirilən əcnəbilər üçün bina boş olsa da, burada şəraitin təkmilləşdirilməsinə ehtiyacın olduğu müşahidə edilmişdir.

Bununla yanaşı, Müvəkkilə ünvanlanmış ərizələrdə, habelə Qaynar Xəttə daxil olmuş zənglərdə bu müəssisədə vəkillərlə görüşə maneələrin yaradılması ilə bağlı müraciətlər də daxil olmuşdur. Məsələn, Rusiya Federasiyasının vətəndaşı, V.İ.-nin Dövlət Miqrasiya Xidmətinin əməkdaşları tərəfindən saxlandığı, onunla bağlı hər hansı məlumat əldə edə bilmədikləri barədə onun həyat yoldaşının və vəkilinin Ombudsmanın Qaynar Xəttinə daxil olmuş müraciəti başçəkmə çərçivəsində yerində araşdırılmış, beynəlxalq axtarışda olan həmin şəxsin bu müəssisədə saxlanılmadığı və istintaq orqanına verildiyi müəyyən edilmiş, yeri müəyyənləşdirilməklə müraciət sahiblərinə məlumat verilmişdir.

Ailəli, yanında uşağı olan qadınlar, yetkinlik yaşına çatmayanlar, habelə tibbi nəzarətə ehtiyacı olan əcnəbilər üçün yaradılmış şərait, yaşayış otaqları, onlar üçün təmin edilməli olan xüsusi yemək normaları da araşdırma predmeti olmuşdur. Əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası da yerində monitorinq olunmuşdur.

Başçəkmə zamanı mərkəzə qəbul və təhvil verilmə, tibbi müayinədən keçirilmə ilə bağlı sənədləşmədə qeydiyyat tarixi və vaxtlarda dəyişiklikərin edildiyi, saxlanılan şəxslərin şəxsi işlərində qeydlərlə bağlı nöqsanların olduğu, sənədləri imzalamaqdan imtina edən, özünə xəsarət yetirən şəxslərlə bağlı hər hansı bir aktın tərtib olunmadığı müəyyən edilmiş və Mərkəz rəisinin diqqətinə çatdırılmış və aradan qaldırılması tövsiyə edilmişddir.

***Yevlax Rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzinə*** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmiş, müəssisədə saxlanılan

şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, sənədləşmənin aparılması, tibbi xidmətin əlçatanlığı və Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə, habelə beynəlxalq qanunvericiliyə uyğun şəkildə saxlanılan şəxslərin hüquqlarının təmin olunması vəziyyəti əsas araşdırma predmeti olmuşdur.

Başçəkmələr zamanı Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin istifadəsi üçün Daxili intizam qaydalarının Mərkəzin quruluşuna dair ümumi tələblərinə uyğun olaraq müəssisədə kitabxana, bərbərxana, tibb məntəqəsinin təşkil edilməsinə ehtiyac olduğu müşahidə edilmişdir.

Eyni zamanda, müəssisədə cəmi bir nəfər ixtisasca feldşer qadın əməkdaşın olması, həmin əməkdaşın həm tibbi müayinələrə, həm də qadın miqrantların şəxsi axtarış tədbirlərinə cəlb edilməsi müəyyən edilmişdir ki, bu da saxlanılma mərkəzinin qadın miqrantlarla bağlı işinin təşkilində müəyyən çətinlikləri yaranmasına səbəb olur.

Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 87.1.20-ci maddəsi ilə nəzərdə tutulmuş telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün müvafiq telefon danışığı məntəqəsinin olmaması müşahidə edilmişdir.

Ümumilikdə isə, qanunsuz miqrantların saxlanılması mərkəzlərində Miqrasiya qanunvericiliyinin müddəalarında, habelə İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələrində yer almış, şəxslərin hüquqlarının əsas təminat mexanizmlərindən biri kimi vəkillə görüş, konfidensiallığın, qida rasionunun keyfiyyət və kəmiyyət baxımından bir-birinə adekvat olmasının təmin edilməsi, qadın əməkdaşlarının sayının artırılması, tibb xidmətinə çıxış imkanının effektiv təşkili, sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi tövsiyə olunur.

Başçəkmələrin sonunda müəssisələrin rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

### 2.2.5. Səhiyyə Nazirliyinin müəssisələri

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nun üzvləri tərəfindən Səhiyyə Nazirliyinin tabeliyində olan müəssisələrə 2017-ci ildə əvvəlcədən xəbərdarlıq etmədən 37 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının qanunu, BMT və Avropa Şurası çərçivəsində qəbul edilmiş beynəlxalq standartlar, CPT-nin ümumi məruzələrində yer almış tövsiyələrə əsaslanmışdır.

Əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icra vəziyyəti də yoxlanılmış, Quba Rayonlararası Psixiatriya Xəstəxanasının əsaslı təmir olunduğu, saxlama şəraitinin təkmilləşdirildiyi, Salyan Rayonlararası Psixiatriya Xəstəxanasında ümumi vəziyyətin və şəraitin xeyli təkmilləşməsi, Qazax Rayonlararası Psixiatriya Xəstəxanasında isə saxlama şəraitinin yaxşılaşdırılması istiqamətində əsaslı təmir işlərinin aparıldığı müşahidə olunmuşdur.

Bu baxımdan başçəkmələr zamanı aşkar olunmuş və yerində aradan qaldırılması mümkün olan məsələlərlə bağlı milli və beynəlxalq standartlara, BMT-nin “Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsiplərinə”, Ruhi xəstələrin saxlanılma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartlarına əsaslanmaqla müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, habelə psixiatriya müəssisələrində saxlanılan şəxslərin hüquqlarının qorunması və ehtimal olunan pis rəftar hallarının baş verməsinin qarşısının alınması məqsədilə müəssisə rəhbərliyi və əməkdaşlarla hüquqi maarifləndirici söhbətlər aparılmışdır.

**Gəncə Şəhər Psixiatriya Xəstəxanasına** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında həyata keçirilmiş başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin palatalarına, yeməkxana və mətbəxinə, ərzaq anbarına, dərman aptekinə, sanitar qovşaqlara, görüş və istirahət otaqlarına və digər obyektlərinə baxış keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin palatalarının isidilməsində problemlərin olduğu, qaz təminatının zəif və istilik sisteminin köhnə olması, habelə şöbələrdə əsaslı təmirə, geyim və yataq dəstləri ilə bağlı təminata ehtiyac olduğu müşahidə edilmiş və lazımi tədbirlərin görülməsi, saxlama şəraitinin yaxşılaşdırılması ilə bağlı tövsiyələr müəssisə qarşısında qaldırılmışdır.

Beynəlxalq standartlar və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin psixiatriya müəssisələrində pasiyentlərin saxlanılma şəraiti ilə bağlı tələblərinə görə hər bir pasiyentə kifayət qədər şəxsi yaşayış sahəsi verilməsi zəruridir.

Başçəkmə zamanı şöbələrdə şəraitin ruhi xəstələr üçün əlverişli olmadığı, dərman preparatlarının çatışmazlığı müəyyən edilmişdir ki, bu məsələlərlə bağlı Ombudsmanın Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində 2017-ci ilin əvvəlində də Səhiyyə Nazirliyinə müvafiq tövsiyələr ünvanlanmışdı.

Şöbələrdə xəstələrlə fərdi görüş zamanı onlar rəftar məsələlərindən şikayət etməsələr də, palatalarda şəraitin, qidalanma təminatın yaxşılaşdırılması

ilə bağlı müraciətlər etmişlər. Bu baxımdan qeyd olunan məsələlərin həlli ilə bağlı tədbirlərin davam etdirilməsinə ehtiyac var.

Başçəkmə zamanı, müəssisədə görüş otaqlarının vəziyyətinin normal olduğu müşahidə edilsə də, xəstələrin ailə üzvləri və yaxınları ilə görüşü barədə sənədləşmənin olmadığı, müvafiq qeydiyyatın aparılmadığı məlum olmuş və aradan qaldırılması tövsiyə olunmuşdur.

MPM fəaliyyəti çərçivəsində Səhiyyə Nazirliyi qarşısında qaldırılan məsələlər sırasında Gəncə şəhərində yeni psixiatriya xəstəxanasının tikintisi ilə bağlı işlərin sürətləndirilməsi də yer almışdır.

**Qazax Rayonlararası Psixiatriya Xəstəxanasına** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında həyata keçirilmiş başçəkmə zamanı xəstəxana rəhbərliyi ilə söhbətlər aparılmış, xəstəxananın iki mərtəbəli inzibati binasına, qadın və kişilər üçün palatalara, həkim və tibb bacılarının otaqlarına, müəssisənin yeməkxanasına, mətbəxinə, ərzaq anbarına və digər obyektlərinə baxış keçirilmişdir.

Əvvəlki tövsiyələrimiz nəzərə alınmaqla müəssisədə quraşdırılmış mərkəzləşdirilmiş istilik sisteminin işlədiyi, temperaturun və şöbələrdə şəraitin ümumi vəziyyətinin, gigiyenanın, təbii işıqlanma və ventilyasiyanın normal olduğu, açılan pəncərələrin mövcudluğu və palatalarda saxlanılan xəstələrin sayının palatanın tutumuna uyğunluğu müşahidə olunmuşdur.

Bunlarla yanaşı, müəssisədə dərman preparatlarının saxlanılması qaydalarına nəzarətin gücləndirilməsi, gündəlik dərman təyinatı barədə qeydlərin aparılması işi təkmilləşdirilməsi, qadınlar üçün olan şöbəsinndə və sanitar qovşağında şəraitin yaxşılaşdırılması, camaşırxana sisteminin yenidən qurulması və müvafiq avadanlıqlarla təmin olunması Səhiyyə Nazirliyi və müəssisə rəhbərliyi qarşısında qaldırılmış, beynəlxalq standartlara əsaslanan müvafiq tövsiyələr verilmişdir.

Başçəkmənin sonunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

**Şəki Rayonlarası Psixiatriya Xəstəxanasına** BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında  başçəkmələr keçirilmişdir.

Başçəkmə çərçivəsində saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin palatalarına, yeməkxana və mətbəxinə, ərzaq anbarına, dərman dolabına, sanitar qovşaqlara, görüş və istirahət otaqlarına və digər obyektlərinə baxış keçirilmişdir.

Xəstəxanada reabilitasiya və psixiatriya şöbələri fəaliyyət göstərir. Müəssisənin palatalarının işıqlandırılması vəziyyətinin normal olduğu, xəstələrin ərzaq anbarında lazımı qida məhsullarının olduğu, yeməkxana, sanitar qovşaqlarda isə şəraitin yaxşılaşdırılmasına ehtiyac olduğu müşahidə edilmişdir.

Başçəkmə zamanı müəssisənin palatalarında sıxlıq olduğu, otaq sayının kifayət etmədiyi, palatalarda ayrıca istilik sisteminin olmadığı, qızdırıcıların yalnız dəhlizlərdə quraşdırıldığı, müəssisənin təmirsiz olduğu müşahidə edilmişdir. Saxlanma şəraitinin yaxşılaşdırılması baxımından Şəki Rayonlararası Psixatriya Xəstəxanası üçün yeni binanın tikilməsi məsələsi aktualdır və digər tövsiyələr də daxil olmaqla məsələ Səhiyyə Nazirliyi qarşısında qaldırılmışdır.

CPT-nin psixiatriya müəssisələrində pasiyentlərin saxlama şəraiti ilə bağlı tələblərinə görə hər bir pasiyentə kifayət qədər şəxsi yaşayış sahəsi verilməli, sıxlıq halları olmamalıdır[51].

Başçəkmələrin sonunda müəssisə rəhbərliyinə milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

MPQ üzvləri tərəfindən **Salyan Rayonlararası Psixiatriya Xəstəxanasına** başçəkmə həyata keçirilmişdir.

Fakültativ Protokolun və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmiş başçəkmədə məqsəd psixiatriya xəstəxanasında saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması, dərman, qida və istilik təchizatı, əlçatan tibbi xidmətin təşkili, əvvəlki başçəkmələr zamanı aşkar olunmuş çatışmazlıqların aradan qaldırılması ilə bağlı verilmiş tövsiyələrin icrası vəziyyətinin yoxlanılmasından ibarət olmuşdur.

Xəstəxanada 3 şöbə fəaliyyət göstərir. 1 nömrəli şöbə qadın şöbəsidir və korpusun 2-ci mərtəbəsində yerləşir. Qadın şöbəsində olarkən qeydiyyat kitablarına, palatalara, o cümlədən şəxsi əşyaların saxlanılması üçün otağa, növbətçi otağına, görüş otağına, tibb işçisi otağına, hamam otağına, dezinfeksiya, izolyasiya otaqlarına və mətbəxə baxış keçirilmişdir.

Qadın şöbəsində sanitar-gigiyenik qaydalara riayət olunduğu,lakin istilik radiatorlarının gündüz saatlarında çalışmadığı müşahidə olunmuşdur. Şöbədə olan şəxslərlə fərdi söhbətlər aparılmış və pasiyentlər rəftar məsələləri ilə bağlı şikayətlərinin olmadığını bildirmişlər.

---

[51] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.с 63.CPT/Inf/E (2002) 1 – Rev. 2015

Başçəkmə zamanı kişi şöbəsində olarkən bütün palatalara, o cümlədən şəxsi əşyaların saxlanılması üçün otağa, növbətçi otağına, görüş otağına, tibb işçisi otağına, hamam otağına, sanitar qovşağına, dezinfeksiya, izolyasiya otağı, mətbəxə baxış keçirilmişdir. Kişi şöbəsində də istilik raditorlarının gündüz saatlarında çalışmadığı, palataların soyuq olması müşahidə edilmişdir. Pasiyentlər radiatorların gecə vaxtı yandırıldığını bildirmişlər.

Xəstəxanada sıxlıq müşahidə olunmuşdur.Yaşayış sahəsi və sıxlıq məsələsi beynəlxalq standartlarda ən çox diqqət mərkəzində olan məsələlərdən biridir[52]. Bu baxımdan, sıxlıq probleminin aradan qaldırılması tövsiyələrimizdə yer almış və digər tövsiyələr də daxil olmaqla məsələ Səhiyyə Nazirliyi, yerində təmini mümkün tövsiyələr isə müəssisə rəhbərliyi qarşısında qaldırılmışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və tibbi personala ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

**Quba Rayonlarası Psixonevroloji Mərkəzinə** MPQ-nun üzvləri tərəfindən Fakültativ Protokolun və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Başçəkmə zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə ümumi əraziyə, şöbələrə, müşahidə otaqlarına, palatalara, həkim otaqlarına, istirahət və görüş otaqlarına, mətbəxə, yeməkxanalara, hamama, sanitariya qovşaqlarına, anbarlara və inzibati binaya baxış keçirilmişdir.

Qeyd edilməlidir ki, müəssisənin əsaslı təmiri 2016-cı ilin dekabr ayında başa çatmış və 2017-ci ilin əvvəlindən yenidən fəaliyyətə başlamışdır. Bu baxımdan müəssisənin infrastruktur vəziyyəti müvafiq tələblərə cavab verir.

Rəftar məsələlərinin araşdırılması məqsədilə Psixonevroloji Mərkəzdə müalicəolunan pasiyentlərdən bir qrupu təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmışdır. Pasiyentlərdən saxlanma şəraiti və müəssisə əməkdaşlarının onlara rəftarına dair şikayət daxil olmamışdır.

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və tibbi personala ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

---

[52] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.c 63.CPT/Inf/E (2002) 1 – Rev. 2015

**Gəncə şəhər Səhiyyə İdarəsinin Körpələr evinə** başçəkmə həyata keçirilmişdir. Başçəkmə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmişdir.

Başçəkmə zamanı MPQ-nun üzvləri tərəfindən Səhiyyə Nazirliyinin tabeliyində olan Körpələr evinin ərazisinə, 3 korpusdan ibarət inzibati bina və yataqxanalar yerləşən korpuslarına, camaşırxana və ərzaq anbarına, yeməkxanasına baxış keçirilmişdir.

Müəssisədə 3 yaşadək və südəmər qrupa aid körpələrin saxlandığı yataq yerləri, oyun zalı, görüş otaqları, əşyaların saxlanılma otağı və təminat məsələləri araşdırma predmeti olmuşdur.

Başçəkmənin nəticələrinə əsasən müəssisənin korpuslarında şəraitin yaxşılaşdırılmasına, körpələr evinin əsaslı təmiri və yeni inventarlarla təchiz edilməsinə, müvafiq yaşa çatdıqdan sonra körpələr evini tərk etməli olan sağlamlıq imkanları məhdud körpələrin digər müəssisələrdə yerləşdirilməsi və müalicəsinin effektiv təşkilinə, müəssisənin fəaliyyətini tənzimləyən müvafiq normativ-hüquqi aktlar barədə əməkdaşların məlumatlılığının artırılmasına ehtiyac vardır.

Başçəkmənin çərçivəsində Gəncə Körpələr Evinin əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqları sahəsində mövcud olan beynəlxalq standartlar, MPQ-nin mandatı barədə məlumat verilmişdir.

Yekunda müəssisə rəhbərliyi milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

**Gəncə Rayonlararası Narkoloji Dispanserinə** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində başçəkmə həyata keçirilmişdir.

MPQ-nun üzvləri tərəfindən BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında keçirilmiş başçəkmə çərçivəsində dispanserin baş həkimi ilə görüş keçirilmiş, xəstəxananın vəziyyəti və görülən işlərlə bağlı ilkin məlumatlar alınmışdır.

Müəssisə 1985-ci il tarixindən fəaliyyət göstərir və binada yerləşən palatalar getdikcə yararsız vəziyyətə düşdüyündən saxlanma şəraitinin təkmilləşməsinə ehtiyac vardır. Eyni vəziyyət müəssisənin inzibati və xidməti otaqlarında, ərzaq anbarı, saxlanc otağı və digər yerlərində də müşahidə olunmuş və aradan qaldırılması istiqamətində tövsiyələr verilmişdir.

MPQ üzvlərinin həyata keçirdiyi başçəkmənin nəticələrinə əsasən, dispanser üçün yeni binanın tikintisinə, dispanser əməkdaşlarının müəssisənin fəaliyyətini tənzimləyən normativ aktlarla tanış edilməsi, qeydiyyat işinin təkmilləşdirilməsi, xəstələrin qida rasionunda müxtəlifliyin təmin edilməsi tövsiyə edilir.

Bu baxımdan CPT-nin qapalı müəssisələrdə pasiyentlərin saxlanma şəraiti ilə bağlı müvafiq standartlarına görə qidalanma ən vacib amillərdən biridir. CPT hesab edir ki, qida rasionu keyfiyyət və kəmiyyət baxımından bir-birinə adekvat olmalıdır.[53]

Başçəkmənin yekununda müəssisə rəhbərliyi və tibbi personala ünvanlanan hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericiliyə müvafiq şəkildə saxlanılma şəraiti və rəftar məsələlərinə, sənədləşmədə müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılmasına dair tövsiyələr verilmişdir.

Ümidvarıq ki, Müvəkkilin MPM fəaliyyəti çərçivəsində bu qəbildən olan müəssisələrlə bağlı tövsiyələri və müəssisələr üzrə qaldırılan məsələlər səhiyyə sahəsində aparılan islahatlar, tibbi xidmətlərin inkişafına göstərilən təşəbbüslər, tibb müəssisələrinin, xəstəxanalarının əsaslı təmiri və yenidən qurulması, bu müəssisələrin maddi-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər çərçivəsində öz həllini tapacaqdır.

### 2.2.6. Təhsil Nazirliyinin müəssisələri

2017-ci ildə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nun üzvləri tərəfindən Təhsil Nazirliyinin tabeliyində olan müəssisələrə əvvəlcədən xəbərdarlıq etmədən 30 başçəkmə həyata keçirilmişdir.

Həyata keçirilmiş başçəkmələr milli qanunvericilik, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu, İQA (SPT) tövsiyə-

[53] Стандарты ЕКПП «Существенные» разделы общих докладов ЕКПП.с 62. CPT/Inf/E (2002) 1 – Rev. 2015

ləri, İQK (CPT) standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında həyata keçirilmişdir. Beynəlxalq təcrübə nəzərə alınmaqla təhsil müəssisələrində saxlanma şəraiti və rəftar məsələləri, habelə bu sahədə milli və beynəlxalq standartların praktik tətbiqi məsələləri araşdırılmış, müəssisələr üzrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti yerində yoxlanmışdır.

**Lənkəran şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya** MPQ-nun üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.Fakültativ Protokolun tələbləri əsasında keçirilmiş başçəkmələrdə məqsəd uşaqlarla rəftar və müəssisədə saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Başçəkmə zamanı müəssisənin yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamama, inzibati otaqlara və ümumi əraziyə baxış keçirilmiş, saxlanılma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələləri araşdırılmışdır.

Müəssisədə olan uşaqlardan bir qismi ilə təkbətək söhbətlər aparılmış, onlara olan rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması və sənədləşmənin təkilləşdirilməsi ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmişdir.

**Lerik şəhər İnteqrasiya Təlimli İnternat Məktəbinə** Fakültativ Protokolun və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nun üzvləri tərəfindən başçəkmə həyata keçrilmişdir.

Başçəkmədə məqsəd saxlanma şəraiti və rəftar məsələlərinin araşdırılması olmuş,bu məqsədlə uşaqlar təsadüfi seçim əsasında fərdi qaydada qəbul edilmiş, onlarla müsahibələr aparılmış, habelə müəssisənin yeməkxana, yataqxana və tədris korpusuna baxış keçirilmişdir.

Qeyd olunmalıdır ki, müəssisənin binası 1961-ci ildə tikilmişdir və baxış zamanı yataqxana və yeməkxana hissəsinin, ümumilikdə isə müəssisənin əsaslı təmir olunmasına, saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğumüşahidə olunmuşdur. Bunlarla yanaşı müəssisədə ilkin tibbi yardım üçün şəraitin, eləcə də dərman peraparatları ilə təminat üçün ehtiyacların da olduğu müşahidə edilmişdir.

Başçəkmənin sonunda MPQ-nin üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, problem-

lərin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmış, mövcud imkanlar dəyərləndirilmişdir.

**Neftçala rayon İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya** Müvəkkilin MPQ-nun üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanamsı və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirməkdən ibarət olmuşdur.

Başçəkmə zamanı müəssisənin yeməkxanasına, ərzaq anbarına, digər otaqlara və müvafiq sənədlərə baxış keçirilmişdir.

Rəftar məsələlərinin araşdırılması ilə bağlı müəssisədə yaşayan uşaqlarla müvafiq söhbətlər aparılmış, hüquqları izah edilmişdir.

Bu müəssisədə də saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğu müşahidə olunmuş, hal-hazırda isə müəssisə üçün yeni yataqxananın tikintisinin aparıldığı məlum olmuşdur. Saxlanma şəraitinin təkmilləşdirilməsinə ehtiyac olduğundan tikintinin sürətləndirilməsini məqsədəmüvafiq hesab edirik.

Başçəkmənin sonunda müəssisə rəhbərliyi ilə müəssisədə həyata keçirilən işlər üzrə müzakirələr aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə tövsiyələr verilmiş, problemlərin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmışdır.

**Tovuz rayonu Qovlar şəhər İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının müddəaları, İQA (SPT) tövsiyələri, İQK (CPT) standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında həyata keçirilmişdir.

Məktəb rəhbərliyi tərəfindən məlumat verilmişdir ki, müəssisə 1960-cı ildən fəaliyyət göstərir. Müəssisədə hazırda Qazax, Ağstafa, Tovuz, Şəmkir rayonlarından gələn şagirdlər təhsil alır.

Başçəkmələr zamanı yataqxanalara, sinif və tərbiyə otaqlarına, inzibati otaqlara, mətbəxə, hamama və ümumi əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Müəssisədə qalan uşaqlardan bir qrupu ilə təklikdə söhbət aparılmışdır. Uşaqlara rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir.

Başçəkmə zamanı məktəbin tibb məntəqəsinin zəruri ilkin tibbi yardım göstərə bilməsi üçün vəsaitin ayrılmasına, sinif otaqlarının inventarının

yenilənməsinə, yataqxananın lazımi avadanlıqla təchiz edilməsinə, yeməkxana və mətbəxin su sisteminin yenilənməsinə, ərzaq anbarının daha əlverişli və soyuducularla təchiz edilmiş yerə köçürülməsinə, köhnə və qismən nasaz avtobusun yeni və iritutumlu, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün şəraiti olan avtobusla əvəz edilməsinə ehtiyaclar müşahidə olunmuşdur. Müəssisənin sənədləşmə və müvafiq qeydiyyat jurnalları ilə bağlı fəaliyyətinin təkmilləşdirilməsi, sağlam uşaqlardan ayrı təhsil alan sağlamlıq imkanları məhdud uşaqların birlikdə təhsilə cəlb edilməsi məsələləri də bu qəbildəndir.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, problemlərin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmış, mövcud imkanlar dəyərləndirilmişdir.

**Gəncə şəhər Futbol Təmayüllü İnternat Tipli Gimnaziyaya** MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.Fakültativ Protokolun tələbləri əsasında keçirilmiş başçəkmələrdə məqsəd uşaqlarla rəftar və müəssisədə saxlanılma şəraitinin araşdırılması olmuşdur.

Gimnaziyanın 160 yerlik yataqxanasında başçəkmə gününə 50 uşağın gecələdiyi, ümumilikdə burada 287 uşağın təhsil aldığı qeyd edilmişdir.

Başçəkmə zamanı Gimnaziyanın 2 korpusdan ibarət binasına, yataqxanasına, yeməkxanasına, ərzaq anbarına, tibb otağına, futbol meydançasına, hamam və istirahət otaqlarına baxış keçrilmişdir. Gimnaziyada istilik sistemlərinin mövcud olmasına baxmayaraq, təbii qazın verilməməsi səbəbindən yataqxanalarda və sinif otaqlarında müvəqqəti elektrik qızdırıcılarından istifadə edilməsi müşahidə edilmişdir.

Tibb otağına baxış keçirilən zaman dərman preparatlarının saxlanıldığı dolabda dərman preparatlarının bir neçəsinin istifadəyə yararlılıq müddətinin keçməsi aşkar edilmiş və müəssisə tərəfindən dərhal aradan qaldırılması təmin edilmişdir.

Gimnaziyada həyata keçirilən başçəkmənin nəticələrinə əsasən, müəssisənin binasının əsaslı təmir edilməsinə, ixtisaslı tibb işçisi ilə təmin edilməsinə, yararlılıq müddəti keçmiş dərman preparatlarından istifadə edilməsinə nəzarətin artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, problemlərin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmışdır.

**Mingəçevir İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Başçəkmədə məqsəd müəssisədə saxlanılma şəraiti və rəftarın qiymətləndirilməsi, uşaqların qidalanması və dərman təchizatı, tibbi xidmət, istilik təchizatı və xüsusi diqqət yetirilməli olan məsələlərin dairəsinin müəyyənləşdirməkdən ibarət olmuşdur.

Başçəkmə keçirilən zaman müəssisənin yeməkxanasına, ərzaq anbarına, digər otaqlara və müvafiq sənədlərə baxış keçirildi. Müəssisədə yaşayan uşaqlarla müvafiq söhbət aparıldı, hüquqları izah edildi.

Müəssisəyə başçəkmə zamanı Gimnaziyanın binasının əsaslı təmirinin zəruriliyi müşahidə edilmişdir. Müəssisənin yeni, müasir standartlara cavab verən vəziyyətə gətirilməsinə ehtiyac vardır. Müəssisə rəhbərliyi saxlanma şəraitinin yaxşılaşdırılması və müəssisənin əsaslı təmiri ilə bağlı məsələlərin Təhsil Nazirliyi qarşısında qaldırıldığını bildirmişdir.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında uşaq hüquqları üzrə məşğələlərin keçirilməsi, əməkdaşların uşaqlarla rəftar məsələlərinin nəzarətdə saxlanılması ilə bağlı müəssisə rəhbərliyinə tövsiyələr verilmiş, problemlərin aradan qaldırılması ilə bağlı müzakirələr aparılmışdır.

**Balakən rayon İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziyaya** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmə həyata keçirilmişdir.

Bu müəssisə 1966-cı ildən fəaliyyət göstərir. Müvəkkilin MPM fəaliyyəti çərçivəsində verilmiş tövsiyələri də nəzərə alınmaqla 2016-cı ildə gimnaziya əsaslı təmir edilmişdir.

Hazırda burada 184 şagird təhsil alır. 80 şagird şənbə və bazar günləri istisna olmaqla daimi gecələyirlər. Yataqxana 120 yerlikdir. Müəssisədə 25 müəllim, 31 texniki işçi və 9 tərbiyəçi fəaliyyət göstərir.

Gimnaziya istilik sistemi ilə təmin olunmuşdur. Məktəbin daxili istilik enerjisinin təmin edilməsi üçün tikilmiş qazanxanda olan çatışmazlıqlarhəlli məqsədilə müəssisə tərəfindən Təhsil Nazirliyi qarşısında qaldırılmışdır.

Müəssisədə qalan uşaqlardan bir qrupu ilə təklikdə söhbət aparılmışdır. Uşaqlara rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir.

Yekunda müəssisə rəhbərliyi ilə müəssisədə həyata keçirilən işlər üzrə müzakirələr aparılmış, milli və beynəlxalq qanunvericiliyə uyğun şəkildə tövsiyələr verilmişdir.

**Quba Xüsusi Peşə Məktəbində** başçəkmələr zamanı yataqxanalara, sinif, tərbiyə və istirahət otaqlarına, kitabxanaya, mətbəxə, yeməkxanaya, hamama, inzibati otaqlara və ümumi əraziyə baxış keçirilmiş, saxlanılma

şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

MPQ üzvləri tərəfindən müəssisədə olan uşaqlar təkbətək qəbul edilmiş, onlarla fərdi söhbətlər aparılmış, rəftar məsələləri, təminatları və saxlanma şəraitləri araşdırılmış, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Müəssisənin binasının əsaslı təmirinə, saxlanma şəraitinin təkmilləşdirilməsinə, yeni, müasir standartlara cavab verən vəziyyətə gətirilməsinə ehtiyac vardır. Müəssisə rəhbərliyi saxlanma şəraitinin yaxşılaşdırılması və müəssisənin əsaslı təmiri ilə bağlı məsələlərin Təhsil Nazirliyi qarşısında qaldırıldığını bildirmişdir.

Qeyd olunmalıdır ki, müəssisədə saxlanma şəraitinin təkmilləşdirilməsi məsələsi Müvəkkilin MPM fəaliyyəti çərçivəsində Təhsil Nazirliyi qarşısında qaldırılmış və həllini gözləyən məsələlərdəndir.

Başçəkmələrin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında uşaqlarla rəftar və saxlanılma şəraitlərinə, habelə təhsil, sağlamlıq və digər hüquqlarının effektiv təmini və nəzarətdə saxlanılması ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, yerində aradan qaldırılması mümkün olan çətinliklərlə bağlı tövsiyələrin icrası müzakirə olunmuşdur.

**Quba Şəhər Valideyn Himayəsindən Məhrum Olmuş Uşaqlar üçün Tam Orta İnternat Məktəbində** FP-nin tələbləri əsasında başçəkmələr keçirilmişdir.

MPQ-nin üzvləri tərəfindən keçirilmiş başçəkmələr zamanı saxlanma şəraitinin araşdırılması məqsədilə müəssisənin yataq, sinif və tərbiyə otaqlarına, mətbəxə, hamamxana və inzibati otaqlara, eləcə də ümumi əraziyə baxış keçirilmiş, saxlanılma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Başçəkmələr çərçivəsində müəssisədə saxlanılan uşaqların bir qismi ilə təkbətək söhbətlər aparılmış, müəssisə əməkdaşlarının onlarla rəftarı, təminatları və şəraitləri araşdırılmışdır. Uşaqlar müəssisə əməkdaşlarının onlara qarşı rəftarından şikayət etməmişlər.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında internat məktəbinin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

**Xınalıq Tam Orta İnternat Məktəbinə** MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar əsasında başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanunu, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası, BMT-nin İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyasının Fakültativ Protokolu SPT tövsiyələri, CPT standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında həyata keçirilmişdir.

Başçəkmə zamanı müəssisənin yataqxanalarına, sinif və tərbiyə otaqlarına, inzibati otaqlara, mətbəxə, ümumi obyekt və əraziyə baxış keçirilmiş, saxlanma şəraiti və müəssisədəki uşaqlarla rəftar, onların təhsil alması və asudə vaxtlarının təşkili məsələsi araşdırılmışdır.

Müəssisədə qalan uşaqlardan bir qrupu ilə təklikdə söhbət aparılmışdır. Uşaqlara rəftar, təminatları və şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlarla rəftarından şikayət etməmişlər.

Xınalıq Tam Orta İnternat Məktəbində də saxlanma şəraitinin təkmilləşdirilməsinə, sanitar qovşaqlarda əsaslı təmirə ehtiyac var. Yeməkxana və mətbəx uyğunlaşdırılmış otaqlarda yerləşdirilib və tələblərə cavab vermir. Aşkar olunmuş nöqsanlar məktəbin direktorunun nəzərinə çatdırılmışdır.

Başçəkmənin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında internat məktəbinin rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

### 2.2.7. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələri

2017-ci ildə Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nun üzvləri tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin müəssisələrinə əvvəlcədən xəbərdarlıq etmədən 11 başçəkmə həyata keçirilmişdir.

Başçəkmələr milli qanunvericilik, "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən beynəlxalq standartlar, BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvesniyası", "Əqli qüsurlu şəxslərin hüquqları haqqında Bəyannamə", "Psixi xəstə şəxslərin müdafiəsi və psixiatrik yardımın yaxşılaşdırılması Prinsipləri", BMT-nin ahıl şəxslərə dair Prinsipləri, BMT Baş Assambleyasının Əhalinin qocalması problemləri üzrə Beynəlxalq Fəaliyyət Planı üzrə tövsiyələri, CPT və SPT qaydaları əsasında həyata keçirilmişdir.

**Sağlamlıq imkanları məhdud uşaqlar üçün 1 saylı Sosial Xidmət Müəssisəsinə** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.[54]

Həyata keçirilən başçəkmədə MPQ üzvləri ilə yanaşı, UNICEF-in ölkə ofisinin tibb üzrə eksperti də iştirak etmiş və məqsəd bu müəssisədə olan uşaqlarla rəftar və onların saxlanma şəraitinin araşdırılması olmuşdur. Əvvəlki başçəkmələr zamanı verilən tövsiyələrin icra vəziyyəti də yerində öyrənilmişdir.

5 yaşından 18 yaşına qədər uşaqlar üçün nəzərdə tutulmuş müəssisənin ümumi limiti 200 nəfər, faktiki başçəkmə gününə orada saxlanılanlar isə 177 nəfər olmuşdur. Uşaqlar cinsinə, yaşına, sağlamlıq vəziyyətinə uyğun olaraq bölünür.

Müəssisəyə baxış zamanı burada uşaq hüquqlarının təmini məqsədilə şəraitin yaradıldığı, əqli vəziyyəti nisbətən yaxşı olan uşaqların tədrisə cəlb olunduğu, digərlərinin də həvəsləndirildiyi, asudə vaxtlarının səmərəli təşkili, əmək-peşə vərdişləri üçün ayrıca otaqların ayrıldığı müşahidə edilmişdir.

Başçəkmələr zamanı müəllimlərlə söhbət aparılmış, onların uşaqlara münasibəti araşdırılmışdır.Müəssisədə tibb xidmətinin təşkili üçün təmir olunmuş həkim otağı, 2 izolyasiya otağı və prosedurotağı, idman otağı, su reabilitasiya otağı ayrılmışdır. Tibb bölməsi üçün ayrılan otaqlar lazımi inventarlar və bir sıra müasir diaqnostik və fizioterapevtik tibbi avadanlıqlarla təchiz olunmuşdur. Həkimlərlə söhbət zamanı müəssisənin dərman təchizatında da çətinlik olmadığı bildirilmişdir.

Qeyd olunmalıdır ki, adıçəkilən müəssisə müasir standartlara uyğun şəkildə yenilənmiş, zəruri avadanlıqlarla təchiz edilmişdir.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi və əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaqların, əlilliyi olan şəxslərin hüquqlarının həyata keçiril-

---

[54] https://report.az/sosial-mudafie/ombudsman-aparatinin-emekdaslari-sosial-xidmet-muessisesine-bas-cekibler/

məsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

**Sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 saylı Sosial Xidmət Müəssisəsinə** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində MPQ üzvləri tərəfindən başçəkmə həyata keçirilmişdir[55].

Başçəkmədə MPQ üzvləri ilə yanaşı, UNİCEF-in ölkə ofisinin sosial iş və tibb üzrə ixtisaslaşmış ekspertləri də iştirak etmiş və məqsəd bu müəssisədə olan uşaqlarla rəftar və onların saxlanma şəraitinin araşdırılması olmuşdur.

5 yaşından 18 yaşa qədər sağlamlıq imkanları məhduduşaqlar üçün nəzərdə tutulmuş müəssisənin ümumi limiti 170 nəfər, başçəkmə gününə isə, siyahı üzrə faktiki 140 nəfər olmuşdur.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs və reabilitasiya otaqlarına, yeməkxanaya və mətbəxə, asudə vaxtının təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına baxış keçirilmişdir. Buradakı uşaqlarla görüş zamanı onlar şəraitdən, qidalanmadan, müəssisə əməkdaşlarının onlarla rəftarından razılıq etmişlər.

Müəssisədə çalışan tərbiyəçilərin ali təhsilli olduğu, həmçinin UAFA-nın nümayəndələri ilə sıx əməkdaşlıq edildiyi barədə də məlumat verilmişdir. Başçəkmə zamanı müəllimlərlə söhbət aparılmış, onların uşaqlara münasibəti araşdırılmışdır.

Müəssisədə tibb xidmətinin təşkili üçün müasir tələblərə cavab verən və təmir olunmuş həkim otağı, izolyasiya otağı və prosedur otağı ayrılmışdır. Burada 1 pediatr və 0.5 aklad terapevt, 0.5 aklad psixiatr, 0.5 aklad stomatoloq, 0.5 aklad nevropatoloq olmaqla 5 həkim, 9 tibb bacısı fəaliyyət göstərir. Tibb bacıları gecə növbəsi də daxil olmaqla növbəli iş qrafiki ilə işləyirlər. Onlar gecə növbəsində ehtiyac olduğu təqdirdə təcili tibbi yardım stansiyasından həkim briqadası çağrıldığını bildirmişlər. Qeyd etmək lazımdır ki, tibb bölməsi üçün ayrılan otaqlar lazımi inventarlar və bir sıra müasir diaqnostik və fizioterapevtik tibbi avadanlıqlarla təchiz olunmuşdur. Həkimlərlə söhbət zamanı müəssisənin dərman təchizatında da çətinlik olmadığı bəlli olmuşdur.

Uşaqların ildə bir dəfə Abşeron rayon Mərkəzi Poliklinikasında flüoroqrafiya müayinəsindən keçirildikləri, həmçinin ildə bir dəfə uşaqlara mantu sınağı qoyulduğu, cərrahi və digər ixtisaslı tibbi yardım və laborator müayinələr üçün Saray qəsəbə poliklinikasına müraciət edildiyi haqda da məlumat verilmişdir.

---

[55] https://report.az/sosial-mudafie/ombudsmanin-numayendeleri-2-sayli-sosial-xidmet-muessisesine-bas-cekib/

Qeyd olunmalıdır ki, Müvəkkilin MPM fəaliyyəti çərçivəsində verdiyi tövsiyələri də nəzərə alınmaqla əsaslı təmir olunaraq zəruri müasir avadanlıqlarla təchiz edilmiş müəssisənin standartlara uyğun olduğu, saxlanma şəraiti, qidalanma, ərzaq təminatı, tibbi yardım, gəzinti və digər hüquqların təmin olunması vəziyyəti, habelə uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.

Başçəkmənin sonunda internat evinin rəhbərinə Milli Preventiv Qrupun üzvləri və başçəkmədə iştirak edən UNICEF ekspertləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları haqqında və Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyaları əsasında müzakirələr aparılmaqla, müvafiq tövsiyələr verilmişdir.

**Göygöl rayon 3 saylı Psixonevroloji Sosial Xidmət Müəssisəsinə** MPQ üzvləri tərəfindən başçəkmələr həyata həyata keçirilmişdir.

Müəssisədə əsasən şizofreniya, oliqrofeniya, daun sindromu kimi xəstəliklərdən əziyyət çəkən şəxslər saxlanılır. Başçəkmə zamanı MPQ-nin üzvləri müəssisənin müalicə və yataq otaqlarına, yeməkxana və mətbəxinə, ümumi əraziyə baxış keçirmiş, fiziki imkanları məhdud olan uşaqlar, əlilliyi olan şəxslərlə görüşmüşlər.

Söhbət aparılan şəxslər onlarla rəftar məsələlərindən narazılıq etməmişlər.

Başçəkmələr zamanı müəssisənin müvafiq qeydiyyat jurnalları, həmçinin saxlanılan şəxslərin sənədləri və təyinatları da öyrənilmişdir.

Başçəkmələrin nəticələrinə əsasən müəssisənin 4 mərtəbəli binasının yuxarı mərtəbələrə qaldırılmalı olan xəstələr üçün çətinlik yaratdığından qaldırıcı liftin təmirinə, stomotoloji xidmət üçün stomatoloji kabinet və kadrla təmin olunmasına, gündəlik dərman təminatına ayrılan vəsaitin xəstələrin keyfiyyətli dərman təminatı üçün həmin məbləğin artırılmasına ehtiyac olması müşahidə edilmişdir.

Başçəkmələrin yekununda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, əsasında saxlanılan şəxslərlə rəftar və saxlanılma şəraitlərinə, sağlamlıq və digər hüquqlarının effektiv təmini və nəzarətdə saxlanılması ilə bağlı müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilmiş, yerində aradan qaldırılması mümkün olan çətinliklərlə bağlı tövsiyələrin icrası müzakirə olunmuşdur.

### 2.2.8 Yerli icra hakimiyyəti orqanlarının müəssisələri

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında

Konstitusiya Qanununun tələbləri əsasında MPQ üzvləri tərəfindən Yerli İcra Hakimiyyətlərinin tabeliyində olan müəssisələrə 2017-ci il ərzində əvvəlcədən xəbərdarlıq etmədən 23 başçəkmə həyata keçirilmişdir.

Həyata keçirilmiş başçəkmələr milli qanunvericilik, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası, "Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiya"sının müddəaları, İQA (SPT) tövsiyələri, İQK (CPT) standartları, BMT-nin Uşaq Hüquqları Komitəsinin tövsiyələri əsasında həyata keçirilmişdir. Beynəlxalq təcrübə nəzərə alınmaqla bu müəssisələrdə saxlanma şəraiti və uşaqlarla rəftar məsələləri, habelə təcrübədə milli və beynəlxalq standartların tətbiqi məsələləri araşdırılmış, müəssisələr üzrə əvvəlki başçəkmələr zamanı verilmiş tövsiyələrin icrası vəziyyəti yerində yoxlanmışdır.

**Bakı Şəhər İcra Hakimiyyətinin 2 saylı Uşaq evinə** Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında MPQ-nun üzvləri tərəfindən başçəkmələr həyata keçirilmişdir.[56]

Başçəkmələrdə məqsəd bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması olmuşdur.

İlkin olaraq uşaq evinin direktoru ilə görüş keçirilmiş, ümumi limiti 300 nəfər üçün nəzərdə tutulmuş müəssisədə faktiki 237 nəfər saxlandığı məlum olmuşdur. Bunlardan 100 nəfəri müəssisədə yaradılmış "Günərzi Qayğı Mərkəzi"ndə, 137 nəfəri isə müəssisədə daimi yaşayan uşaqlardır. 3-13 yaşlı uşaqları əhatə edən "Günərzi"Qayğı Mərkəzi qruplarındakı uşaqlar 8:00-dan 20:00-a qədər müəssisədə olur və bu müddət ərzində müəssisədə yaşayan digər uşaqlarla bərabər hüquqlara malikdirlər.

Müəssisədə 3 məktəbəqədər qrup var. Hər bir qrupa 2 tərbiyəçi müəllim, 2 dayə nəzarət edir.Müəssisə rəhbərinin verdiyi məlumata əsasən, 3 yaşından 18 yaşadək olan uşaqlar üçün nəzərdə tutulan bu müəssisədə 18 yaşı tamam olan uşaqlar valideynləri və ya qanuni nümayəndələri tərəfindən götürülür, onlar olmadıqda isə, Masazır qəsəbəsində yeni istifadəyə verilmiş məzun evinə qeydiyyata düşür və yaşayış üçün lazımi şəraitlə təmin edilirlər. Bu müəssisədə saxlanılan 4 uşağın valideyninin cəzaçəkmə müəssisə-

---

[56] http://www.azadliq.az/xeber/193820/milli-preventiv-qrup-dovlet-usaq-muessiselerine-bas-cekib/

sində olduğu və onların valideynləri ilə qısamüddətli görüşlərində çətinlik olmadığı müəyyən edilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların istehsal və istifadə müddəti yoxlanılmışdır.

Tərbiyəçı-müəllimlərlə fərdi söhbət aparılmış, onların uşaqlara münasibəti araşdırılmışdır. Cəzalandırma ilə bağlı müəyyən edilmişdir ki, uşaqlar dərslərini yaxşı oxumadıqda və ya bir-biriləri ilə mübahisə etdikdə onları bir müddət sevimli məşğuliyyətlərindən ayırırlar.

Müəssisədə uşaqlarla keçirilmiş qrup oyunları zamanı, habelə təsadüfi seçim əsasında onların bəziləri ilə konfidensial söhbətlər əsasında müəssisə əməkdaşlarının onlarla rəftarı məsələsi və münasibətləri araşdırılmışdır.

Müəssisədə uşaqlara göstərilən tibbi xidmətin vəziyyəti ilə tanış olarkən məlum olmuşdur ki, tibb xidmətinin təşkili üçün burada 1 həkim-pediatr, 1 həkim-stomatoloq və 5 tibb bacısı fəaliyyət göstərir.

Araşdırma zamanı uşaqların hərtərəfli tibbi müayinə və müalicəsi üçün ehtiyac olduğu təqdirdə yaxınlıqdakı poliklinika və özəl tibb müəssisələrinin fəaliyyətindən istifadə edildiyi məlum olmuşdur.

Qeyd olunmalıdır ki, zəruri müasir avadanlıqlarla təchiz edilmiş bu müəssisədəki şərait və uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

Ombudsmanın Milli Preventiv Qrupunun (MPQ) üzvləri tərəfindən **Bakı Şəhər İcra Hakimiyyətinin 3 saylı Uşaq evinə** əvvəlcədən xəbərdarlıq etmədən başçəkmə həyata keçirilmişdir.[57]

Bu müəssisədə yaşayan uşaqların saxlanma şəraitinin və müəssisə əməkdaşlarının onlarla rəftarı məsələlərinin, habelə uşaq hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması başçəkmənin əsas məqsədi olmuşdur.

Müəssisənin ümumi limiti 95 nəfər üçün nəzərdə tutulmuşdur və faktiki orada 91 nəfər saxlanılır, hər qrupda isə, 20-25 uşaq olmaqla uşaqlar 4 qrupa bölünmüşdür. Hər bir qrupa 2 tərbiyəçi müəllim və 2 dayə nəzarət edir.

---

[57] https://report.az/sosial-mudafie/milli-preventiv-qrup-dovlet-usaq-muessiselerine-bas-cekib/

Müəssisədə 3 yaşından 18 yaşadək uşaqlar saxlanılır. Bu müəssisədə də 18 yaşı tamam olan uşaqlar valideynləri və qanuni nümayəndələri tərəfindən götürülür, onlar olmadıqda isə, Masazır qəsəbəsində yeni istifadəyə verilmiş məzun evinə qeydiyyata düşür və yaşayış üçün lazımi şəraitlə təmin edilirlər. 7 uşağın valideyninin cəzaçəkmə müəssisəsində cəza çəkdiyi, onların valideynləri ilə qısamüddətli görüşlərində çətinlik olmadığı bildirilmişdir.

Başçəkmə zamanı müəssisənin bütün obyektlərinə, o cümlədən yataq, dərs, tibb otaqlarına, asudə vaxtın təşkili üçün nəzərdə tutulmuş otaqlara, o cümlədən rəsm, musiqi otaqlarına, habelə idman zalına, yeməkxanaya və mətbəxə, ərzaq anbarına baxış keçirilmiş, saxlanılan qidaların istehsal və istifadə müddəti yoxlanılmışdır. Hər bir uşağa gündəlik yemək üçün büdcədən 4 manat 20 qəpik məbləğ ayrıldığı sənədləşmədə yer almışdır.

Müəssisədə tərbiyəçi-müəllimlə fərdi söhbət aparılmış, onların uşaqlara münasibəti araşdırılmışdır. Seçim əsasında müəssisədə uşaqlarla aparılan konfidensial söhbət zamanı onlar rəftardan və qidalanmadan narazılıq etməmişlər.

Müəssisədə uşaqlara göstərilən tibbi xidmətin vəziyyəti ilə tanış olarkən məlum olmuşdur ki, tibb xidmətinin təşkili üçün burada 1 həkim-pediatr və 4 tibb bacısı fəaliyyət göstərir. Tibb bacılarının işi növbəli iş qrafiki əsasında qurulub ki, bu da müəssisədə daimi tibbi nəzarətin olması deməkdir. Araşdırma zamanı məlum olmuşdur ki, uşaqların hərtərəfli tibbi müayinə və müalicəsi üçün ehtiyac olduğu təqdirdə yaxınlıqdakı poliklinika və özəl tibb müəssisələrinin fəaliyyətindən istifadə edilir. Stomatoloji yardım üçün mobil stomatoloji kabinetin fəaliyyətindən də istifadə edildiyi bildirilmişdir.

Qeyd olunmalıdır ki, əsaslı təmir olunaraq zəruri müasir avadanlıqlarla təchiz edilmiş müəssisənin müasir standartlara uyğunluğu, saxlama şəraiti, qidalanma, ərzaq təminatı, tibbi yardım, gəzinti və digər hüquqların təmin olunması vəziyyəti, habelə uşaqlarla rəftar məsələləri qənaətbəxş qiymətləndirilmişdir.

Müəssisə rəhbərliyi və əməkdaşlarla aparılan söhbət zamanı onlar tərbiyəçi və tərbiyəçi köməkçilərinin sayının saxlanılan uşaqların sayına adekvat olmadığını, buna görə müəssisə üçün əlavə ştatların, o cümlədən loqoped ştatının ayrılmasına ehtiyac duyulduğunu bildirmişlər.

Başçəkmələrin sonunda MPQ üzvləri tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyası əsasında uşaqlarla, müəssisə rəhbərliyi ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, uşaq hüquqlarının həyata keçirilməsi və təmininə diqqətin artırılması və bu sahədə fəaliyyətlərinin və sənədləşmənin təkmilləşdirilməsi ilə bağlı tövsiyələr verilmişdir.

***Şəki Qarışıq Tipli Uşaq Evində*** MPQ-nin üzvləri tərəfindən Fakültativ Protokolun tələbləri əsasında başçəkmələr keçirilmişdir.

Birinci başçəkmə Müvəkkilin tapşırığına əsasən müəssisədə yaşayan A.H-nin pis rəftara məruz qalma ehtimalı üzrə internet resurslarında yayılmış məlumatla bağlı araşdırma aparılması məqsədilə həyata keçirilmişdir.[58]

Araşdırma zamanı A.H. ilə konfidensial şəraitdə görüş keçirilmişdir. Görüş zamanı o, müəssisə rəhbərliyi və müəllimələri tərəfindən pis rəftara məruz qalmadığını bildirmiş, vizual müayinə zamanı hər hansı bir xəsarət izləri də müşahidə olunmamışdır.[59]

Araşdırma zamanı uşaq evində yaşayan digər uşaqlar da konfidensial qaydada qəbul edilmiş və onlar uşaq evi əməkdaşlarının rəftarından şikayət etməmişlər.

Müəssisəyə növbəti dəfə başçəkmə keçirilmiş, rəftar məsələlərinin araşdırılması ilə bağlı uşaqlarla təkbətək söhbətlər aparılmış, təminatları və saxlanma şəraitləri barədə suallar verilmiş, hüquqları izah edilmişdir. Uşaqlar müəssisə əməkdaşlarının onlarla rəftarından şikayət etməmişlər.

Başçəkmənin sonunda Müvəkkilin MPQ-u tərəfindən milli qanunvericilik və beynəlxalq standartlar, o cümlədən BMT-nin Uşaq hüquqları Konvensiyası əsasında müəssisə rəhbərliyi ilə saxlama şəraitinin, ilkin tibbi yardımın göstərilməsi işinin təkmilləşdirilməsi və rəftar məsələləri üzrə söhbətlər aparılmış, müvafiq tövsiyələr verilmişdir.

---

[58] http://modern.az/az/news/135003#gsc.tab=0

[59] http://www.ombudsman.gov.az/az/view/news/716/ombudsmanin-sheki-regional-merkezinin-emekdashlari-sheki-qarishiq-tipli-ushaq-evinde-arashdirma-aparmishlar

## BÖLMƏ 3.

## HÜQUQİ TƏHLİL

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində onun MPQ-u tərəfindən həyata keçirilən fəaliyyət istiqamətlərindən biri də preventiv başçəkmələr və hüquqi maarifləndirmə tədbirləri zamanı əldə olunmuş məlumatların hüquqi təhlildir.

Hüquqi təhlil prosesi çərçivəsində həyata keçirilən fəaliyyət, eləcə də bu fəaliyyətlə əlaqədar toplanmış məlumatların, alınmış tövsiyələrin, mövcud, yaxud qanunvericilik aktlarının nəzəri-təcrübi təhlili, əldə olunmuş nəticələrin ümumiləşdirilməsi aparılır.

MPM-in hüquqi təhlil istiqamətində fəaliyyəti, qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi hüququ FP-nin 19-cu maddəsində birbaşa təsbit olunmuşdur.

Hüquqi təhlil işinin səmərəli təşkil olunması Müvəkkilin MPM fəaliyyəti çərçivəsində qarşısında duran əsas məsələlərdən biri olmuşdur. İşgəncə və pis rəftar hallarının qarşısının alınmasının təmin olunması məqsədi ilə həyata keçirilmiş fəaliyyətin nəticələri və mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində təklif və tövsiyələr işlənib hazırlanmışdır.

MPQ üzvləri tərəfindən başçəkmələr zamanı azadlıqdan məhrum edilmiş şəxslərin qəbul olunması və Müvəkkilə ünvanlanmış şikayətlərlə yanaşı, Ombudsmanın İşgəncə ehtimalı ilə bağlı 24 saat fəaliyyət göstərən Qaynar Xəttinə edilmiş müraciətlər də təhlillər üçün mənbələrdən olmuşdur.

2017-ci ildə MPQ-in ötən illərdəki hesabatlarında qeyd olunmuş əsas məsələlərdən biri olan penitensiar müəssisələrdə sıxlığın aradan qaldırılması, habelə alternativ qəti-imkan tədbirlərinin və cəzaların təyin edilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən imtina edilməsi məsələləri ilə bağlı əhəmiyyətli addımlar atılmışdır.

10 fevral 2017-ci il tarixdə ölkə Prezidenti tərəfindən "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncam imzalanmışdır.

Sərəncam insan hüquqlarının effektiv təmini istiqamətində həyata keçirilən islahatların davamlılığı baxımından yeni mərhələ oldu. Sənəd mahiyyətcə hərtərəfli olmaqla, özündə insan hüquq və azadlıqlarının əsas prinsiplərini, azadlıq hüququnun təmini baxımından isə strateji, yeni və kompleks yanaşmaları, əsaslı dəyişiklik və əməkdaşlığı özündə ehtiva edir. Bu yanaşma dövlət tərəfindən şəxsin ləyaqətinin sosial dəyər kimi qəbul edilməsini, hüquq və azadlıqların təmini baxımından hər kəsin cəmiyyət və başqa

şəxslər qarşısında məsuliyyətini, azadlıq hüququna müdaxilənin yolverilməzliyini tələb edir. Həyata keçirilən hüquqi islahatlar insan hüquq və azadlıqlarının genişləndirilməsi baxımından həbs və ya məhkum olunmuş şəxslərin hüquqlarını əhatə etməklə dövlətin sosial məsuliyyətliliyini daha da artırır. Cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxsin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində mövcud çətinliklər və zərurət məlum Sərəncam əsasında önə çəkilməklə yanaşı, icrası da dövlətin siyasətinin tərkib elementinə çevrilir.

Sərəncamda xüsusilə qeyd edilməli olan ilk müddəalardan biri Penitensiar müəssisələrin fəaliyyətinin müasirləşdirilməsi, infrastrukturun yenilənməsi və idarəçilik mexanizminin təkmilləşdirilməsi tədbirlərinin davam etdirilməsi, cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkil edilməsi və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin yaradılmasıdır. Bu qurum cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan, alternativ cəzaların icrasına effektiv nəzarətin həyata keçirilməsi ilə məşğul olacaqdır. Qeyd olunmalıdır ki, Müvəkkil MPM fəaliyyəti çərçivəsində probasiya məsələlərinə dəfələrlə toxunmuş və 2016-cı il üzrə MPM hesabatının tövsiyələrində də bu məsələ yer almış və artıq icra olunmaqdadır.

Bununla yanaşı, Sərəncam öz effektivliyi ilə Azərbaycan Respublikasının Ali Məhkəməsi, Baş Prokurorluğu və Ədliyyə Nazirliyi tərəfindən hazırlanmış qanun layihələrində cinayətlərin sanksiyalarına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə olunması və mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi, törədilən əməlin ictimai təhlükəliliyi maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan qətimkan tədbirlərinin tətbiqi və azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması, azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsini daha yüngül cəza ilə əvəz etmə, cəzanın çəkilməmiş hissəsindən şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkumetmə institutlarının daha geniş tətbiq edilməsi, həbsə alternativ olan qətimkan tədbirinin tətbiq edilməsi hallarının genişləndirilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının daha da məhdudlaşdırılması ilə bağlı müddəalara ətraflı yer ayrılmasına təsir edəcəkdir.

Bu yanaşmalar təhqiqat, istintaq orqanları ilə yanaşı, hüquqi islahatlar kontekstində məhkəmə təcrübəsinin də kifayət qədər təkmilləşdirilməsinə,

cinayətkarlığın dinamikasının aşağı düşməsinə imkan verməklə yanaşı, hər bir vətəndaşın maraqlarının qanunsuz qəsdlərdən qorunmasını, sui-istifadə və korrupsiya hallarının qarşısının alınmasını, şərəf və ləyaqətinin müdafiəsini ön plana çəkir.

Saxlanılan şəxslərin qəbulu, eləcə də aparılmış araşdırmalar zamanı başlanmış cinayət işləri üzrə istintaq orqanları tərəfindən təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı təqdimatlar digər əhali qrupları ilə müqayisədə cinayətkarlığın dinamikası baxımından yetkinlik yaşına çatmayanları, qadınları, ahıl yaşda olan, habelə xəstə şəxsləri də say çoxluğu baxımından əhatə etmişdir.

Eyni zamanda, cinayət işləri üzrə istintaqın əksər hallarda uzun müddət aparılması diqqəti cəlb edən əsas məqamlardan olmaqla yanaşı, narahatlığa səbəb olmuşdur. Bütün bunlar, çox hallarda həbs qətimkan tədbirinin seçilməsi və bu qətimkan tədbirinin müddətinin bir-neçə dəfə uzadılması istintaq təcridxanalarında sıxlığın yaranmasına, saxlama şəraiti ilə bağlı çətinliklərə, yetkinlik yaşına çatmayanlar arasında isə kriminal davranışa meylliyin artmasına və kifayət qədər dövlət vəsaitinin sərf olunmasına gətirib çıxarır. Bu isə alternativ qətimkan tədbirlərin geniş tətbiqi zərurətini bir daha önə çəkir.

Bu baxımdan Sərəncamın effektiv tətbiqi yetkinlik yaşına çatmayanlara münasibətdə ölkədə Yuvenal Ədliyyə islahatlarına da öz töhfəsini verəcəkdir. Fəaliyyət prosesində Yuvenal Ədliyyə prinsiplərinin nəzərə alınması, BMT-nin Uşaq Hüquqları Komitəsi, İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsi və digər beynəlxalq təşkilatlar tərəfindən ölkəyə verilmiş bir sıra tövsiyələrin icrası baxımından da mühüm əhəmiyyət daşıyır.

Bu tədbirlər həm də istintaq-məhkəmə sisteminin iş yükünün azaldılması, cəzaçəkmə müəssisələrinin yüklənilməməsi ilə bərabər cinayətdən zərər çəkmiş şəxslərin hüquqlarının və dövlətin maraqlarının təmin olunmasına da xidmət edəcəkdir.

Cinayətlərin törədilmə səbəbləri ətraflı və hərtərəfli təhlil olunmalı, insanları cinayətə sövq edən halların aradan qaldırılması üçün kompleks kriminoloji tədqiqatlar aparılmalıdır ki, bu da cinayətkarlığın profilaktikası baxımından olduqca əhəmiyyətlidir. Preventiv tədbirlərin həyata keçirilməsi prosesində sosial işçilərin, psixoloqların hazırlanması və bu fəaliyyətə cəlb olunması da məqsədəmüvafiq olardı.

Cinayətlərin, xüsusilə də iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması ilə bağlı qanun layihələrinin hazırlanması təşəbbüsü Azərbaycan dövlətinin cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı növbəti uğurlu addımıdır.

Bu gün qloballaşan dünyada insanın həyat və sağlamlığı, dövlət quruluşunun əsaslarına yönəlməyən, iqtisadi və mülkiyyət hüquqlarının pozul-

masına səbəb olan hüquq pozuntuları cinayət hüququnun təsir orbitindən çıxaraq, mülki və inzibati hüququn təsir və tənzim dairəsinə daxil olmaqdadır. Konkret ölkələrin cinayət qanunvericiliyində cinayət kimi müəyyən və təsbit edilən əməllər bu tip qanunvericilik aktlarından çıxarılır, beləliklə də cəza tətbiq edilmə təcrübəsində yeni meyllər yaranır.

Təcrübə göstərir ki, hüquqi islahatlar gedişində iqtisadi fəaliyyət sahəsində hüquq pozuntuları dəymiş zərər ödənildiyi halda cinayət sayılmır və ya həmin əməlləri törədən şəxslər daha çox mülki qaydada məsuliyyətə cəlb olunurlar. Bu tendensiya bir tərəfdən cəza siyasətinin humanistləşdirilməsi ilə bağlıdırsa, digər tərəfdən konkret ölkələrin iqtisadi və maliyyə həyatında canlanma yaratma cəhdləri ilə də izah oluna bilər. Maliyyə amnistiyası kimi tədbirlərin tətbiq olunması kontekstində bu cür dekriminallaşdırma iqtisadi baxımdan da müsbət təşəbbüs sayıla bilər. Cinayət nəticəsində vurulmuş zərərin və əldən çıxmış faydanın tam şəkildə ödənilməsi, ilk dəfə olaraq bu cür hüquq pozuntusuna yol verilməsi həmin şəxsin cinayət məsuliyyətindən azad edilməsi və həmin əməlin ümumiyyətlə cinayət sayılmaması üçün lazımi əsas kimi qiymətləndirlə bilər. Zərərin ödənilməsinin təkcə məhkəməyədək deyil, məhkəmə qərarından sonrakı dövrdə də həyata keçirildiyi halda cinayət məsuliyyətindən azad etmə məsələlərinin qanunvericilikdə nəzərdə tutulması həyata keçirilən islahatlara mühüm töhfə verə bilər.

Burada məhkəmə təcrübəsini qeyd edərkən, həbs və azadlıqdan məhrumetmənin ən son zərurət tədbiri olaraq tətbiq edilməsi, cəzanın isə törədilən cinayətə mütənasib olması məsələsinə diqqət yetirilməsi əsaslı yanaşma tələb edən amillərdəndir.

Bunlarla yanaşı, ictimai işlər növündə cəzaların təyin edilməsinin də bir çox hallarda formal xarakter daşıması, müəyyən sui-istifadə halları ilə də müşayiət olunurdu. Sərəncam ictimai işlər növündə cəza çəkən məhkumların iş yerlərində dəqiq qeydiyyatının təşkil edilməsi, həmin işlərdən yayınmanın qarşısının alınması və iş vaxtının dəqiq uçotunun aparılması, məhkumların ictimai işlər növündə cəzanı çəkməkdən yayınmasına şərait yaradılmasına görə vəzifəli şəxslərin məsuliyyətini müəyyən edən qanun layihəsinin qəbul edilməsini də nəzərdə tutur ki, bu da qarşıya çıxan çatışmazlıqların aradan qaldırılması baxımından əhəmiyyətlidir. Burada yerli icra hakimiyyəti orqanları tərəfindən iş yerlərinin müvafiq siyahılarının da vaxtında hazırlanması, müntəzəm yenilənməsi və təqdim olunması da diqqət yetirilməli və zəruri məsələlərdəndir.

Eləcə də cəza siyasətinin humanistləşdirilməsi məqsədilə müvafiq qurumlar tərəfindən hazırlanacaq qanun layihələrində əvvəllər cinayət qanunvericiliyində mövcud olmuş azadlığın məhdudlaşdırılması növündə cəzaya yenidən baxılması, beynəlxalq təcrübə əsasında təkmilləşdirilməsi və

yeni redaksiyada verilməsi də alternativ cəza islahatları baxımından ölkə təcrübəsinin təkmilləşdirilməsinə mühüm töhfə verə bilər.

Qeyd olunan mühüm Sərəncam kompleks hüquqi islahatlar əsasında milli qanunvericilikdə islahatlar, habelə penitensiar müəssisələrdə saxlanılan şəxslərin hüquqlarının müdafiəsinin və saxlama şəraitinin daha da təkmilləşdirilməsi baxımından beynəlxalq standartlara, o cümlədən Avropa Penitensiar Qaydalarına uyğun məqsədlərə çatmağa da geniş imkanlar yaradır.

Ombudsmanın İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm (MPM) qismində bu proseslərdə fəal iştirakı yeni normativ-hüquqi aktların qəbulu ilə yanaşı, ötən illər ərzində Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası məcəllələrinə, mərkəzi icra hakimiyyəti orqanlarının qərarlarında əlavə və dəyişikliklər edilməsinə və praktiki tətbiqinə imkan vermişdir.

Müvafiq sərəncamda göstərilmiş vəzifə və müddəalardan irəli gələrək, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli Qanunu ilə cinayət qanunvericiliyində edilmiş dəyişikliklər böyük ictimai əhəmiyyət daşımaqdadır.

Həmin məcəlləyə 300-ə yaxın dəyişiklik edilmiş, 15 cinayətə görə məsuliyyət müəyyən edən maddə məcəllədən çıxarılmış, 22 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə, 26 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə zərərin 1 və ya 2 mislində ödəniş edilməsi şərti ilə, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 1 cinayətə görə narkomaniyaya düçar olmuş şəxsin tibbi xarakterli məcburi tədbirlərin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı məcəllədə 158 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzalar daxil edilmiş, 36 cinayətə görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi ilə əlaqədar 18 cinayət əməli az ağır cinayətdən böyük ictimai təhlükə törətməyən cinayətlər kateqoriyasına, 4 cinayət əməli ağır cinayətlər kateqoriyasından az ağır cinayətlər kateqoriyasına, 1 cinayət əməli xüsusilə ağır cinayətlər kateqoriyasından ağır cinayətlər kateqoriyasına keçirilmişdir.

Müvəkkilin MPM fəaliyyəti çərçivəsində verdiyi təkliflərində də yer almış və şəxsin (məhkumun) cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzası da alternativ cəza kimi yeni məzmunda Cinayət Məcəlləsinə daxil edilmişdir.

Yeni cəza növü olan azadlığın məhdudlaşdırılması, əvvəllər cinayət məcəlləsində mövcud olmuş eyni adlı cəza növündən fərqli olaraq məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında

saxlanılmasını nəzərdə tutur. Məhkəmə tərəfindən azadlığın məhdudlaşdırılması cəzası təyin edilmiş məhkumun yaşayış yerini (tamamilə və ya günün müəyyən vaxtlarında) və müəyyən ərazi hüdudlarını tərk etməsinə məhdudiyyət qoyulur.

Müvəkkilin illik məruzələrində, habelə aidiyyəti dövlət qurumlarına ünvanladığı müraciətlərdə öz əksini tapmış təkliflərdən, Cinayət Məcəlləsinin 52-1-ci maddəsində "azadlığın məhdudlaşdırılması növündə cəzanın daxil edilməsi ilə azadlıqdan məhrumetmənin qarşısının alınması", 73-cü maddəsində "zərərçəkmiş şəxslə barışmaqla bağlı cinayət məsuliyyətindən azad etmə", 73-1-ci maddədə "mülkiyyət əleyhinə olan cinayətlərə görə cinayət məsuliyyətindən azad etmə", 74-1-ci maddədə "narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etmə", 79-cu maddədə "azadlıqdan məhkum edilmiş hamilə qadınlar və ya on dörd yaşına qədər uşağı olan qadınlar, habelə on dörd yaşına çatmamış uşağını təkbaşına böyüdən kişilər tərəfindən uşaq on dörd yaşına çatanadək cəzanın çəkilməsinin təxirə salınması (əvvəlki redaksiyada bu yaş 8 olub), əsasən, kütləvi hal almış iqtisadi fəaliyyət sahəsində olan, habelə narkomaniya xəstəliyi ilə əlaqədar cinayətlərə görə məsuliyyətdən azad etmə ilə bağlı olmuş və 2017-ci il 1 dekabr tarixindən qüvvəyə minmişdir.

Cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxsin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması məqsədilə dövlət orqanları və vətəndaş cəmiyyəti institutları ilə müvafiq istiqamətlər üzrə əməkdaşlıq edilmiş, Cinayət Məcəlləsinə edilmiş əlavə və dəyişiklər zamanı müvafiq bölmələr üzrə Müvəkkilin 50-yə qədər, xüsusilə də cinayət məsuliyyətindən azad etmə ilə bağlı təklifləri nəzərə alınmışdır.

Cinayət Prosessual Məcəllənin azadlıq hüququnun, şəxsiyyətin toxunulmazlığı hüququnun təmin edilməsi, sübutların toplanması, cinayət mühakimə icraatı zamanı şəxslərin saxlandığı müəssisələr və cinayət işləri üzrə ibtidai istintaqın aparılması ilə bağlı maddələrinə qadağanedici norma olaraq, zorakılıq, hədə-qorxu, aldatma, işgəncə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan hərəkətlərin tətbiq edilməsinin yolverilməzliyi kimi müddəalar əlavə edilmişdir.

Cinayət işləri üzrə istintaq orqanları tərəfindən təqsirləndirilən şəxslər barəsində seçilən həbs qətimkan tədbirinin sayının çoxluğu, cinayət işləri üzrə istintaqın əksər hallarda uzun müddət aparılması, həbs edilmiş şəxslərin, xüsusilə də yetkinlik yaşına çatmayanların öz müstəntiqlərini uzun müddət görmədikləri, həbs müddətinin uzadılmasının istintaq təcridxanalarında sıxlığın yaranmasına, saxlama şəraiti ilə bağlı çətinliklərə, yetkinlik yaşına çatmayanlar arasında isə kriminal davranışa meylliyin artmasına gətirib çıxardığı nəzərə alınaraq, Müvəkkil tərəfindən alternativ qətimkan tədbirlərinin geniş tətbiqi təklif edilmişdir.

Qeyd edilməlidir ki, həmin təklif və tövsiyələr BMT-nin İşgəncələrə qarşı Komitəsinin (CAT) mövqeyi əsasında hazırlanmış və irəli sürülmüşdür.

Müvəkkilin MPM qismində təklifləri Probasiya xidmətinin yaradılması və tətbiqi ilə də bağlı olmuş, Cəzaların İcrası Məcəlləsinə əlavə olunmaq 15-1-ci maddədə nəzərə alınmaqla öz təsdiqini tapmışdır.

Yeri gəlmişkən, müvafiq sərəncamdan irəli gələn tələblərin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 438 nömrəli qərarı ilə "İctimai işlər cəzasına məhkum olunmuş şəxslərin cəlb ediləcəyi işlərin növləri və belə işlərin keçiriləcəyi yerlərin müəyyənləşdirilməsi qaydası" təsdiq edilmişdir. Həmin sənədə görə, ictimai işlər cəzası belə cəzaya məhkum olunmuş şəxslərin əsas işindən və ya təhsilindən asudə vaxtında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai-faydalı işləri yerinə yetirməsindən ibarətdir.

Müvəkkilin illik məruzə və hesabatlarında, habelə aidiyyəti dövlət qurumlarına ünvanladığı müraciətlərdə cəzaçəkmə müəssisələrində mövcud olmuş istehsal sahələrinin bərpa edilməsi və müasir avadanlıqlarla təchiz olunmuş yeni istehsal sahələrinin yaradılması ilə bağlı təkliflər verilmişdir.

Müvəkkil hesab edir ki, qeyd edilən tədbirlər məhkumların islah olunmasına, peşə hazırlığına, nəticə etibarilə onların sosiallaşmasına, habelə məhkumların mülki iddialardan irəli gələn borclarının, o cümlədən alimentin ödənilməsinə, onların ailəsinə maddi dəstək verməsinə imkan yarada bilər.

2017-ci ildə tutulmuş və həbs edilmiş şəxslərin polis orqanlarında vəkilləri ilə müvafiq order təqdim olunmasına baxmayaraq, bəzi hallarda görüşlərində maneələrin yaradıldığı müşahidə olunmuşdur. Bu sırada Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsini, Sumqayıt Şəhər Polis İdarəsini, Şirvan Şəhər Polis Şöbəsini misal göstərmək olar.[60]

Müvəkkilin MPQ-nin reaksiyasından sonra bu çətinlik halları aradan qalxsa da, daxil olmuş müraciətlər göstərir ki, bu problem hələ də qalmaqdadır.

Müvəkkil hesab edir ki, ümumiyyətlə azadlıqdan məhrum edilmiş şəxslərin keyfiyyətli hüquqi yardımla təmin edilməsi sahəsində müəyyən nöqsanlar hələ də mövcuddur. Dövlət hesabına fəaliyyət göstərən vəkillərin bir sıra hallarda öz vəzifələrinə laqeyd yanaşması ilə bağlı Müvəkkilə ünvanlanan müraciətlər bunu deməyə əsas verir. Bu baxımdan ötən ilin sonlarında Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətində islahatların aparılması ilə müşahidə olunan proseslər təqdirəlayiqdir. Müvəkkil hesab

[60] http://gozetci.az/article/index/8092

edir ki,ölkədə, xüsusilə regionlarda vəkillərin say məsələsi də mühüm əhəmiyyətə malikdir və bu sayın artırılmasına ehtiyac vardır.

MSY və polis bölmələrində sənədləşmənin aparılması və qeydiyyat jurnalları ilə bağlı təcrübədə çatışmazlıqlara hələ də kifayət qədər rast gəlinir. CPT hesab edir ki, hər bir tutulmuş şəxsin qeydə alındığı, saxlanmanın bütün aspektlərini və həbsə alınanlar barəsində görülən bütün tədbirləri əks etdirən əhatəli vahid qeydiyyat aparılsa, polis tərəfindən saxlanılmış şəxslər üçün əsas təminatlar gücləndirilmiş olar və öz növbəsində polis əməkdaşlarının işi xeyli asanlaşar.[61]

Sənədləşmə işinin həyata keçirilməsində nöqsanlar müşahidə olunan polis orqanları kimi Oğuz, Xaçmaz, Qazax, Tovuz, Ağstafa, Yevlax rayon polis idarələrini göstərmək olar.

Eyni zamanda MSY-da saxlanılan şəxslərin sağlamlıq hüququ kontekstində onların ehtiyac yarandığı halda keyfiyyətli dərman vasitələri ilə təmin edilməsi vacibdir. Bəzi hallarda istifadə müddəti bitmiş dərman preparatlarına MSY-lərdə hələ də rast gəlinir.

Məlumdur ki, cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında, müvəqqəti saxlama yerlərində saxlanılan şəxslər tərəfindən ünvanlanmış şikayətlər senzuradan keçirilmədən 24 saat müddətində Müvəkkilə göndərilməlidir.[62]

Oxşar müddəalar “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda[63] və Cəzaların İcrası Məcəlləsində[64] və müvafiq müəssisələrin Daxili İntizam Qaydalarında da nəzərdə tutulmuşdur. Lakin 2017-cı ildə də azadlıqdan məhrum edilmiş şəxslərin penitensiar müəssisələrdə yazışmaları ilə bağlı hüquqlarının reallaşdırılmasında da müəyyən problemlərin olduğu müşahidə edilmişdir. Bu cür hallarla həm cəzaçəkmə müəssisələri, həm də istintaq təcridxanalrında rast gəlinir. Belə ki, azadlıqdan məhrum edilmiş şəxslərin vəkillərinə, cəzaçəkmə müəssisələrinin fəaliyyətinə nəzarəti həyata keçirən orqanlara və Müvəkkilə göndərdikləri müraciətlərin, eləcə də həmin orqanlardan aldıqları cavabların senzuradan keçirilərək konfidensiallığın pozulduğu müəyyən edilmişdir. Bu məsələlər Ədliyyə Nazirliyi qarşısında qaldırılmış,verilmiş cavabda qadağan olunmuş əşyaların ötürülməsinin qarşısını almaq məqsədiilə məhkumların adına gələn və onlar tərəfindən gön-

---

[61]CPT,GR”,paraqraf 40

[62] “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Azərbaycan Respublikasının Konstitusiya Qanunu (28.12.2001), maddə 8.5

[63] “ Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının qanunu (22.05.2012), maddə 18;

[64]Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsi (14.07.2000), maddə 83.2 və 83.5.

dərilən məktubların müəssisələrin müdiriyyəti tərəfindən açıldığı, məsələnin nəzarətə götürüldüyü bildirilmişdir.

Qeyd edilməlidir ki, həbs yerini tərk edən tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan məktubların qanunvericiliyin tələbləri əsasında həbs yerinin müdiriyyəti tərəfindən ən geci 1 gün müddətində tutulmuş və ya həbs edilmiş şəxslərin yaşadıqları yerə göndərilməsi sahəsində də nöqsanlar müşahidə edilmiş və məsələlər müəssisələr qarşısında qaldırılmışdır.

Cəzaçəkmə müəssiələrində cəza çəkən məhkumların tibbi-sanitariya təminatı, sağlamlığının qorunması hüququnun reallaşdırılması ilə bağlı xeyli işlər görülsə də, hələ də çatışmazlıqlar mövcuddur. Penitensiar müəssisələrdə tibb işçiləri tərəfindən cərimə təcridxanasında məhkumların səhhətinə gündəlik nəzarətin, habelə sanitar-epidemioloji vəziyyətə nəzarətin formal xarakter daşıması, müvafiq jurnallarda aparılan qeydlərdə düzəlişlərin edilməsi, xüsusi vasitələrin tətbiqi ilə bağlı qeydlərin müəssisənin jurnalında aparılmış müvafiq qeydlərlə uyğun olmaması halları mövcuddur.

Bəzi hallarda Müalicə Müəssisəsinə göndərilməyə maneələrin yaradılması, müayinə və müalicə məsələlərində operativliyin olmamasının fəsadlar törətdiyi, yemək qəbulundan imtina edən, cərimə təcridxanasına keçirilmiş, xüsusi vasitə tətbiq olunmuş məhkumlara münasibətdə qeyri-uyğun yanaşmalar da müşahidə edilmişdir.

Xüsusilə ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin beynəlxalq standartlara uyğun təşkili, əməyə, təhsilə cəlb edilmə, idmanla məşğul olması üçün yeni müəssisənin tikinti işlərinin sürətləndirilməsinə ehtiyac vardır. Eyni zamanda Gəncə, Lənkəran şəhərlərində inşa edilən penitensiar komplekslərdə, Zabrat qəsəbəsində qadın məhkumlar üçün cəzaçəkmə vətərbiyə müəssiələrində, Umbakı qəsəbəsində yeni həbsxananın tikinti işlərinin aparılmasına da diqqət artırılmasının vacibliyi vurğulanmalıdır. Bu məsələ artıq bir neçə dəfə Ədliyyə Nazirliyi qarşısında qaldırılmışdır.

Cəzaçəkmə müəssisələrində məhkumların əmək fəaliyyəti ilə bağlı bəzi problemlər qalmaqdadır. Müvəkkil hesab edir ki, cəzaçəkmə müəssiələrində məhkumların istehsalata cəlb edilməsi Korporativ Sosial Məsuliyyət aspektində nəzərə alınmalıdır. Bu cür fəaliyyətlə məşğul olan sahibkarlar stimullaşdırılmalıdır. Avropa Penitensiar Qaydalarına görə də, həbs yerlərində əməyə daxili rejimin müsbət elementi kimi baxılmalı və ondan heç vaxt cəza kimi istifadə edilməməlidir. Penitensiar müəssisənin müdiriyyəti faydalı əmək üçün kifayət qədər şərait yaratmağa çalışmalıdır. Məhkumlara təklif olunan işin xarakteri onlara azadlığa çıxdıqdan sonra yaşamaq üçün qazanc əldə etmək qabiliyyətini saxlamağa və yaxşılaşdırmağa imkan yarat-

malıdır. Eyni zamanda, istənilən halda məhkumlar öz əməklərinə görə ədalətli əmək haqqı almalıdırlar.[65]

Müvəkkilin əvvəlki hesabatlarda qeyd etdiyi kimi, keçmiş məhkumların cəmiyyətə adaptasiyası üçün ixtisaslaşmış qurum və proqramların fəaliyyət göstərməsi vacibdir. 2017-ci ildə Dövlət Sosial Müdafiə Fondunun nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin yaradılması bu baxımdan alqışlanmalıdır.[66]

Keçmiş məhkumların işlə təmin olunması zamanı stiqma hallarından qaçmaq önəmlidir. Bəzi hallarda cəmiyyətdə keçmiş məhkumların işlə təmin olunmasına maneələr yaradılır. Belə olan halda onların yenidən cinayət törətməsi təhlükəsi aktuallaşır. Məsələn, Bakı Nəqliyyat Agentliyi 3008 sürücü ilə bağlı araşdırma aparılması üçün DİN, Səhiyyə Nazirliyi və digər qurumlara sorğu göndərib. Sorğu nəticəsində 461 sürücünün məhkumluğunun olduğu müəyyənləşib.[67]

Belə olan halda məhkumluq faktının vurğulanması böyük təəssüf və təəccüb doğurur. Müvəkkil hesab edir ki, belə hallarda törədilmiş cinayətlərin xarakteri nəzərə alına bilər.

Bəzi xarici ölkələrin təcrübəsində penitensiar xidmətin müəssisələrində cəza çəkən məhkumlar üçün xüsusi xarici dil kursları təşkil olunur və bu kursları bitirənlər sertifikatla təmin olunur. Portuqaliyada bu cür keçmiş məhkumların məşğulluq probleminin həlli üçün bu tip kurslar mühüm nəticə verir. Müvəkkil qeyd edilənin təcrübədən istifadə edilməsi variantını nəzərdən keçirməyi təklif edir.

Penitensiar müəssisələr bütün məhkumlara maksimal geniş və onların fərdi ehtiyaclarına cavab verən, tələblərə uyğun olan təhsil proqramlarından istifadə etmək imkanları verməyə çalışmalıdır. Gənc məhkumların, habelə xüsusi ehtiyacı olan məhkumların təhsilinə xüsusi diqqət yetirmək lazımdır.

Məhkumların təhsili: a) onlar azadlığa çıxdıqdan sonra öz təhsillərini və peşə hazırlıqlarını problemsiz davam etdirmələri üçün ümummilli təhsil və peşə hazırlığı sisteminə inteqrasiya olunmalıdır; b) kənarda olan təhsil müəssisələrinin himayəsi altında həyata keçirilməlidir.[68].

Qeyd olunanlarla yanaşı, Səhiyyə Nazirliyinin tabeliyində olan bəzi psixiatriya müəssisələrində təkmilləşdirmə işlərinin görülməsinə ehtiyac vardır. Səhiyyə Nazirliyinin Gəncə və Şəkidə yerləşən Psixiatriya Xəstəxanalarında infrastruktur problemləri ilə yanaşı, müəssisə personalının fəaliy-

---

[65] Avropa Penitensiar Qaydaları, maddə 26
[66] http://www.xezerxeber.az/son_x%C9%99b%C9%99r/178520.html
[67] http://apa.tv/video/45913
[68]Avropa Penitensiar Qaydaları, maddə 28

yətinin də təkmilləşdirilməsi əsas zərurətlərdəndir. BMT-nin "Psixi xəstələrin müdafiəsi və psixiatriya yardımının yaxşılaşdırılması prinsipləri", Ruhi xəstələrin saxlanılma şəraitinə və onlara qarşı rəftara dair Avropa Minimum Standartları, BMT-nin İşgəncələrin qarşısının alınması üzrə Alt komitəsinin (SPT) və İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələrinin psixiatriya müəssisələrində tətbiqinin genişləndirilməsinə ehtiyac vardır. Müvəkkil hesab edir ki, qeyd edilən sənədlərin müddəaları milli qanunvericiliyə implementasiya olunmaqla yanaşı, paralel şəkildə fəaliyyət üçün rəhbər başlanğıc və istiqamət sayılmalıdır.

Təhsil Nazirliyi sistemində də aparılan islahatlar, vətəndaşların təhsil hüquqlarının təmin və realizə edilməsi istiqamətində həyata keçirilən layihə və proqramlar, göstərilən təşəbbüslər, saxlanma şəraitinin yaxşılaşdırılması baxımından təhsil müəssisələrinin əsaslı təmiri və yenidən qurulması, bu müəssisələrin maddi-texniki bazasının yenilənməsi sahəsində davamlı işlər müşahidə olunmaqdadır.

Eyni zamanda Müvəkkil hesab edir ki, qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin yenidən təşkili olduqca zəruridir. Yetkinlik yaşına çatmayanların saxlanılması, təhsili və tərbiyəsi qaydası onların yaşı, habelə psixoloji vəziyyəti və səhhəti nəzərə alınmaqla, həmçinin hüquq pozuntusu törətmiş həmin şəxslərə ünvanlanan fərdi sosial-psixoloji diaqnostika əsasında psixokorreksiya işi üçün şərait təkmilləşdirilməli, sağlamlaşdırıcı tərbiyə tədbirləri sisteminin, ictimai faydalı işlə məşğulluğun, şagirdlərin asudə vaxtı da daxil olmaqla, günün səmərəli bölgüsünün təşkili, şagirdlərin neqativ hallardan maksimum müdafiəsi mütləq təmin edilməlidir.

# BÖLMƏ 4.

# HÜQUQİ MAARİFLƏNDİRMƏ

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun preambulası maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb edir.

Azərbaycan MPM-nin fəaliyyət istiqamətlərindən biri də şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə saxlanılan şəxslər və onlarla işləyən xidmət əməkdaşlarına ünvanlanan hüquqi maarifləndirmə işinin təşkilidir.

2017-cı il ərzində uşaq evləri və internat müəssisələrində, müxtəlif dövlət qurumlarının, hüquq-mühafizə orqanlarının Akademiyalarında, müvəqqəti saxlama yerləri, cəzaçəkmə müəssisələrivə istintaq təcridxanalarında milli və beynəlxalq qanunvericiliyin müddəaları, BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sı, digər beynəlxalq standartların müddəaları əsasında görüşlər, insan hüquqlarına dair seminarlar və treninqlər təşkil olunmuşdur. Milli və beynəlxalq standartlar əsasında planlı və ardıcıl həyata keçirilən treninqlər MPM-in tanınması, fəaliyyətinin dəstəklənməsi ilə yanaşı, şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə çalışan şəxslərin bacarıqlarının artırılması və maarifləndirilmələri, eləcə də bu qəbildən olan tövsiyələrin icrası baxımından mühüm əhəmiyyət kəsb edir.

İstər Bakı şəhərində, istərsə də ölkənin digər şəhər və rayonlarında keçirilən görüş və qəbullar, habelə hüquqi maarifləndirmə tədbirləri zamanı polis orqanlarının, penitensiar xidmətin, miqrasiya orqanlarının, təhsil, sosial xidmət və psixiatriya müəssisələrinin əməkdaşları ilə də maarifləndirmə işi aparılmış, insan hüquq və azadlıqlarının təmin olunmasına xüsusi diqqət yetirilməsinin vacibliyi, ölkəmizdə "İşgəncələrin qarşısının alınması üzrə Milli Preventiv Mexanizm" funksiyalarının icrası məqsədilə təsisat tərəfindən həyata keçirilən fəaliyyət diqqətə çatdırılmışdır.

Qeyd edilənlərlə yanaşı, mövcud sahədə əməkdaşlıq məsələləri müzakirə edilmiş, təsisatın hüquqi nəşrləri, tədris vəsaitləri, qaynar xəttə dair plakatlar təqdim edilmiş, həmin vəsaitlərin öyrənilməsi, treninq və təlimlərdə istifadə olunması, təcrübədə tətbiqi tövsiyə olunmuşdur.

Saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə başçəkmələr çərçivəsində dəhəmin müəssisələrin rəhbərliyi və məsul əməkdaşları ilə hüquqi maarifləndirici söhbətlər aparılmış, milli və beynəlxalq qanunvericilik əsasında saxlanılma şəraitinin, tibbi xidmətin və sənədləş-

mənin aparılması işinin daha da təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması ilə bağlı verilmiş tövsiyələr əsaslandırılmışdır.

Müvəkkil hesab edir ki, "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"nın və onun Fakültativ Protokolunun tələblərinin hüquq mühafizə orqanlarının, digər aidiyyəti qurumların əməkdaşları tərəfindən öyrənilməsi işi davam etdirilməlidir.

Hüquqi maarifləndirmə fəaliyyəti çərçivəsində 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barəd əölkə Prezidentinin Sərəncamının icrası üzrə Müvəkkil tərəfindən ictimai müzakirələr keçirilmişdir. Tədbirdə Milli Məclisin deputatları, məhkəmələrin hakimləri, aidiyyəti dövlət qurumlarının, o cümlədən hüquq-mühafizə orqanlarının, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutlarının, QHT-lərin və KİV-in nümayəndələri iştirak etmiş, sənəddən irəli gələn vəzifələr, birgə əməkdaşlıq, həyata keçirilməli olan işlər müzakirə olunmuşdur.[69]

Müvəkkilin Milli Preventiv Mexanizm mandatı çərçivəsində Sərəncamın tələblərindən irəli gələn vəzifələrin icrasına məsul dövlət orqanları ilə müvafiq istiqamətlər üzrə əməkdaşlıq edilməklə, geniş fəaliyyətin həyata keçirilməsi təmin edilmişdir. Burada qarşıda duran vəzifə Sərəncamın icrası çərçivəsində dövlət qurumları tərəfindən düzgün koordinasiya və yanaşmalar əsasında əməkdaşlığın qurulması ilə yanaşı, həyata keçirilən tədbirlərin icrasında ictimai nəzarətin də təşkili olduqca vacib amillərdən olduğundan, uğurlu islahatlar naminə bütün imkanların bu işə sərf edilməsi olmuşdur.

2017-ci ildədə Ombudsman, UNİCEF, Ədliyyə və Polis Akademiyaları ilə birgə əməkdaşlıqda hüquqi maarifləndirici treninqlər davam etdirilmişdir.Hakimlər, prokurorluq, polis, ədliyyə və yerli icra hakimiyyəti orqanlarının əməkdaşları üçün "Yetkinlik yaşına çatmayanların ədalət mühakiməsi" (Yuvenal Ədliyyə) mövzusunda maarifləndirmə və bacarıqların artırılması məqsədi daşıyan treninqlərdə Ombudsmanın Milli Preventiv Qrupunun rəhbəri də ekspert qismində iştirak etmiş, mövzu üzrə milli qanunvericilik, beynəlxalq standartlar və təcrübə əsasında mühazirələr oxunmuş, geniş müzakirələr və hüquqi maarifləndirmə işi aparılmışdır.

Yuvenal ədliyyə sistemində islahatların qanunla münaqişədə olan uşaqlara təsirinin qiymətləndirməsi vəziyyəti, yerli icra hakimiyyəti orqanları nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaların fəaliyyətinə yeni yanaşmalar, xarici

---

[69] http://xalqqazeti.com/az/news/news/82430

ölkələrin bu sahədə müsbət təcrübəsi, mövcud çətinliklər əsas müzakirə mövzularından olmuşdur.

Müvəkkilin Milli Preventiv Mexanizm qismində fəaliyyəti, ölkədə yuvenal ədliyyə sisteminə, milli qanunvericiliyin və bu sahədə təcrübənin təkmilləşdirilməsinə, ümumilikdə isə hüquqi islahatlara dəstək vermək məqsədilə təşəbbüsləri, həyata keçirdiyi işlər və preventiv tədbirlər, eləcə də bu sahədə mövcud çətinliklər və ehtiyac duyulan tədbirlər haqqında geniş məlumat verilmişdir.

Treninqlərdə ədalətli qərarların qəbulu üçün polis, prokurorluq, məhkəmə və digər səlahiyyətli orqanların məlumatlılığının artırılması, hüquqazidd davranış nümayiş etdirən və saxlanılan yetkinlik yaşına çatmayan şəxslərlə işin təkmilləşdirilməsinə olan ehtiyac, onların sosial adaptasiyası ilə bağlı müzakirələr aparılmışdır.

Mövzu üzrə milli və beynəlxalq təcrübə, normativ-hüquqi aktlar, BMT-nin Uşaq Hüquqları Konvensiyası, Pekin qaydaları və Ər-Riyad təlimatları əsasında həyata keçirilməli olan preventiv tədbirlər haqqında məlumatlar verilmiş, Azərbaycan Respublikasının Prezidentinin 10 fevral 2017-ci il tarixli müvafiq Sərəncamının əhəmiyyəti vurğulamış, cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş yetkinlik yaşına çatmayan şəxslərin də azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində mövcud təcrübəyə toxunmuş və mövzular canlı diskussiya şəraitində geniş müzakirə edilmişdir.

Qeyd olunmalıdır ki, Sərəncamın effektiv tətbiqi yetkinlik yaşına çatmayanlara da münasibətdə ölkədə Yuvenal Ədliyyə islahatlarına da öz töhfəsini verəcəkdir. Fəaliyyət prosesində Yuvenal Ədliyyə prinsiplərinin nəzərə alınması, BMT-nin Uşaq Hüquqları Komitəsi, İşgəncələrin qarşısının alınması üzrə Alt Komitəsi və digər beynəlxalq təşkilatlar tərəfindən ölkəyə verilmiş bir sıra tövsiyələrin icrası baxımından da mühüm əhəmiyyət daşıyır. Bu kimi hüquqi maarifləndirmə tədbirləri Müvəkkilin təşəbbüsü ilə, YUNİSEF-lə əməkdaşlıqda MPQ üzvlərinin və Müvəkkilin regional mərkəzlərinin əməkdaşları tərəfindən respublikanın regionlarında da davam etdirilməklə yanaşı, uşaq hüquqları sahəsində fəaliyyət göstərən məhkəmə, polis, təhsil, səhiyyə, yerli icra hakimiyyəti orqanlarının əməkdaşlarını geniş şəkildə əhatə etməklə uşaq hüquqlarının etibarlı müdafiəsi və təmini işinə öz töhfəsini vermişdir.

İnsan Hüquqları üzrə Müvəkkilinin təşəbbüsü ilə ölkəmizdə ənənəvi olaraq 20 oktyabr - 20 noyabr tarixlərində Uşaq Hüquqları Aylığı keçirilmişdir. Bu aylıq çərçivəsində Bakıda və rayonlarda, o cümlədən Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələrində maarifləndirmə tədbirləri təşkil

ediləərək çoxsaylı yetkinlik yaşına çatmayan şəxslər hüquqi maarifləndirmə tədbirlərinə cəlb olunmuşlar.

Tədbirlər canlı diskussiya şəraitində davam etmiş, uşaqların çoxsaylı sualları, xüsusilə də ölkə Prezidentinin müvafiq Sərəncamı əsasında həyata keçirilən hüquqi islahatlar çərçivəsində cinayət qanunvericiliyinə edilmiş yeni dəyişikliklərlə bağlı sualları ətraflı cavablandırılmış, onlara hüquqları və Müvəkkilin səlahiyyətləri izah edilmiş, qaldırdıqları məsələlər üzrə hüquqi məsləhətlər verilmişdir.

Sonda həmin müəssisələrə Ombudsmanın uşaq hüquqlarına dair hüquqi maarifləndirici nəşrləri və uşaq hüquqlarının və Müvəkkilin qaynar xətt nömrələrinin təsvir olunduğu plakatlar təqdim olunmuşdur.

Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası ilə hüquqi maarifləndirmə, habelə müxtəlif istiqamətlər üzrə qulluğa qəbul olunmuş şəxslərin bilik və bacarıqlarının artırılması istiqamətində səmərəli əməkdaşlıq əlaqələri davam etdirilmişdir. Tədris müəssisəsinin tədris kurslarının proqramına Azərbaycan MPM-nin fəaliyyəti ilə bağlı mövzular da daxil edilmişdir.

Müvəkkil və onun MPQ-nun rəhbəri tərəfindən Hakimliyə namizədlərə, Ədliyyə Nazirliyinə, Penitensiar Xidmətə, Məhkəmə Ekspertizası Mərkəzinə və Tibb baş idarəsinə ilk dəfə qulluğa qəbul olunmuş müdavimlərə "Ombudsmanın insan hüquqlarının müdafiəsi və Milli Preventiv Mexanizm qismində fəaliyyəti" mövzusunda mühazirələr oxunmuşdur.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Ombudsmanının MPM funksiyalarını yerinə yetirən təsisat qismində fəaliyyəti, ölkədə şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə müntəzəm keçirilən başçəkmələr, müəyyən edilmiş çatışmazlıqlar, onların aradan qaldırılması ilə bağlı verilmiş tövsiyələr və onların icrası vəziyyətinə dair məlumatlar, habelə rəftar və saxlama şəraiti ilə bağlı uğurlu yanaşma nümunələri milli və xarici ölkə, habelə SPT, CPT, APT və digər təsisatların, beynəlxalq təşkilatların təcrübəsindən misallar gətirməklə dinləyicilər məlumatlandırılmışlar.

Mühazirələr əsasında BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının sənədi olan, pis rəftar növlərinin və cəzaların tətbiqinin effektiv tədqiq edilməsi ilə bağlı "İstanbul Protokolu", SPT tövsiyələri və CPT-nin ümumi məruzələrində yer almış standartları, habelə əlaqəli şəkildə milli qanunvericilik aktları da tədris olunmuşdur.[70]

Qeyd olunanlarla yanaşı Müvəkkilin MPM qismində fəaliyyəti çərçivəsində MPQ-nin üzvlərinin də bacarıqlarının artırılmasına diqqət yetiril-

---

[70]http://ombudsman.gov.az/az/view/news/811/ombudsman-elmira-suleymanova-edliyye-akademiyasindahakimliye-namizedler-uchun-muhazire-oxumushdur

mişdir. Belə ki,Müvəkkil Avropa İttifaqının Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində Almaniya, Yunanıstan, Portuqaliya, Polşa dövlətlərinin partnyorluğunda Tvinninq layihəsidavam etdirilmişvə başa çatdırılmışdır.

“Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) imkanlarının gücləndirilməsinə dəstək” adlı Tvinninq layihəsi 4 komponenti (Ombudsman institutunun İşgəncələrə qarşı mübarizə üzrə Milli Preventiv Mexanizm kimi fəaliyyətinin gücləndirilməsi, idarəetmə informasiya sisteminin, uşaq hüquqlarının, əlilliyi olan şəxslərin hüquqlarının və ahılların hüquqlarının müdafisi sahəsində Ombudsmanın fəaliyyətinin təkmilləşdirilməsi, İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qunununun implementasiyası sahəsində Ombudsman İnstitutunun imkanlarının gücləndirilməsi, Ombudsmanın mərkəzi aparatı və regional mərkəzinin əməkdaşları üçün səmərəli idarəetmə üzrə təlimlərin keçirilməsi) əhatə etməklə yanaşı, xarici ekspertlərin iştirakı ilə keçirilən treninqlərdə aparat əməkdaşları və MPQ üzvlərinin iştirakı geniş tərkibdə təmin edilmişdir.

MPM şəbəkələrinin tanınmış ekspertlərinin iştirakı ilə keçirilən treninqlər, görüşlər, təcrübə mübadilələri Azərbaycan MPM-nin potensial imkanlarını daha da gücləndirmiş, Qrup üzvlərinin nəzəri biliklərinin və təcrübi bacarıqlarının artırılmasına xidmət etmişdir.Fəaliyyət çərçivəsində MPQ-nin yeni üzvlərinin, habelə bu sahədə əməkdaşlıq edilən ekspertlərin, vətəndaş cəmiyyəti üzvlərinin təcrübi bilik və bacarıqlarının artırılmasına davamlı olaraq diqqət yetirilmişdir.

## BÖLMƏ 5.

## İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

2017-ci ildə Müvəkkil MPM fəaliyyəti çərçivəsində ictimaiyyətlə, yerli, regional və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrini davam etdirmişdir.

Dövlət orqanları, vətəndaş cəmiyyəti institutları, o cümlədən QHT-lər, habelə KİV, regional və beynəlxalq təşkilatlarla, xarici ölkə MPM-ləri ilə informasiya və təcrübə mübadiləsinin aparılması, keçirilən tədbirlərdə qarşılıqlı iştirakın təmin olunması, eləcə də birgə tədbirlərin təşkili bu istiqamətdə fəaliyyəti inkişaf etdirmişdir.

Azərbaycan MPM-in fəaliyyəti barədə həm ölkə ictimaiyyəti, həm də beynəlxalq ictimaiyyət mütəmadi olaraq məlumatlandırılmışdır.

Bu baxımdan 2017-ci ildə KİV-də başçəkmələrlə əlaqədar 67, hüquqi maarifləndirmə və digər tədbirlərlə əlaqədar 25 olmaqla, 92 mətbuat açıqlaması yayımlanmışdır.

Ümumilikdə 2009-2017-ci illər ərzində Azərbaycan MPM-nin fəaliyyəti ilə bağlı 880 mətbuat açıqlaması yayımlanmışdır.

Press-relizlər, həmçinin MPM-in fəaliyyətinə dair hesabatlar, MPQ-nin tərkibi barədə məlumat, habelə müvafiq normativ-hüquqi aktlar Müvəkkilin rəsmi internet saytında yaradılmış xüsusi bölmədə Azərbaycan və İngilis dillərində yerləşdirilmişdir. Hesabatlar Müvəkkilin rəsmi internet səhifəsində yerləşdirilməklə yanaşı, aidiyyəti dövlət qurumlarına və beynəlxalq təşkilatlara da göndərilmişdir.

Eyni zamanda Müvəkkilin ünvanına, o cümlədən 24 saat fəaliyyət göstərən “Qaynar xətti”nə daxil olmuş müraciətlər və digər məlumatlar, vəkil və hüquq müdafiəçilərindən, QHT və kütləvi informasiya vasitələrindən alınmış, internet saytlarından götürülmüş informasiyalar bilavasitə yerində, yaxud bu və ya digər dövlət orqanına yoxlama tapşırığı verilməsi yolu ilə araşdırılması zamanı əldə edilmiş faktlar, toplanmış məlumat və materiallar, habelə şikayətlərin aidiyyət və kəmiyyət göstəriciləri həyata keçirilən başçəkmələr zamanı istifadə olunmuşdur.

Müvəkkilin nümayəndələri KİV-lərdə mütəmadi adları çəkilən, həbsdə saxlanılan və ya təqib olunan şəxslərlə də görüşmüşlər. Aparılmış araşdırmalar barədə press-relizlər KİV-ə göndərilmiş, Müvəkkilin rəsmi internet saytında yerləşdirilmişdir.

2017-cı ildə Azərbaycan MPM-nin işgəncələrin qarşısının alınması sahəsində dövlət orqanları, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları

ilə yanaşı, KİV-lə də səmərəli əməkdaşlıq əlaqələri daha da inkişaf etdirilmişdir.

Müvəkkil fəaliyyətinin ilk illərindən vətəndaş cəmiyyəti institutları ilə sıx əməkdaşlıq edir. Ölkə təcrübəsində də yenilik Müvəkkilin təşəbbüsü ilə hələ fəaliyyətinin ilk illərində təsisat yanında çoxsaylı vətəndaş cəmiyyəti institutlarını özündə birləşdirən “Ekspertlər şurası” yaradılmış və bu günədək fəaliyyət göstərməkdərir. Əvvəlki bəndlərdə qeyd olunduğu kimi, MPM-in fəaliyyəti çərçivəsində keçirilən başçəkmə və hüquqi maarifləndirmə tədbirlərində, habelə müvafiq dövlət qurumlarının iştirakı ilə keçirilən tədbirlərdə, qanunvericiliklə bağlı müzakirələrdə, müvafiq hesabatların hazırlanması prosesində vətəndaş cəmiyyətinin üzvlərinin cəlb olunması və ekspertlərin iştirakı mütəmadi olaraq təmin olunur.

Bu fəaliyyət çərçivəsində vətəndaş cəmiyyəti üzvlərindən ibarət tərkibdə Ədliyyə Nazirliyi yanında yaradılmış İctimai Komitə ilə də sıx əməkdaşlıq edilir. Ekspert qismində cəlb olunmuş Komitə üzvləri MPM-in işində yaxından iştirak edir.

Müvəkkilin MPQ-nun rəhbəri Azərbaycan Respublikası Ədliyyə Nazirliyi yanında İctimai Komitənin Seçkisi Komissiyasının üzvü kimi qeyd edilən dövr ərzində keçirilən müvafiq tədbirlərin iştirakçısı olmuşdur.

***Beynəlxalq əməkdaşlıq.*** 2017-cı il ərzində beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsi, aparılan təcrübə və fikir mübadilələri Azəbaycan MPM-nin fəaliyyətinin effektiv həyata keçirilməsinə geniş imkanlar açmışdır.

Müvəkkil MPM qismində BMT və onun müqavilə qurumları, o cümlədən SPT, habelə Avropa Şurası, CPT, Avropa İttifaqı, ATƏT, İşgəncələrin Qarşısının alınması üzrə Assosiasiya (APT) və digər beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin MPM-ləri ilə sıx əməkdaşlıq edir, təcrübə mübadiləsi aparır. Müvəkkilin MPM qismində beynəlxalq əlaqələrinin həyata keçirilməsi istiqamətləri kimi işgəncələrin qarşısının alınması sahəsində müxtəlif səmərəli görüşlərin təşkili, birgə tədbirlərin həyata keçirilməsi, Müvəkkil və MPQ-nin üzvlərinin beynəlxalq tədbirlərdə iştirakı və qarşılıqlı təcrübə mübadilələrini göstərmək olar.

BMT qurumları ilə əməkdaşlıqda MPQ-nin fəaliyyətinin təkmilləşdirilməsi və müxtəlif treninqləri, yuxarıda qeyd olunduğu kimi, Avropa İttifaqının dəstəyi ilə Almaniya və Polşa dövlətlərinin partnyorluğunda həyata keçirilən Tvinninq proqramı çərçivəsində Azərbaycan MPM-nin fəaliyyətinin təkmilləşdirilməsi və MPQ üzvlərinin bacarıqlarının artırılması sahəsində fəaliyyət, CPT, APT, MPM şəbəkələrinin tanınmış ekspertlərinin iştirakı ilə görüşlər, təcrübə mübadilələri bu qəbildəndir.

MPM-nin fəaliyyəti çərçivəsində Müvəkkil 2017-ci ildə ölkəmizə səfəri çərçivəsində İşgəncələrin Qarşısının Alınması üzrə Avropa Komitəsinin

(CPT) prezidenti Mikola Gnatovskinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.[71]

Sistemli fəaliyyətin təşkili məqsədilə təsisatda müvafiq struktur bölmənin, həmçinin Milli Preventiv Qrupun yaradılması, qrup tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlərə müntəzəm olaraq planlı və plandan kənar həyata keçirilən başçəkmələrlə bağlı məlumatlar qonaqların diqqətinə çatdırılmışdır.

Qeyd edilmişdir ki, başçəkmələr zamanı saxlanılan şəxslər konfidensial şəkildə qəbul edilir, onların müraciətləri qəbul olunur, müəssisə rəhbərliyinə müvafiq tövsiyələr verilir, bundan başqa hər bir başçəkmədən sonra müvafiq qurumlara müraciət edilir, tövsiyələr verilir, keçirilən başçakəmələrin nəticələri təhlil edilərək hesabat şəklində dərc edilir.

Əlavə edilmişdir ki, ilk Tvinninq layihələri çərçivəsində Ombudsmanın MPM kimi fəaliyyətinin inkişaf etdirilməsi xüsusi bir komponent kimi nəzərdə tutulmuş və MPM-in Nizamnamə və təlimatlarının hazırlanması prosesində CPT nümayəndələri də ekspert qismində iştirak etmişdir.

Qonaqların Ombudsmanın MPM mandatı, Milli Preventiv Qrupun fəaliyyəti, tərkibi, başçəkmələrin formatı və digər məsələlərlə bağlı sualları ətraflı cavablandırılmışdır.

CPT prezidenti Mikola Gnatovski Müvəkkilə ətraflı məlumat üçün təşəkkür etmiş, aparılan səmimi fikir mübadiləsini, MPM-in fəaliyyətini qiymətləndirmiş, Ombudsman təsisatı ilə CPT arasında əməkdaşlığın önəmini vurğulamışdır.

Xarici ölkələrin diplomatik korpuslarının rəsmi şəxsləri də Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili tərəfindən qəbul edilmiş və onların Azərbaycan MPM-nin fəaliyyəti ilə bağlı sualları cavablandırılmışdır.

Amerika Birləşmiş Ştatlarının səfiri ilə görüşən MüvəkkilAzərbaycanda səmərəli hüquq mexanizmi kimi fəaliyyət göstərən Ombudsman təsisatının insan hüquqları sahəsində dövlət qurumları və vətəndaş cəmiyyəti, QHT-lər və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu diqqətə çatdırmışdır.[72]

Ölkə Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş və hazırda uğurla həyata keçirilən Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının böyük imkanlar açdığı, bu sənədin icrası ilə bağlı respublikanın hər bir şəhər və rayonunda Ombudsman tərəfindən ictimai dinləmələrin keçirildiyi diqqətə çatdırılmışdır. Yerli icra hakimiyyəti

---

[71] http://sia.az/az/news/social/643031.html

[72] https://www.amerikaninsesi.org/a/insan-huquqlari/3921699.html

və hüquq-mühafizə orqanlarının, bələdiyyələrin, qeyri-hökumət təşkilatlarının, yerli icmaların, geniş ictimaiyyətin və KİV nümayəndələrinin iştirakı ilə həmin tədbirlər çərçivəsində Müvəkkil tərəfindən şikayətçilər təkbətək qəbul edilmiş, qaldırdıqları məsələlərin həlli istiqamətində tədbirlər görülmüş, həmçinin bütün polis idarələrinə başçəkmələr həyata keçirilmişdir.

Milli Preventiv Mexanizm qismində saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədikləri yerlərə, o cümlədən penitensiar müəssisələrə, müvəqqəti saxlama təcridxanalarına, habelə sosial obyektlərə, ahıllar və əlillər üçün internat evləri və pansionatlara, psixiatriya xəstəxanalarına müntəzəm olaraq başçəkmələr həyata keçirdiyini, hər bir başçəkmədən dərhal sonra bununla bağlı mətbuata açıqlanma verildiyini, həmçinin müvafiq qurumlara müraciətlər edildiyi qeyd olunmuşdur.

Penitensiar müəssisələrdəki vəziyyət, saxlanılan şəxslərin hüquqlarının, o cümlədən sağlamlıq hüquqlarının təmini, qəbul olunan şəxslər və onların müraciətlərinin effektiv təmini istiqamətində görülən işlər, milli və beynəlxalq standartlar əsasında verilmiş tövsiyələr və onların icrası vəziyyəti və yaradılmış səmərəli əməkdaşlıq əlaqələri barədə suallar cavablandırılmışdır.

2017-ci ildə Fransanın Strasburq şəhərində Avropa Şurası və ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Ofisinin birgə təşkilatçılığı ilə Avropa və digər regionlarda fəaliyyət göstərən Milli Preventiv Mexanizmlərin əlaqələndiricilərinin məsləhətləşmə görüşü keçirilmişdir.

30 may – 1 iyun tarixlərini əhatə edən tədbirdə Avropa Şurasının, ATƏT-in, BMT-nin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və ya cəzaların qarşısının alınması üzrə Alt Komitəsinin (SPT), Avropa Şurasının İşgəncənin və qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Komitəsinin (CPT), İşgəncələrin qarşısının alınması üzrə Assosiasiyanın (APT), Milli İnsan Hüquqları Təsisatlarının Qlobal Alyansının (GANHRI), Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin (ENNHRI) nümayəndələrinin, müstəqil ekspertlərin təqdimatları dinlənilmiş, sessiyalarda mövzular üzrə fikir mübadilələri aparılmışdır.[73]

Çoxsaylı Milli İnsan Hüquqları Təsisatlarının nümayəndələrinin, Milli Preventiv Mexanizm mandatına malik təsisatların, MPM mandatının formalaşdırılmasına namizəd ölkələrin nümayəndələrinin qatıldığı tədbirdə, gündəlikdə olan ilk məsələ yeni sənəd olan “Miqrantlarla bağlı Avropa qaydaların”ın layihəsinin müzakirəsi olmuşdur. Sənəd layihəsi MPM nümayəndələrinin, beynəlxalq təşkilatların iştirakı ilə verilmiş təklif və tövsiyələr

---

[73]http://www.ombudsman.gov.az/az/view/news/707/ombudsmanin-numayendesi-avropa-shurasinda-kechirilmish-tedbirde-ishtirak-etmishdir

əsasında təkmilləşdirilmiş, Azərbaycan MPM-nin də təklifləri sənəddə yer almış və yeni qaydalar Avropa Şurası çərçivəsində növbəti mərhələyə tövsiyə edilmişdir. Təbirdə Azərbaycan Ombudsmanını Milli Preventiv Qrupun rəhbəri təmsil etmişdir.

Tədbirdə Ombudsmanın nümayəndəsi tərəfindən sənədin bölmələri üzrə fikirlər səsləndirilmiş, həbs edilmiş şəxslər, eləcə də miqrantlarla bağlı beynəlxalq standartların milli qanunvericiliyə implementasiyası sahəsində ölkəmizdə həyata keçirilən islahatlar, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, Ombudsmanın MPM qismində bu proseslərdə fəal iştirakı və həyata keçirdiyi fəaliyyət, verdiyi təkliflər, əvvəlcədən xəbərdarlıq etmədən şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə keçirilən başçəkmələr, ölkədə formalaşmış müsbət təcrübə, beynəlxalq təşkilatlarla birgə həyata keçirilən layihələr, eləcə də fəaliyyətin təkmilləşdirilməsi məqsədilə həyata keçirilən işlər barədə geniş məlumat vermişdir.

Növbəti müzakirə mövzusu isə, Milli Preventiv Mexanizm mandatına malik təsisatların, Milli İnsan Hüquqları İnstitutlarının birgə əməkdaşlıq istiqamətləri, mövcud çətinliklər, gələcək hədəflərlə bağlı olmuş və proqrama uyğun olaraq mövzular üzrə keçirilən sessiyalar və görüşlər canlı diskussiya və fikir mübadiləsi şəraitində davam etmişdir.

Səfər çərçivəsində Ombudsmanın nəşrləri, illik məruzəsi, Müvəkkilin İşgəncələr əleyhinə Milli Preventiv Mexanizm qismində fəaliyyətinə dair hesabatlarının nüsxələri Avropa Şurasının Ofisinə təqdim olunmuşdur.

Müvəkkilin Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində ölkəmizdə səfərdə olan Avropa Şurasının nümayəndələri Ivan Koedjikov, Ildiko Nemeth-Salacz və qurumun Bakı Ofisinin rəhbər müavini Joel Mermet qəbul edilmişdir.

Görüşdə insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlar və Ombudsmanın fəaliyyəti haqqında geniş məlumat verilmiş, Avropa Şurası ilə insan hüquqları sahəsində qurulmuş səmərəli əməkdaşlıq əlaqələrindən, həyata keçirilən birgə layihələrdən danışılmışdır.

İnsan hüquqlarının səmərəli müdafiəsi məqsədilə dövlət qurumları, QHT-lər, vətəndaş cəmiyyəti, KİV və icmalarla əməkdaşlıq əlaqələrinin qurulduğu, Müvəkkilin regional mərkəzlərinin yaradıldığı, şikayətlərə dərhal reaksiya verilməsi məqsədilə qaynar xətlərin mövcud olduğu, habelə müxtəlif sahələr üzrə ixtisaslaşmış müşavirlərin fəaliyyət göstərdiyi diqqətə çatdırılmışdır.

Avropa Şurasının ölkə üzrə 2014-2016-cı illər üzrə Fəaliyyət Planının bir komponenti olaraq, ötən ilin sonundan icrasına başlanılmış "Azərbaycanda penitensiar xidmətin islahatlarına dəstək" adlı layihəyə Ombudsman da tərəfdaş qurum olaraq cəlb olunduğu, layihə üzrə əlaqələndirici qismində Müvəkkilin nümayəndəsi təmsil olunmaqla "Penitensiar sistemdə idarəet-

mənin inkişafı və tibbi xidmətin professionallığının artırılması istiqamətində işlər aparıldığı vurğulanmışdır.

BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolunun icrasının təmin edilməsi ilə bağlı ölkə Prezidentinin müvafiq Sərəncamı ilə Ombudsmanın Milli Preventiv Mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində müəyyən olunması, bunun məntiqi davamı olaraq təsisatda müvafiq şöbənin və Milli Preventiv Qrupun yaradılması, MPQ tərəfindən saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, penitensiar müəssisələrə, müvəqqəti saxlama yerləri və istintaq təcridxanalarına, miqrantların saxlama yerlərinə, habelə sosial obyektlərə, ahıllar və əlilliyi olan şəxslər üçün internat evləri və pansionatlara, psixiatriya xəstəxanalarına keçirilmiş başçəkmələr, verilmiş tövsiyələr və onların icrası vəziyyəti haqqında haqqında qonaqlara sualları əsasında geniş məlumat verilmişdir.

Ombudsmanın insan hüquqlarının təmini baxımından bir çox istiqamətlərdə təklif və tövsiyələrinin icrası, habelə korrupsiya ilə mübarizə sahəsində fəaliyyəti, müvafiq sahə üzrə ixtisaslaşmış müşavir təyin etməsi, həmin şəxsin Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın yanında fəaliyyət göstərən qanunvericilik üzrə işçi qrupuna üzvü kimi bir sıra normativ hüquqi aktların, dövlət proqramlarının milli fəaliyyət planlarının hazırlanması prosesində yaxından iştirak etməsi və bu istiqamətdə həyata keçirilən hüquqi maarifləndirmə haqqında qonaqlara geniş məlumat verilmişdir.

MPM fəaliyyəti çərçivəsində UNICEF-in məsləhətçisi Sara Kameron Makbi ilə görüş keçirilmişdir. Təsisatda uşaq hüquqlarının müdafiəsi üzrə fəaliyyət, o cümlədən uşaqlarla bağlı şikayətlərin araşdırılması, sözügedən sahə üzrə maarifləndirmə, milli qanunvericiliyin təkmilləşdirilməsi, yetkinlik yaşına çatmayan şəxslərin yaşadıqları və saxlanıldıqları müəssisələrə baxışların keçirilməsi və beynəlxalq əməkdaşlıq haqqında qonağa geniş məlumat verilmişdir.

Ombudsmanın təşəbbüsü ilə UNICEF-lə birgə "Uşaqların cismani cəzadan müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin hazırlanaraq Milli Məclisə təqdim olunduğu və bu istiqamətdə Müvəkkilin lobbiçilik fəaliyyətinin davam etdirildiyi, uşaq hüquqlarının müdafiəsi və təşviqi, uşaq hüquqları mərkəzlərinin yaradılması ilə bağlı təklifləri də qonağın nəzərinə çatdırılmışdır.

Müvəkkilin uşaqlara qarşı zorakılıqla mübarizə sahəsində, o cümlədən MPM qismində fəaliyyətlə bağlı UNICEF ilə əməkdaşlığı ölkədə hüquqi islahatlara dəstək məqsədilə həyata keçirdiyi işlər, preventiv tədbirlər, milli qanunvericiliyin və bu sahədə təcrübənin təkmilləşdirilməsi məqsədilə müvafiq qurumlara təqdim edilən təklif və tövsiyələr haqqında geniş məlumat verilmişdir.

Yerli icra hakimiyyəti orqanları nəzdində fəaliyyət göstərən Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaların fəaliyyəti, mövcud çətinliklər də görüşdə müzakirə olunmuşdur.

MPM fəaliyyəti çərçivəsində növbəti görüş ölkəmizdə səfərdə olan Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin Azərbaycan üzrə həmməruzəçisi Sezar Florin Preda ilə olmuşdur.

Qonağın sualları əsasında saxlanılan şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi yerlərə, o cümlədən penitensiar müəssisələrdə həyata keçirilən başçəkmələr, milli və beynəlxalq standartlar əsasında verilmiş tövsiyələr və onların icrası vəziyyəti, qəbul olunan şəxslər və onların müraciətlərinin effektiv təmini istiqamətində görülən işlər, və yaradılmış səmərəli əməkdaşlıq əlaqələri barədə geniş məlumat verilmişdir.

Müvəkkil tərəfindən dövlət qurumlarına insan hüquqlarının effektiv təmini baxımından verilmiş çoxsaylı təkliflər əsasında şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrdə həyata keçirilən islahatlar, həm rəftar məsələləri, həm saxlanılma şəratinin təkmilləşdirilməsi, müraciətlərin effektiv təmini, habelə qanunvericiliyin təkmilləşdirilməsinə verilmiş töhfələr qonağın diqqətinə çatdırılmışdır.

Beynəlxalq əməkdaşlıq çərçivəsində 2017-ci ildə də MPQ-un üzvləri Avropa İttifaqının Tvinninq layihəsi çərçivəsində təcrübə mübadiləsində iştirak etmiş və növbəti səfər layihə tərəfdaşı Portuqaliyaya olmuşdur. [74]

Təcrübə səfərinin ilk günündə Portuqaliya Ombudsmanı və əməkdaşları ilə rəsmi görüş keçirilmiş, hər iki ölkənin müvafiq təsisatlarının insan hüquqlarının təmini və müdafiəsi sahəsində həyata keçirdiyi fəaliyyət, müsbət iş təcrübəsi və gələcək əməkdaşlıq perspektivləri müzakirə olunmuş, səmərəli fikir mübadiləsi aparılmışdır.

Portuqaliya Ombudsmanı azərbaycanlı həmkarının fəaliyyəti ilə yaxından tanış olduğunu və onun insan hüquqları sahəsində gördüyü işləri və səmərəli beynəlxalq əməkdaşlığını yüksək dəyərləndirmişdir.

Görüşdə Azərbaycan həqiqətləri və zəngin mədəniyyəti barədə məlumatların əks olunduğu disklər və ədəbiyyat, Müvəkkilin illik məruzələri və Aparatda hazırlanmış hüquqi nəşrlər Portuqaliya Ombudsman təsisatına təqdim edilib.

Səfər çərçivəsində Miqrantların İnteqrasiyası üçün Milli Mərkəzin fəaliyyəti ilə yerində tanışlıqlıq olmuş, Portuqaliyada miqrantların qəbulu və cəmiyyətə inteqrasiyası üzrə görülən tədbirlər və MPM mandatı öyrənilmişdir.

---

[74] https://azertag.az/xeber/Ombudsman_Aparatinin_emekdaslari_Portuqaliyada_seferde_olublar-1105487

Azərbaycan MPM-nin əməkdaşları Lissabon Həbsxanasına da səfər etmiş, müəssisədəki vəziyyətlə tanış olmuş, müəssisə rəhbərliyi və əməkdaşları, habelə məhkumlarla söhbətlər aparılmış, məhkumların hüquqlarının müdafiəsi baxımından təcrübə mübadiləsi aparılmışdır.

Azərbaycan Ombudsmanının Milli Preventiv Mexanizm qismində fəaliyyəti çərçivəsində bu qəbildən olan müəssisələrə keçirilən başçəkmələri, diqqət yetirilən məsələlərlə bağlı verilmiş məlumatlar müəssisə əməkdaşları tərəfindən maraqla qarşılanıb.

Səfər çərçivəsində saxlanılan şəxslərə ünvanlanan çoxsaylı sosial proqramlar, müxtəlif əhali qruplarına, o cümlədən ahıllara, əlilliyi olan şəxslərə, miqrantlara ünvanlanan sosial dəstək proqramları, bir çox sahələr üzrə müsbət təcrübələrlə tanışlıq olmuşdur.

Qeyd olunmalıdır ki, MPM-in beynəlxalq əməkdaşlığı baxımından Portuqaliyaya səfər qarşılıqlı əməkdaşlıq, müzakirələr və təcrübə mübadiləsi baxımından səmərəli olmuşdur.

## BÖLMƏ 6.

## TƏKLİF VƏ TÖVSİYƏLƏR

Müvəkkilin Milli Preventiv Mexanizm fəaliyyəti çərçivəsində BMT-nin "İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiya"sının Fakültativ Protokolu və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununun tələbləri əsasında həyata keçirilmiş işlər, bir çox təklif və tövsiyələrin irəli sürülməsi hüquq-mühafizə, cəzaları icra edən orqanların, digər dövlət qurumlarının və vəzifəli şəxslərin insan hüquqlarının mahiyyətinə və təmin olunmasına münasibəti müsbətə doğru dəyişmiş, hüquq düşüncəsi yeni məzmunda formalaşmış, idarəetmənin təkmilləşdirilməsi istiqamətində addımlar atılmışdır.

Müvəkkil bu istiqamətdə də öz fəaliyyətini "Paris prinsiplərinə" uyğun aşağıdakı şəkildə qurur:

- milli qanunvericilik aktlarının və praktikanın dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq sənədlərə uyğunlaşdırılması və həyata keçirilməsini təşviq edir;
- dövlətin beynəlxalq sənədlərə qoşulmasını və beynəlxalq normaların milli qanunvericiliyə implementasiyasını, eləcə də müvafiq tədbirlərin görülməsini təşviq edir;
- dövlətin beynəlxalq konvensiyalar üzrə həyata keçirdiyi fəaliyyətlə bağlı BMT qurumlarına, regional təsisatlara təqdim etməli olduğu məruzələrin hazırlanmasına yardım göstərir, müstəqillik prinsipinə uyğun olaraq bu hesabat barədə öz rəyini ifadə edir, habelə əlavə hesabatını təqdim edir.

Bu baxımdan Müvəkkilin MPM qismində fəaliyyətinə dair əvvəlki hesabatlarında təqdim etdiyi təklif və tövsiyələrin yarıdan çoxu öz həllini tapmış və ya icraya yönəldilmişdir. Təqdim olunan bu hesabatda da, əvvəlki təkliflər sırasında öz əksini tapmış, lakin hələ də həllini gözləyən, o cümlədən fəaliyyət prosesində ortaya çıxan yeni təklif və tövsiyələr yer almışdır.

Müvəkkil MPM qismində 2017-ci ildə həyata keçirdiyi fəaliyyətin nəticələrinin təhlili, saxlanılan şəxlərin hüquqlarının effektiv təmini məqsədilə aşağıdakıları təklif edir.

### Normativ hüquqi aktlarla bağlı

1. Dövlət Sosial Müdafiə Fondu nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin Nizamnaməsinin və Sosial Xidmət Müəssisələrinin Əsasnamələrinin təsdiq edilməsi ***(Nazirlər Kabineti);***

2. Yeni redaksiyada “Cəzaçəkmə müəssisələrinin Daxili İntizam Qaydalarının və “İnzibati həbs olunanların saxlanılma məntəqələri haqqında” müvəqqəti Əsasnamənin təsdiq edilməsi ***(Nazirlər Kabineti);***

3. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırılması məqsədilə Probasiya Xidmətini və bu fəaliyyəti “Probasiya” və ya “Probasiya Xidməti” haqqında Azərbaycan Respublikası Qanunun qəbul edilməsi ***(Milli Məclis);***

4. “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa həbs olunmuş şəxslərin saxlandıqları müəssisənin hüdudlarından kənara ölkə daxilində qısa müddətli səfərlərəburaxılması (onların yaxın qohumlarının ölümü və ya həyatı üçün təhlükə yaradan ağır xəstəliyi ilə əlaqədar və s.) ilə bağlı normanın daxil edilməsi ***(Milli Məclis);***

5. Keçmiş məhkumları əmək fəaliyyətinə qəbul edən işəgötürənlərin stimullaşdırılması və onlara vergi güzəştləri ilə bağlı qanunvericiliyə müvafiq normaların daxil edilməsi ***(Milli Məclis);***

6. Azadlıqdan məhrum etmə cəzasının yetkinlik yaşına çatmayanlara münasibətdə 8 ildən çox olmayan müddətə təyin edilməsi ilə bağlı Cinayət Məcəlləsində dəyişiklik edilməsi ***(Milli Məclis);***

7. “Silahlı Qüvvələrin qarnizon və qarovul xidmətləri Nizamnaməsi”nin 4 saylı əlavəsinin 17 və 21-ci bəndlərinin beynəlxalq normalara uyğunlaşdırılması ***(Milli Məclis);***

8. Cinayətkarlığın qarşısının alınması məqsədilə həyata keçirilən preventiv tədbirlər prosesinə sosial işçilərin, psixoloqların hazırlananaraq cəlb olunması ***(Baş Prokurorluq);***

9. Sosial xidmət müəssisələrinin, xüsusilə də yeni formalaşadırılan, reabilitasiya və sosial sığınacaq məqsədli müəssisələrin, eləcə də uşaq evlərinin lazımi kadrlarla (sosial işçi, psixoloq, loqoped və s.) təmini və əmək haqlarının artırılması ***(Milli Məclis, Nazirlər Kabineti).***

## Daxili İşlər Nazirliyinə tövsiyələr

1. Polis Uşaq Otaqlarının fəaliyyətinin təşkili haqqında Qaydaların təsdiq edilməsi;

2. MSY-də saxlanılan və barələrində həbs qətimkan tədbiri seçilmiş şəxslərin qanunvericiliyin tələblərinə uyğun olaraq 24 saat ərzində İT-yə göndərilməsi, tibb işçilərinin cəlb olunması işinə nəzarətin gücləndirilməsi;

3. Polis idarə, şöbə, bölmə və MSY-də müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların ara-

dan qaldırılması, sənədləşmə və ilkin tutma prosesinə nəzarətin gücləndirilməsi;

4. Polis əməkdaşları arasında milli və beynəlxalq qanunvericilik aktlarının, ”Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının müdafiəsi haqqında“ Azərbaycan Respublikası Qanununun geniş təbliğinin aparılması;

5. DİN-nin İnzibati həbs olunanların saxlanma məntəqələrindəsıxlığın aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi;

6. MSY-lərdə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi;

7. Qanunvericiliyə müvafiq şəkildə MSY-də saxlanılan şəxslərin dövlət hesabına maddi-məişət və gigiyenik vasitələrlə təmin olunması işinin yaxşılaşdırılması;

8. MSY-də saxlanılma şəraitinin yaxşılaşdırılması işlərinin davam etdirilməsi.

**Ədliyyə Nazirliyinə tövsiyələr**

1. Penitensiar müəssisələrdə Daxili İntizam Qaydalarında nəzərdə tutulmuş müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması, sənədləşmə prosesinə nəzarətin gücləndirilməsi;

2. “Azərbaycan Respublikasının Penitensiar sistemində təhlükəsizlik tədbirləri və onların tətbiq edilmə qaydaları haqqında” Təlimatda xüsusi vasitələrin tətbiqi müddətinin, həddinin və əsaslarının BMT-nin Məhkumlarla Rəftara dair Standart Minimum qaydaları, Avropa Penitensiar Qaydaları, eyni zamanda CPT və SPT tövsiyələrinə uyğun son zərurət tədbiri qismində təkmilləşdirilməsi;

3. Cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarətin təşkili və bu sahədə idarəetmənin səmərəliliyinin artırıl-ması məqsədilə Ədliyyə Nazirliyinin Probasiya Xidmətinin fəaliyyətinin genişləndirilməsi, cəza çəkən şəxslərlə yanaşı, keçmiş məhkumların da cəlb olunacağı reabilitasiya və cəmiyyətə adaptasiyasa proqramlarının hazırlanması və icrası;

4. CÇM-lərdə və istintaq təcridxanalarında yaranmış sıxlığın aradan qaldırılması istiqamətində tədbirlərin gücləndirilməsi;

5. Bakı şəhəri Zabrat qəsəbəsində inşa edilən qadın məhkumlar üçün cəzaçəkmə, habelə yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisəsinin, Umbakı qəsəbəsində inşa edilən həbsxananın, Gəncə, Lənkəran şəhərlərində inşa edilən penitensiar komplekslərdə tikinti işlərinin sürətləndirilməsi;

6. Saxlanılan şəxslərin penitensiar müəssisələrdən MSY-lərə (və əks istiqamətə) etap olunarkən bunun üçün nəzərdə tutulmuş müvafiq qatar vaqonlarında sıxlığın və şəraitin qeyri-qənaətbəxş olmasını nəzərə alaraq bu sahədə infrastrukturun yaxşılaşdırılması;

7. Həvəsləndirmə tədbiri kimi və saxlanılan şəxslərin yaxınlarının onlarla müəyyən səbəblərdən görüşə bilməməsini nəzərə alaraq, xarici ölkələrin təcrübəsindən (Polşa Respublikası) də yararlanaraq əlaqə məqsədilə"Skype"la əlaqə imkanlarından istifadə edilməsi;

8. Həbs yerini tərk edən tutulmuş və ya həbs edilmiş şəxslərin ünvanına daxil olan məktubların qanunvericiliyin tələbləri əsasında həbs yerinin müdiriyyəti tərəfindən ən geci 1 gün müddətində tutulmuş və ya həbs edilmiş şəxslərin yaşadıqları yerə göndərilməsi sahəsində işin təkmilləşdirilməsi;

9. PX-in müəssisələrində saxlanılan şəxslərin yazışma və müraciətlərinin konfidensiallığı tələbinin yerinə yetirilməsi istiqamətində tədbirlərin gücləndirilməsi;

10. Məhkumlar üçün ibtidai orta təhsili və peşə təhsilinin həyata keçirilməsi işinin təkmilləşdirilməsi və yenidən təşkilinə dəstək verilməsi;

11. Ölkə Prezidentinin 10 fevral 2017-ci il tarixdə "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi" barədə Sərəncamının icrası çərçivəsində penitensiar müəssisələrdə müasir psixoloji və sosial xidmətlərin təşkili, müəyyən müddətə və ömürlük azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb edilməklə islah olunması, habelə müəyyən əmək haqqı qazanmaqla öz şəxsi ehtiyaclarını ödəmələri üçün yeni istehsalat sahələrinin yaradılması istiqamətində fəaiyyətin genişləndirilməsi.

12. Məhkəmələrdə saxlanılan şəxslər üçün nəzərdə tutulmuş gözləmə salonlarının müasir tələblərə uyğunlaşdırılması işinin davam etdirilməsi.

13. Narkomaniyadan əziyyət çəkən məhkumların, digər məhkumlardan ayrı şəkildə saxlanaraq reabilitasiya proqramlarına cəlb edilməsi (Portuqaliya təcrübəsi) işinin təşkili.

## Səhiyyə Nazirliyinə tövsiyələr

1. DİN-nin MSY-lərində SN-nin ərazi üzrə tibb işçləri tərəfindən keçirilən ilkin tibbi müayinə və tibb yardımın effektivliyinə, həkim müşahidəsi və tibbi yardımın nəticələrinə uyğun sənədləşmənin (Tibbi qeydiyyat jurnalları və tibbi kitabçalarda) aparılması işinin təkmilləşdirilməsinə nəzarətin gücləndirilməsi;

2. Saxlama şəraitinin standartlara uyğun təkmilləşdirilməsi baxımından Gəncə və Şəki Psixiatriya müəssiələrinin binalarının tikintisinin sürətləndirilməsi;

3. Psixiatriya müəssiələrində sıxlıq hallarının qarşısının alınması istiqamətindətədbirlərin görülməsi;

4. Müvafiq müəssisələrdə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına nəzarətin gücləndirilməsi;

5. Səhiyyə xərcləri içərisində psixi (ruhi) sağlamlıq xidmətləri üçün nəzərdə tutulmuş vəsaitin artırılması;

6. Psixi pozuntusu olan şəxslər üçün icma əsaslı proqramların, bu tipli yaşayış yerlərinin yaradılması, pasiyentlərin bacarıq və maraqlarını nəzərə almaqla palatadan kənar ərazidə əməklə məşğul olmaları imkanlarının genişləndirilməsi istiqamətində yeni yanaşmaların tətbiqi;

7. Psixiatriya müəssisələrində xəstələrin diaqnoza uyğun qalma müddətini, təxirəsalınmaz tibbi yardım və müalicə prinsiplərini, onların evə yazılma qaydalarının nizamlanması istiqamətində fəaliyyəti tənzimləyən standartların işlənib hazırlanması;

8. SN tərəfindən stasionar müalicəyə ehtiyacı olmayan və yalnız sosial əlaqələrini itirməsi səbəbindən uzun müddət psixiatriya müəssiələrində yaşayan şəxslərin reabilitasiya və digər sosial proqramlara cəlb olunması;

9. SN tərəfindən regional psixiatriya müəssisələrinin maddi-məişət vəziyyətinin yaxşılaşdırılması üçün müvafiq tədbirlərin görülməsi;

10. Müəssisələrdə beynəlxalq standartlar əsasında sanitar normaların təminatı məsələsinə diqqətin artırılması;

11. Psixiatriya müəssisələrində mövcud ixtisaslı kadrların (həkim-psixiatrların, tibb bacılarının) sayının artırılması, burada çalışan orta və kiçik tibb işçilərinin sahənin spesifikliyini nəzərə alaraq qısamüddətli müvafiq peşə kurslarına cəlb edilməsi, həmçinin keyfiyyətinin artırılması məqsədi ilə göstərdikləri xidmətə müvafiq olaraq onların barəsində həvəsləndirmə tədbirlərinin seçilməsi;

12. Beynəlxalq təcrübə və standartlara uyğun olaraq psixiatriya xəstəxanalarında pasiyentlərin izolyasiyası təcrübəsindən imtina edilməsi işinin təşviqi;

13. Psixiatriya xəstəxanalarında müvafiq qeydiyyat və sənədləşmə işlərinin təkmilləşdirilməsi;

14. SN tərəfindən psixiatriya müəssisələrinə ictimai nəzarətin həyata keçirilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi.

## Təhsil Nazirliyinə tövsiyələr

1. Saxlama şəraitinin standartlara uyğun təkmilləşdirilməsi məqsədilə bir sıra müəssisələrin əsaslı təmirinin həyata keçirilməsi (R.Kəlbiyev adına Xınalıq Tam Orta İnternet Məktəbi, Mingəçevir şəhər Tam Orta İnternat Məktəbi, P.Hüseynov adına Gəncə şəhər Futbol Təmayüllü İnternat Tipli Gimnaziya);

2. Tikilməkdə olan müəssisələrin yataqxanalarının tikinti işinin sürətləndirlməsi (Neftçala rayon M.Səfərov adına İnteqrasiya Təlimli İnternat Tipli Gimnaziya, Lerik şəhər V.İbrahimov adına İnteqrasiya Təlimli İnternat Məktəbi)beynəlxalq təcrübə və standartların nəzərə alınması;

3. Qanunvericiliyin tələbləri əsasında yetkinlik yaşına çatmayanların hüquqpozmalarının profilaktikası və preventiv tədbirlər baxımından açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisələrin fəaliyyətinin reabilitasiya və korreksiya mərkəzləri olaraq müasir beynəlxalq təcrübə əsasında yenidən təşkili;

4. İnternat məktəblərində çalışan tərbiyəçi heyətinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üçün müvafiq peşə kurslarına cəlb edilməsi;

5. Penitensiar müəssisələrdə məhkumlar üçün ibtidai orta təhsili və peşə təhsilinin həyata keçirilməsi işinin təkmilləşdirilməsi və yenidən təş-kili;

6. Müvafiq müəssisələrdə yararlılıq müddəti keçmiş dərman preparatlarının saxlanılması və istifadəsinin qarşısının alınmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə tövsiyələr

1. Qobustan qəsəbəsində yaradılmış keçmiş məhkumlar üçün sosial adaptasiya və reabilitasiya tipli qurumları respublikanın bölgələrində də yaratmaq, regional mərkəzlər qismində fəaliyyət göstərmələri üçün sistemli tədbirlərin hazırlanaraq həyata keçirilməsi;

2. Dövlət Sosial Müdafiə Fondu nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin fəaliyyətinin effektiv təşkili və ƏN tərkibində Probasiya Xidmətinin yaradılmasını nəzərə alaraq bu qurumla sıx əməkdaşlıq edilməsi;

3. ƏƏSMN-nin tabeliyində olan Sosial Xidmət Müəssisələrində müvafiq ştat vahidlərinin (Sosial işçi, psixoloq, loqoped və s.) təmin edilməsi ilə effektiv proqramların həyata keçirilməsi;

4. ƏƏSMN-nin də imkanlarından istifadə edilməklə penitensiar müəssisələrdən azad edilmiş şəxslərin reabilitasiyası və sosial adaptasiyası sahəsində kompleks proqramların həyata keçirilməsi, sosial xidmətlərin inkişaf etdirilməsi;

5. Uzun müddətə azadlıqdan məhrum edilmiş şəxslərin resosiallaşdırılması üçün individual proqramların hazırlanması və praktik tətbiq edilməsi;

6. Cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin məşğulluq probleminin həlli üzrə yeni mexanizmlərin hazırlanması;

7. Sosial Xidmət müəssisələrində sağlamlıq imkanları məhdud, əlilliyi olan və ahıl şəxslər üçün saxlanma şəraitin təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində işlərin davam etdirilməsi;

8. Nazirliyin tabeliyində olan müvafiq müəssisələrdə saxlanılan şəxslərə göstərilən tibbi xidmətin keyfiyyətinin, dərman ehtiyatının artırılması istiqamətində müvafiq işlərin görülməsi və göstərilən xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;

9. Ahıl şəxslərin saxlanılma şəraitinin, habelə bu sahədə milli qanunvericilik aktlarının "Ahıl Şəxslərə dair BMT prinsiplərinə" və digər beynəlxalq standartlara uyğunlaşdırılması.

## Dövlət Miqrasiya Xidmətinə ünvanlanan tövsiyələr

1. Miqrasiya qanunvericiliyində nəzərdə tutulmuş müvafiq qeydiyyat jurnallarının və sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi, çatışmazlıqların aradan qaldırılması, sənədləşmə prosesinə nəzarətin gücləndirilməsi;

2. Yevlax rayon Qanunsuz Miqrantların Saxlanılma Mərkəzində yerləşdirilən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin telefon əlaqəsindən istifadə etmək hüquqlarının həyata keçirilməsi üçün Mərkəzdə telefon danışığı məntəqəsinin yaradılması, kitabxana, bərbərxana, tibb məntəqəsinin təşkil edilməsi;

3. Miqrantlara Dəstək Mərkəzlərinin Avropa ölkələrinin təcrübəsi əsasında (Portuqaliya) yaradılması, bu mərkəzlərdə hüquqi, tibbi, sosial, psixoloji dəstək proqramları həyata keçirilməsi işinin təşkil edilməsi;

4. Qanunsuz miqrantların saxlanılması mərkəzlərindəMiqrasiya qanunvericiliyinin müddəalarında, habelə İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələrində yer almış, şəxslərin hüquqlarının əsas təminat mexanizmlərindən biri kimi vəkillə görüş, konfidensiallığın, qida rasionunun keyfiyyət və kəmiyyət baxımından bir-birinə adekvat olmasının təmin edilməsi, qadın əməkdaşlarının sayının artırılması, tibb xidmətinə çıxış imkanının effektiv təşkili, habelə sənədləşmənin aparılması işinin təkmilləşdirilməsi üzrə nəzarətin gücləndirilməsi.

*Əlavə 1*

# STATİSTİK GÖSTƏRİCİLƏR

*Diaqram 1. MPM-in başçəkmə həyata keçirdiyi müəssisələrin sayı*




*Diaqram 2. MPM-in 2017-ci ildə həyata keçirdiyi başçəkmələr*






*Diaqram 4. MPM-in keçirdiyi başçəkmələrin sayı (illər üzrə)*



*Diaqram 5: MPM-in mətbuat açıqlaması (illər üzrə)*



**İşgəncələrə və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın**

## FAKÜLTATİV PROTOKOLU
### Preambula

Hazırkı Protokolun iştirakçı dövlətləri,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftarın və cəza növlərinin qadağan edildiyini və onların insan hüquqlarının ciddi pozuntuları olduğunu bir daha təsdiq edərək,

İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı Konvensiyanın (bundan sonra "Konvensiya" adlandırılacaq) məqsədlərinə nail olunması və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üzrə gələcək tədbirlərin zəruriliyinə əmin olaraq,

Konvensiyanın 2-ci və 16-cı maddələrinin hər bir iştirakçı dövlətin öz yurisdiksiyasında olan hər hansı ərazidə işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün səmərəli tədbirlərin görülməsini öhdəsinə qoyduğunu xatırlayaraq,

Dövlətlərin bu maddələrin həyata keçirilməsinə görə birbaşa məsuliyyət daşıdığını, azadlıqdan məhrum edilmiş şəxslərin müdafiəsinin gücləndirilməsinin və onların insan hüquqlarına tam riayət olunmasının ümumi vəzifə olduğunu və Konvensiyanın tətbiqi üzrə beynəlxalq qurumların milli tədbirləri tamamladığını və möhkəmləndirdiyini etiraf edərək,

İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin səmərəli şəkildə qarşısının alınmasının maarifləndirmə sahəsində tədbirlərin görülməsini və müxtəlif qanunvericilik, inzibati, məhkəmə və digər tədbirlərin birləşdirilməsini tələb etdiyini xatırlayaraq,

Həmçinin, Vyanada 1993-cü ilin iyun ayında keçirilmiş İnsan Hüquqları üzrə Ümumdünya Konfransında işgəncələrin kökünün kəsilməsi üzrə səylərin ilk öncə onun qarşısının alınmasına yönəlməli olduğunu bəyan etdiyini və saxlanma yerlərinə mütəmadi başçəkmə üzrə preventiv sistemin yaradılması məqsədi daşıyan Konvensiyanın fakültativ protokolunun qəbul edilməsinə çağırdığını xatırlayaraq,

Azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin saxlanma yerlərinə mütəmadi başçəkmələrə əsaslanan preventiv xarakter

daşıyan qeyri-məhkəmə tədbirləri əsasında gücləndirə bilinməsinə əmin olaraq,

Aşağıdakılar barədə razılığa gəldilər:

## I HİSSƏ

## ÜMUMİ PRİNSİPLƏR

***Maddə 1***

Hazırkı Protokolun məqsədi işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən mütəmadi başçəkmələr sisteminin yaradılmasından ibarətdir.

***Maddə 2***

1. Hazırkı Protokolda ifadə olunan funksiyaları yerinə yetirən İşgəncələrə qarşı Komitənin İşgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üzrə Altkomitə (bundan sonra Qarşısını Alma üzrə Altkomitə adlandırılacaq) yaradılır.

2. Qarşısını Alma üzrə Altkomitə fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərinin, habelə Birləşmiş Millətlər Təşkilatının azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını rəhbər tutur.

3. Qarşısını Alma üzrə Altkomitə, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur.

4. Qarşısını Alma üzrə Altkomitə və iştirakçı dövlətlər hazırkı Protokolun həyata keçirilməsində əməkdaşlıq edir.

***Maddə 3***

Hər bir iştirakçı dövlət işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması məqsədilə milli səviyyədə (milli preventiv mexanizmlər adlandırılan) bir və ya bir neçə başçəkmə orqanını yaradır, təyin edir və ya dəstəkləyir.

***Maddə 4***

1. Hər bir iştirakçı dövlət Hazırkı Protokola, 2-ci və 3-cü maddələrdə qeyd olunan mexanizmlərə uyğun olaraq yurisdiksiyası və nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin dövlət orqanının sərəncamı və ya onun göstərişi, yaxud icazəsi və ya susmaqla razılığı əsasında saxlanıldığı və yaxud saxlanıla bildiyi hər bir yerə (bundan sonra saxlanma yerləri adlandırılacaq) başçəkmələrə icazə verir. Zərurət olduqda bu başçəkmələr belə şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti

alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi məqsədi ilə həyata keçirilir.

2. Hazırkı Protokolun məqsədləri üçün azadlıqdan məhrum etmə dedikdə şəxsin hər hansı məhkəmə, inzibati və ya digər orqanın qərarı ilə həbsdə saxlanılmasının və ya azadlıqdan məhrum edilməsinin, yaxud öz iradəsi ilə tərk etmə hüququ olmadan dövlət yaxud özəl həbsdə saxlanma yerinə yerləşdirilməsinin istənilən forması başa düşülür.

## II HİSSƏ

## QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏ

***Maddə 5***

1. Qarşısını alma üzrə Altkomitə on üzvdən ibarətdir. Hazırkı Protokolun əllinci ratifikasiya fərmanının və ya ona qoşulma haqqında sənədin saxlanma üçün verilməsindən sonra Altkomitənin üzvlərinin sayı iyirmi beş nəfərə qədər artırılır.

2. Qarşısını alma üzrə Altkomitənin üzvləri yüksək mənəvi keyfiyyətlərə malik və ədalət mühakiməsi, xüsusilə də cinayət ədalət mühakiməsi sahəsində, penitensiar sistemdə və ya polis orqanlarında, yaxud azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla aid istənilən sahələrdə təsdiq edilmiş iş təcrübəsi olan şəxslər sırasından seçilir.

3. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı ədalətli coğrafi bölgü və iştirakçı dövlətlərin müxtəlif mədəniyyət formalarının və hüquq sistemlərinin təmsilçiliyinin zərurətinə lazımi diqqət yetirilir.

4. Qarşısını alma üzrə Altkomitənin yaradılması zamanı həmçinin bərabərlik və ayrı-seçkiliyin yolverilməzliyi prinsipləri əsasında tarazlaşdırılmış gender təmsilçiliyinə diqqət yetirilir.

5. Qarşısını alma üzrə Altkomitənin tərkibinə eyni dövlətin birdən çox vətəndaşı daxil ola bilməz.

6. Qarşısını alma üzrə Altkomitənin üzvləri öz funksiyalarını şəxsi qisimdə həyata keçirir, onlar müstəqil və qərəzsiz olmalı və Altkomitənin tərkibində səmərəli işləməyə imkanları olmalıdır.

***Maddə 6***

1. Hər bir iştirakçı dövlət hazırkı maddənin 2-ci bəndinə uyğun olaraq 5-ci maddədə təsbit olunmuş ixtisas və tələblərə cavab verən iki namizədi irəli sürə bilər, bununla belə dövlət həmin namizədlərin ixtisası haqqında ətraflı məlumat təqdim edir.

2. a) Namizədlər hazırkı Protokolun iştirakçı dövlətinin vətəndaşı olmalıdır;

b) irəli sürülmüş iki namizəddən ən azı biri onun namizədliyini irəli sürən iştirakçı dövlətin vətəndaşlığına malik olmalıdır;

c) bir iştirakçı dövlətin vətəndaşı olan iki nəfərdən çox namizəd irəli sürülə bilməz;

d) hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin vətəndaşını namizəd kimi irəli sürməkdən əvvəl, o, həmin iştirakçı dövlətə sorğu verir və razılığını alır.

3. Seçkilərin keçirilməsi nəzərdə tutulan iştirakçı dövlətlərin müşavirəsinin başlanmasından ən azı beş ay əvvəl Birləşmiş Millətlər Təşkilatının Baş katibi iştirakçı dövlətlərə üç ay ərzində öz namizədlərini irəli sürmək təklifi ilə məktub göndərir. Baş katib bütün namizədlərin, onları irəli sürmüş iştirakçı dövlətlər göstərilməklə əlifba qaydasında siyahısını təqdim edir.

***Maddə 7***

1. Qarşısını alma üzrə Altkomitənin üzvləri aşağıdakı qaydada seçilir:

a) əsas diqqət hazırkı Protokolun 5-ci maddəsinin tələblərinə və meyarlarına əməl edilməsinə yetirilir;

b) ilk seçkilər hazırkı Protokolun qüvvəyə minməsindən sonra altı ay müddətindən gec olmayaraq keçirilir;

c) iştirakçı dövlətlər Qarşısını alma üzrə Altkomitənin üzvlərini gizli səsvermə yolu ilə seçir;

d) Qarşısını alma üzrə Altkomitənin üzvünün seçkiləri Birləşmiş Millətlər Təşkilatının Baş katibi tərəfindən iki ildə bir dəfə çağırılan iştirakçı dövlətlərin iclaslarında keçirilir. İştirakçı dövlətlərin sayının üçdə iki hissəsi kvorum hesab edilən bu iclaslarda ən çox səs və iştirak edən və səs verən iştirakçı dövlətlərin nümayəndələrinin mütləq səs çoxluğunu toplamış şəxslər Altkomitəyə seçilmiş üzvlər hesab olunur.

2. Seçkilər zamanı hər hansı iştirakçı dövlətin iki vətəndaşının Qarşısını alma üzrə Altkomitənin tərkibində işləmək hüququnu əldə etdiyi təqdirdə, ən çox səs toplamış namizəd Altkomitənin üzvü seçilir. Bu vətəndaşların eyni sayda səs topladığı təqdirdə, aşağıdakı prosedur tətbiq olunur:

a) namizədlərin yalnız biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə bu vətəndaş Qarşısını alma üzrə I Altkomitənin üzvü seçilir;

b) hər iki namizəd vətəndaş olduqları iştirakçı dövlət tərəfindən irəli sürüldüyü təqdirdə, Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir;

c) namizədlərdən heç biri vətəndaşı olduğu iştirakçı dövlət tərəfindən irəli sürülmədiyi təqdirdə Qarşısını alma üzrə Altkomitənin üzvlüyünə namizədlərdən birinin müəyyən edilməsi üçün ayrıca gizli səsvermə keçirilir.

***Maddə 8***

Qarşısını alma üzrə Altkomitə üzlərindən birinin vəfat etdiyi və ya istefa verdiyi yaxud hər hansı digər səbəbdən Altkomitə üzvünün funksiyalarını yerinə yetirməsi mümkün olmadığı təqdirdə, onun namizədliyini irəli sürmüş iştirakçı dövlət seçilmək hüququ olan, 5-ci maddədə təsbit olunmuş ixtisasa malik və tələblərə cavab verən şəxsi teyin edir. Bu şəxs səlahiyyətlərin müxtəlif sahələri arasında müvafiq tarazlığın təmin edilməsi zərurəti nəzərə alınmaqla, iştirakçı dövlətlərin növbəti iclasına qədər olan səlahiyyət müddətinə, onun iştirakçı dövlətlərin çoxluğu tərəfindən təsdiq olunması şərti ilə teyin olunur. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin ehtimal edilən təyinat haqqında bildirişindən sonra altı ay ərzində iştirakçı dövlətlərin yarısı və ya yarısından çoxu tərəfindən belə təyinata qarşı çıxış edilmədiyi təqdirdə təsdiqetmə baş tutmuş hesab olunur.

***Maddə 9***

Qarşısını alma üzrə Altkomitənin üzvləri il 4 müddətinə seçilir. Namizədlikləri irəli sürüldüyü təqdirdə onlar bir dəfə təkrarən seçilə bilərlər. İlk seçkilərdə seçilmiş üzvlərin yarısının səlahiyyət müddəti iki illik müddət bitdikdən sonra başa çatır; ilk seçkilərdən dərhal sonra bu üzvlərin adları 7-ci maddənin 1 d bəndində qeyd olunan iclasın Sədri tərəfindən keçirilən püşk atma yolu ilə müəyyən olunur.

***Maddə 10***

1. Qarşısını alma üzrə Altkomitə öz vəzifəli şəxslərini iki il müddətinə seçir. Onlar təkrarən seçilə bilərlər.

2. Qarşısını alma üzrə Altkomitə öz prosedur qaydalarını müəyyən edir. Bu prosedur qaydalar xüsusilə aşağıdakıları nəzərdə tutur:

a) üzvlərin yarısı üstə gəl bir kvorum təşkil edir;

b) Qarşısını alma üzrə Altkomitənin qərarları iştirak edən üzvlərin səs çoxluğu ilə qəbul olunur;

c) Qarşısını alma üzrə Altkomitənin iclasları qapalı keçirilir.

3. Birləşmiş Millətlər Təşkilatının Baş katibi Qarşısını alma üzrə Altkomitənin ilk iclasını çağırır. İlk iclasdan sonra Qarşısını alma üzrə Altkomitə prosedur qaydalarına müvafiq olan intervalda iclaslarını keçirir. Altkomitə və İşgəncələrə qarşı Komitə ildə bir dəfədən az olmayaraq birlikdə toplaşırlar.

# III HİSSƏ

# QARŞISINI ALMA ÜZRƏ ALTKOMİTƏNİN MANDATI

***Maddə 11***

Qarşısını alma üzrə Altkomitə:

a) 4-cü maddədə qeyd olunan yerlərə baş çəkir və azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsi ilə bağlı iştirakçı dövlətlərə tövsiyələr təqdim edir;

b) milli preventiv mexanizmlərə münasibətdə:

i) zərurət olduqda, beləmexanizmlərin yaradılmasında iştirakçı dövlətlərə məsləhət verir və yardım göstərir;

ii) milli preventiv mexanizmlərlə birbaşa, zərurət olduqda konfidensial şəkildə əlaqə saxlayır və onların potensialının gücləndirilməsi məqsədi ilə peşəkar hazırlıq və texniki yardım sahəsində xidmətlər təklif edir;

iii) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri tədbirlərin qiymətləndirilməsi işində məsləhət verir və yardım göstərir;

iv) milli preventiv mexanizmlərinin imkanlarının və mandatının gücləndirilməsi məqsədi ilə işgəncələrin və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması üçün iştirakçı dövlətlərə tövsiyə və iradları təqdim edir.

c) işgəncələrin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının aidiyyəti qurum və mexanizmləri ilə, habelə bütün şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi marağından çıxış edən beynəlxalq, regional və milli təsisat və ya təşkilatlarla əməkdaşlıq edir.

***Maddə 12***

Qarşısını alma üzrə Altkomitənin 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirə bilməsi üçün iştirakçı dövlətlər aşağıdakıları öhdəsinə götürür:

a) Qarşısını alma üzrə Altkomitəni öz ərazisində qəbul etmək və hazırkı Protokolun 4-cü Maddəsində müəyyən olunmuş saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

b) azadlıqdan məhrum edilmiş şəxslərin işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiəsinin gücləndirilməsi üçün ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Qarşısını alma üzrə Altkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

c) Qarşısını alma üzrə Altkomitə və milli preventiv mexanizmlər arasında əlaqələri təşviq etmək və asanlaşdırmaq;

d) Qarşısını alma üzrə Altkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

***Maddə 13***

1. Qarşısını alma üzrə Altkomitə 11-ci Maddədə təsbit olunmuş mandatının həyata keçirilməsi məqsədilə iştirakçı dövlətlərə müntəzəm başçəkmələr proqramını ilk dəfə püşk atma yolu ilə müəyyən edir.

2. Məsləhətləşmələrin keçirilməsindən sonra, Qarşısını alma üzrə Altkomitə öz proqramı haqqında iştirakçı dövlətləri məlumatlandırır ki, onlar təxirə salınmadan başçəkmələrin həyata keçirilməsi üçün zəruri tədbirlər görsün.

3. Başçəkmələr Qarşısını alma üzrə Altkomitənin ən azı iki üzvü tərəfindən həyata keçirilir. Zərurət olduqda, bu üzvləri hazırkı Protokolun əhatə etdiyi sahələr üzrə təsdiq olunmuş iş təcrübəsinə və biliklərə malik ekspertlər müşayiət edə bilər. Ekspertlər Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarı və Beynəlxalq Cinayətkarlığın Qarşısının Alınması üzrə Mərkəzi tərəfindən, iştirakçı dövlətlərin irəli sürdüyü təkliflər əsasında hazırlanmış ekspertlər siyahısından seçilir. Bu siyahının hazırlanması zamanı aidiyyəti iştirakçı dövlətlər 5 nəfərdən çox olmayaraq milli ekspert təklif edir. Aidiyyəti iştirakçı dövlət başçəkmə üçün təklif edilmiş ekspertin namizədliyini rədd edə bilər, bundan sonra Altkomitə digər eksperti təklif edir.

4. Qarşısını alma üzrə Altkomitə zəruri hesab etdiyi təqdirdə, müntəzəm başçəkmənin həyata keçirilməsindən sonra növbəti qısa başçəkmə təşkil etməyi təklif edə bilər.

***Maddə 14***

1. Qarşısını alma üzrə Altkomitə mandatını həyata keçirə bilməsi üçün hazırkı Protokolun iştirakçı dövlətləri ona aşağıdakıları təqdim etməyi öhdələrinə götürürlər:

a) 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların saxlanma şəraiti haqqında istənilən məlumat məhdudiyyətsiz əldə etmək imkanı;

c) aşağıdakı 2-ci məndə uyğun olaraq, bütün saxlanma yerlərinə, onların binalarına və obyektlərinə məhdudiyyətsiz buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda, tərcüməçi vasitəsilə, habelə Altkomitənin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi qaydada söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduğu yerləri və söhbət etmək niyyətində olduğu şəxsləri maneəsiz seçmək hüququ.

2. Konkret saxlanma yerinə başçəkməyə münasibətdə etirazlar yalnız təcili surətdə baş vermiş və başçəkməyə müvəqqəti maneə törədən milli müdafiə, dövlət təhlükəsizliyi, təbii fəlakət və ya baş çəkilməsi ehtimal edilən yerdə ciddi iğtişaşla bağlı inandırıcı mülahizələrə əsaslana bilər. Elan olunmuş fövqəladə vəziyyətin mövcudluğu başçəkmənin həyata keçirilməsinə etiraz səbəbi kimi gətirilə bilməz.

***Maddə 15***

Heç bir orqan və ya vəzifəli şəxs Qarşısını alma üzrə Altkomitəyə və ya onun üzvlərinə verilən hər hansı, istər doğru, istərsə də yalan, məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və heç bir belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

***Maddə 16***

1. Qarşısını alma üzrə Altkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə və zərurət olduqda, milli preventiv mexanizminə göndərir.

2. Qarşısını alma üzrə Altkomitə öz hesabatını iştirakçı dövlət tərəfindən müvafiq xahişin daxil olduğu təqdirdə, iştirakçı dövlətin iradları ilə birlikdə dərc edir. İştirakçı dövlət hesabatın bir hissəsini açıqladığı təqdirdə Altkomitə hesabatı tam və ya qismən dərc edə bilər. Bununla yanaşı şəxsi xarakter daşıyan məlumatlar müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olmadan dərc edilə bilməz.

3. Qarşısını alma üzrə Altkomitə fəaliyyəti haqqında açıq illik hesabatını İşgəncələrə qarşı Komitəyə təqdim edir.

4. İştirakçı dövlətin 12-ci və 14-cü Maddələrə uyğun olaraq Qarşısını alma üzrə Altkomitə ilə əməkdaşlıq etməkdən və ya Qarşısını alma üzrə Altkomitənin tövsiyələrinə müvafiq olaraq vəziyyətin yaxşılaşdırılması üçün tədbirlər görməkdən imtina etdiyi təqdirdə, İşgəncələrə qarşı Komitə Qarşısını alma üzrə Altkomitənin xahişi ilə iştirakçı dövlətə öz mülahizələrini ifadə etmək imkanı verdikdən sonra açıq bəyanatla çıxış etmək və ya Altkomitənin hesabatını dərc etmək barədə öz üzvlərinin səs çoxluğu ilə qətnamə qəbul edə bilər.

# IV HİSSƏ

## MİLLİ PREVENTİV MEXANİZMLƏR

***Maddə 17***

Hazırkı Protokolun qüvvəyə minməsindən, və ya onun ratifikasiyasından, yaxud ona qoşulmasından sonra bir ildən gec olmayaraq hər bir iştirakçı dövlət milli səviyyədə işgəncələrin qarşısının alınması üçün bir və ya bir neçə müstəqil milli preventiv mexanizmləri dəstəkləyir, teyin və ya təsis edir. Mərkəzsizləşdirilmiş orqanlar tərəfindən təsis edilmiş mexanizmlər hazırkı Protokolun məqsədləri üçün, Protokolun tələblərinə cavab verdiyi təqdirdə, milli preventiv mexanizmlər qismində teyin edilə bilər.

***Maddə 18***

1. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin funksional müstəqilliyinə, habelə onların işçi heyətinin müstəqilliyinə təminat verir.

2. İştirakçı dövlətlər milli preventiv mexanizmlərinin ekspertlərinin zəruri potensiala və peşə biliklərinə malik olmasının təmin edilməsi üçün zəruri tədbirlər görür. Onlar gender balansını və ölkədə mövcud olan etnik və azlıq qruplarının bərabər təmsilçiliyini təmin edir.

3. İştirakçı dövlətlər milli preventiv mexanizmlərin fəaliyyəti üçün zəruri resursları təqdim etməyi öhdələrinə götürür.

4. Milli preventiv mexanizmlərin yaradılması zamanı iştirakçı dövlətlər insan hüquqlarının müdafiəsi və təşviq edilməsi üzrə milli təsisatların statusuna dair Prinsipləri nəzərə alır.

***Maddə 19***

Milli preventiv mexanizmlərə ən azı aşağıdakı səlahiyyətlər verilir:

a) zərurət olduqda, işgəncələrdən və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərindən müdafiənin gücləndirilməsi məqsədilə 4-cü Maddədə müəyyən olunmuş saxlanma yerlərində azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarla bağlı məsələyə müntəzəm olaraq baxılması;

b) Birləşmiş Millətlər Təşkilatının müvafiq normaları nəzərə alınmaqla azadlıqdan məhrum edilmiş şəxslərlə rəftarın və onların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə müvafiq qurumlara tövsiyələrin təqdim edilməsi, işgəncələrin və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinin qarşısının alınması;

c) qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təklif və qeydlərin təqdim edilməsi.

*Maddə 20*

Milli preventiv mexanizmlərin öz mandatının yerinə yetirə bilməsi məqsədilə, hazırkı Protokolun iştirakçı dövlətlər onlara aşağıdakıları təqdim etməyi öhdələrinə götürür:

a) 4-cü Maddədə müəyyən olunmuş həbsdə saxlanma yerlərində olan azadlıqdan məhrum edilmiş şəxslərin sayı, həmçinin belə yerlərin sayı və yerləşdiyi yer haqqında istənilən məlumatı əldə etmək imkanı;

b) belə şəxslərlə rəftar, habelə onların həbsdə saxlanma şəraiti haqqında istənilən məlumatı əldə etmək imkanı;

c) bütün həbsdə saxlanma yerlərinə, onların binalarına və obyektlərinə buraxılış;

d) azadlıqdan məhrum edilmiş şəxslərlə şahidsiz, şəxsən və ya zərurət olduqda tərcüməçi vasitəsilə, habelə milli preventiv mexanizmin fikrinə görə aidiyyəti məlumatı verə biləcək istənilən digər şəxslə fərdi söhbətlər aparmaq imkanı;

e) baş çəkmək niyyətində olduqları yerləri və söhbət etmək niyyətində olduqları şəxsləri maneəsiz seçmək hüququ;

f) Qarşısını alma üzrə Altkomitə ilə əlaqələr qurmaq, ona məlumat ötürmək və onunla görüşmək hüququ.

*Maddə 21*

1. Heç bir orqan və ya vəzifəli şəxs milli preventiv mexanizmə verilən hər hansı, istər doğru, istərsə də yalan məlumatın bildirilməsinə görə istənilən şəxs və ya təşkilata münasibətdə hər hansı sanksiyanı teyin edə, tətbiq edə, icazə verə və ya yol verə bilməz və hər hansı belə şəxs və ya təşkilat digər şəkildə sıxışdırıla bilməz.

2. Milli preventiv mexanizm tərəfindən toplanmış konfidensial məlumat açıqlanmır. Şəxsi xarakter daşıyan məlumatlar yalnız müvafiq şəxsin birbaşa ifadə edilən razılığı olduğu təqdirdə dərc edilir.

*Maddə 22*

Müvafiq iştirakçı dövlətin səlahiyyətli orqanları milli preventiv mexanizmin tövsiyələrini araşdırır və onların tətbiqi üzrə mümkün təbirlərlə bağlı dialoq aparır.

*Maddə 23* Hazırkı Protokolun iştirakçı dövlətləri milli preventiv mexanizmlərinin illik hesabatlarının dərc etməyi və yaymağı öhdələrinə götürür.

## V HİSSƏ

## BƏYANAT

***Maddə 24***

1. Ratifikasiyadan sonra iştirakçı dövlətlər hazırkı Protokolun III Hissəsinə və ya IV Hissəsinə uyğun olaraq öz öhdəliklərinin yerinə yetirilməsinin təxirə salınması ilə bağlı bəyanat verə bilər.

2. Belə təxirə salınma ən çoxu üç il müddətində qüvvədə qalır. İştirakçı dövlət tərəfindən müvafiq materialların təqdim edilməsindən və Qarşısını alma üzrə Altkomitə ilə məsləhətləşmələrdən sonra İşgəncələrə qarşı Komitə bu müddəti daha iki il uzada bilər.

## VI HİSSƏ

## MALİYYƏ MÜDDƏALARI

***Maddə 25***

1. Hazırkı Protokolun həyata keçirilməsi zamanı Qarşısını alma üzrə Altkomitə tərəfindən sərf edilmiş xərclər Birləşmiş Millətlər Təşkilatı tərəfindən ödənilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokola uyğun olaraq Qarşısını alma üzrə Altkomitəni funksiyalarını səmərəli şəkildə yerinə yetirməsi üçün zəruri işçi heyət və vəsaitlə təmin edir.

***Maddə 26***

1. Başçəkmədən sonra Qarşısı alma üzrə Altkomitə tərəfindən iştirakçı dövlətə irəli sürülmüş tövsiyələrin həyata keçirilməsi və milli preventiv mexanizmləri üçün tədris proqramlarının maliyyələşdirilməsi məqsədilə Baş Assambleyanın müvafiq proseduruna uyğun olaraq Birləşmiş Millətlər Təşkilatının maliyyə müddəaları və qaydaları əsasında idarə olunan Xüsusi Fond yaradılır.

2. Bu Xüsusi Fond hökumətlər, hökumətlərarası, qeyri-hökumət və digər özəl və ya dövlət qurumları tərəfindən ödənilən könüllü ödəmələr hesabına maliyyələşə bilər.

## VII HİSSƏ

## YEKUN MÜDDƏALAR

***Maddə 27***

1. Hazırkı Protokol Konvensiyanı imzalamış istənilən dövlətə imzalanmaq üçün açıqdır.

2. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlət tərəfindən ratifikasiya olunmalıdır. Ratifikasiya fərmanları saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

3. Hazırkı Protokol Konvensiyanı ratifikasiya etmiş və ya ona qoşulmuş istənilən dövlətə qoşulmaq üçün açıqdır.

4. Qoşulma bu haqda sənədin saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilməsi yolu ilə həyata keçirilir.

5. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hər bir ratifikasiya fərmanının və ya qoşulma haqqında sənədin saxlanılması üçün təhvil verilməsi barədə hazırkı Protokolu imzalamış və ya ona qoşulmuş bütün dövlətləri məlumatlandırır.

***Maddə 28***

1. Hazırkı Protokol 20-ci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verildikdən sonra otuzuncu gün qüvvəyə minir.

2. Hazırkı Protokol iyirminci ratifikasiya fərmanı və ya qoşulma haqqında sənəd saxlanılması üçün təhvil verildikdən sonra onu ratifikasiya edən, yaxud ona qoşulan hər bir dövlət üçün həmin dövlət öz ratifikasiya fərmanını, yaxud qoşulma haqqında sənədini saxlanılması üçün təhvil verdikdən sonra otuzuncu gün qüvvəyə minir.

***Maddə 29***

Hazırkı Protokolun müddəaları heç bir məhdudiyyət və istisna olmadan federativ dövlətlərin bütün hissələrinə şamil olunur.

***Maddə 30***

Hazırkı Protokola dair hər hansı qeyd-şərtlərə yol verilmir.

***Maddə 31***

Hazırkı Protokolun müddəaları saxlanma yerlərinə başçəkmə sisteminə əsaslanan istənilən regional konvensiyalar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə toxunmur. Təkrarlanmadan yayınmaq və hazırkı Protokolun məqsədlərinə səmərəli nail olunmasını təmin etmək üçün Qarşısını alma üzrə Altkomitəyə və belə regional konvensiyalara uyğun olaraq təsis edilmiş orqanlara məsləhətləşmələr aparmaq və əməkdaşlıq etmək təklif olunur.

***Maddə 32***

Hazırkı Protokolun müddəaları 12 avqust 1949-cu il tarixli dörd Cenevrə Konvensiyası və onlara dair 8 iyun 1977-ci il tarixli Əlavə Protokollar üzrə iştirakçı dövlətlərin öhdəliklərinə, habelə beynəlxalq humanitar hüquqla əhatə olunmayan vəziyyətlərdə iştirakçı dövlətin Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən saxlanma yerlərinə baş çəkməyə icazə vermək hüququna toxunmur.

***Maddə 33***

1. Hər hansı iştirakçı dövlət Birləşmiş Millətlər Təşkilatının Baş katibinə yazılı bildiriş göndərməklə hazırkı Protokolu denonsasiya edə bilər. Bundan sonra Baş katib hazırkı Protokolun və Konvensiyanın iştirakçı dövlətlərini bu barədə məlumatlandırır. Denonsasiya Baş katib belə bildiriş aldıqdan bir il sonra qüvvəyə minir.

2. Belə denonsasiya iştirakçı dövləti denonsasiya qüvvəyə mindiyi tarixə qədər baş verə bilən hər hansı hərəkətinə və ya vəziyyətinə görə və ya Qarşısını alma üzrə Altkomitə tərəfindən aidiyyəti iştirakçı dövlətə münasibətdə qət edilən və ya qət edilə bilən tədbirlərə görə hazırkı Protokol üzrə öhdəliklərindən azad etmir və denonsasiya qüvvəyə mindiyi tarixə qədər Altkomitədə baxılmış hər hansı məsələnin davam edən baxışına heç bir halda xələl gətirmir.

3. İştirakçı dövlət tərəfindən bəyan edilmiş denonsasiyanın qüvvəyə mindiyi tarixdən sonra Qarşısını alma üzrə Altkomitə həmin dövlətə aid yeni məsələnin baxılmasına başlaya bilməz.

***Maddə 34***

1. Hər hansı iştirakçı dövlət hazırkı Protokola dair düzəliş təklif edə və onu Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təqdim edə bilər. Bundan sonra Birləşmiş Millətlər Təşkilatının Baş katibi təklif olunmuş düzəlişi hazırkı Protokolun iştirakçı dövlətlərinə göndərərək, bu təklifə baxmaq və onu səsə qoymaq məqsədilə iştirakçı dövlətlərin konfransının çağırılmasına razı olub-olmamalarını ona bildirməyi xahiş edir. Bu məktubun göndərildiyi tarixdən keçən dörd ay ərzində iştirakçı dövlətlərdən ən azı üçdə biri belə konfransın çağırılmasına razılıq verdiyi təqdirdə Baş katib Birləşmiş Millətlər Təşkilatının himayəsi ilə konfrans çağırır. Baş katib bu konfransda və səsvermədə iştirak edən iştirakçı dövlətlərin üçdə ikisinin çoxluğu ilə qəbul edilən hər hansı düzəlişi təsdiq üçün bütün iştirakçı dövlətlərə gön-dərir.

2. Bu Maddənin 1-ci bəndinə müvafiq olaraq qəbul edilmiş düzəliş hazırkı Protokolun iştirakçı dövlətlərinin üçdə ikisi həmin düzəlişi öz konstitusiya prosedurlarına uyğun qəbul etdiklərini Birləşmiş Millətlər Təşkilatının Baş katibinə bildirdikdən sonra qüvvəyə minir.

3. Düzəlişlər qüvvəyə mindikdən sonra, onları qəbul etmiş iştirakçı dövlətlər üçün məcburi olur, digər iştirakçı dövlətlər üçün isə qəbul etmiş ol-

duqları hazırkı Protokolun müddəaları və əvvəlki düzəlişlər məcburi olaraq qalır.

***Maddə 35***

Qarşısını alma üzrə Altkomitənin üzvlərinə və milli preventiv mexanizmlərinin üzvlərinə onların funksiyalarının müstəqil şəkildə yerinə yetirilməsi üçün zəruri olan imtiyaz və immunitetlər verilir. Altkomitənin üzvlərinə Birləşmiş Millətlər Təşkilatının imtiyaz və immunitetləri haqqında 13 fevral 1946-cı il tarixli Konvensiyasının 23-cü fəslinin müddəalarına əməl olunmaqla, həmin Konvensiyanın 22-ci fəslində sadalanan imtiyaz və immunitetlər verilir.

***Maddə 36***

İştirakçı dövlətə baş çəkərkən Qarşısını alma üzrə Altkomitənin üzvləri hazırkı Protokolun müddəa və məqsədlərinə və istifadə edə biləcəkləri imtiyaz və immunitetlərə xələl gətirmədən:

a) baş çəkilən dövlətin qanun və normalarına riayət edir;

b) vəzifələrinin qərəzsiz və beynəlxalq xarakteri ilə bir araya sığmayan hər hansı hərəkət və fəaliyyətdən çəkinir.

***Maddə 37***

1. İngilis, ərəb, ispan, çin, rus və fransız dillərindəki mətnləri bərabər olaraq autentik olan hazırkı Protokol saxlanılması üçün Birləşmiş Millətlər Təşkilatının Baş katibinə təhvil verilir.

2. Birləşmiş Millətlər Təşkilatının Baş katibi hazırkı Protokolun təsdiq edilmiş nüsxələrini bütün dövlətlərə göndərir.